Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

ICMPD
International Centre for
Migration Policy Development

MOBILAZE
Azərbaycan və Avropa İttifaqı vətəndaşlarını
bir-birinə daha yaxın edək

# MİQRASİYA ÜZRƏ KURİKULUM

---

## Hüquq, iqtisadiyyat, sosial-siyasi elmlər, beynəlxalq münasibətlər, jurnalistika fakültələrinin bakalavr/magistr tələbələri, habelə dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının gənc mütəxəssisləri üçün

# MİQRASİYA ÜZRƏ KURİKULUM

**Hüquq, iqtisadiyyat, sosial-siyasi elmlər, beynəlxalq münasibətlər, jurnalistika fakültələrinin bakalavr/magistr tələbələri, habelə dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının gənc mütəxəssisləri üçün**

**Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM)**
Rothschildplatz 4
A-1020 Vyana şəhəri
www.icmpd.org

**Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz**
Avstriya Respublikası, Vyana şəhəri
2024-cü il

**Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin Azərbaycandakı Nümayəndəliyi**
Azərbaycan Respublikası, Bakı şəhəri,
Səməd Vurğun küç. 43, World Business Centre
2024-cü il

Bütün hüquqlar qorunur. Bu nəşrin heç bir hissəsi müəllif hüquqları sahiblərinin icazəsi olmadan hər hansı formada və ya üsulla, elektron və ya mexaniki, o cümlədən surətçıxarma, yazma, yaxud da istənilən məlumat saxlama və axtarış sistemi ilə yenidən dərc edilə, təkrarlana və ya ötürülə bilməz.

Bu sənəd Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Yalnız MSİBM bu nəşrin məzmununa məsuliyyət daşıyır və burada qeyd olunanlar Avropa İttifaqına məxsus mövqeyin mütləq şəkildə ifadə edilməsi kimi qəbul olunmamalıdır.

# Giriş

Kurikulum Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) tərəfindən həyata keçirilən "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində hazırlanmış Miqrasiya üzrə dərslik əsasında tərtib edilib. Kurikulum Azərbaycanda akademik dairələrin, eləcə də Dövlət Miqrasiya Xidmətinin (DMX) Miqrasiya üzrə Regional Təlim Mərkəzi, aidiyyəti miqrasiya orqanlarının, eləcə də müvafiq qeyri-hökumət təşkilatlarının (QHT) təlim mərkəzləri kimi digər qurumların ehtiyacları üçün hazırlanıb. Odur ki, Azərbaycanda miqrasiya idarəçiliyinə dair yenilənmiş informasiyanı müvafiq maraqlı tərəflərə təqdim etmək məqsədi ilə bu kurikulum yalnız akademik deyil, qeyri-akademik mühitlər tərəfindən də istifadə üçün nəzərdə tutulub. Bilavasitə akademik dairələrə gəldikdə, ilk növbədə, hüquq, sosial-siyasi elmlər, iqtisadiyyat, beynəlxalq münasibətlər və jurnalistika fakültələri miqrasiya araşdırmaları ilə birgə fənlərarası mövzu kimi miqrasiyaya aid daha kompleks məsələlərlə tanış olaraq kurikulumdan faydalana biləcəklər.

Öz strukturuna görə Miqrasiya üzrə kurikulum aşağıda sadalanan 6 ayrı moduldan ibarətdir:

1. Miqrasiya mövzusuna giriş
2. Miqrasiya məlumatları və bu məlumatların idarə edilməsi
3. Miqrasiyanın hüquqi aspektləri
4. Miqrasiya idarəçiliyi və miqrasiyanın təhlükəsizlik mövzusuna çevrilməsi
5. Azərbaycanda və qonşu ölkələrdə miqrasiya idarəçiliyi
6. Miqrant inteqrasiyası

Nəzərə alsaq ki, miqrasiya fənlərarası və kəsişən mövzudur, müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr və aidiyyəti sahələrdə təcrübəsi olan bütün praktiklər miqrasiya ilə bağlı kurslarda iştirak edə biləcəklər. Ona görə də bu kurikulum əsasən yuxarıda qeyd olunan fakültələr üçün nəzərdə tutulsa da, bu və ya digər şəkildə miqrasiya ilə məşğul olan bütün fakültələrin inklüzivliyinə imkan yaradır. Bununla belə, yalnız iki modul – "Miqrasiya mövzusuna giriş" və "Azərbaycanda və qonşu ölkələrdə miqrasiya idarəçiliyi" bu kurikulumda nəzərdə tutulan bütün fakültələr üçün icbari xarakter daşıyır. Qalan modullar, onların iştirakçıları və fakültələr baxımından əhatə dairəsi haqqında daha ətraflı informasiya, müvafiq olaraq, hər bir modulda təqdim olunur.

## Miqrasiya üzrə kurikulum nə üçün lazımdır?

Dünyanın bir çox yerində müxtəlif tədris və tədqiqat fəaliyyətləri üçün akademik mövzuya çevrilmiş miqrasiya qlobal prosesdir. Məhz bu səbəbə görə sözügedən kurikulum indiyədək Azərbaycanda istər akademik, istərsə də qeyri-akademik mühitlərdə öz növündə ilk olan Miqrasiya üzrə dərsliyə əsaslanır. Kurikulumun məqsədi miqrasiyanın fənlərarası xarakterini həm formal, həm də qeyri-formal təhsil sahələrində əlavə öyrənmə və tədqiqat üçün bir amil kimi ciddi şəkildə nəzərə alaraq, ölkədə miqrasiya fənninin (miqrasiya ilə əlaqəli fənlərin) gələcək inkişafı üçün zəmin yaratmaqdır. Miqrasiya üzrə dərsliklə birlikdə kurikulum bu sahədə çalışan tələbə, müəllim və praktikləri hərtərəfli - həm nəzəri, həm də fakt əsaslı biliklərlə və informasiya ilə, o cümlədən bu sahədə daha yaxşı idarəçilik və tədqiqat üçün boşluqların

aradan qaldırılması baxımından miqrasiya statistikası və məlumatlarından istifadə bacarıqları ilə təchiz etmək məqsədi daşıyır. Eyni zamanda, miqrasiyanın çoxölçülü mövzu olduğunu nəzərə alaraq, bu sahədə məlumatları idarəetmə, siyasət hazırlama, milli və beynəlxalq qanunvericilik bazaları, mövcud nəzəriyyələr, miqrasiyanın sosial-siyasi aspektləri, o cümlədən əmək bazarının da yer aldığı iqtisadi təsirlər baxımından mövcud və gələcək mütəxəssisləri daha yaxşı öyrətmək məqsədi ilə makro-, mezzo- və mikrosəviyyəli miqrasiya idarəçiliyi üçün zəruri əsaslar sözügedən kurikulumda təqdim olunur. Hökumət kimi makro- və vətəndaş cəmiyyəti təşkilatları kimi mezzosəviyyəli aktorların ehtiyacları və səmərəli əməkdaşlığı üçün ixtisaslı miqrasiya mütəxəssislərinin hazırlanması məqsədi ilə ali təhsil müəssisələri tərəfindən miqrasiyanın fənlərarası xarakterinin mənimsənməsi tövsiyə olunur. Buna görə də, bu kurikulum miqrasiyanın müxtəlif aspektləri ilə bağlı bir sıra mövzularla əlaqədar miqrasiyaya kompleks və hərtərəfli yanaşmanın tətbiqi üçün zəruri əsasları, habelə əsaslandırılmış səbəbləri təqdim etmək məqsədi daşıyır.

# Miqrasiya üzrə kurikulumdan necə istifadə etmək olar?

Kurikuluma daxil edilmiş hər bir modul müvafiq ixtisaslara və təcrübəyə malik müxtəlif mühazirəçilər, bəzi hallarda dəvət olunmuş mühazirəçilər, həmçinin qeyri-formal təhsildə təlimçilər tərəfindən aparılması üçün nəzərdə tutulan bölmələrdən ibarətdir. Bundan əlavə, hər modula həm fərdi, həm də qrup işi üçün bəzi praktiki tapşırıqlar, qonaq mühazirəçilərin dəvəti üçün tövsiyələr və həm akademik, həm də qeyri-akademik mühitlərdə iştirakçıların qiymətləndirilməsi üsulları daxildir.

Modulların hər biri bu kimi eyni struktura malikdir:

## a) Modulun qısa təsviri:

Bu, hansı mövzuların modulla əhatə olunduğunu istifadəçinin dərhal başa düşməsi üçün modulun əsas elementlərini təsvir edən qısa modul əsaslandırmasıdır. Eyni zamanda, modul ilə bağlı nəzərdə tutulan həm akademik, həm də qeyri-akademik hədəf qrupların, eləcə də mühazirəçi/təlimçi profilinin qısa icmalı təsvirə daxildir. Hədəf qrupları haqqında informasiyada modulun (və ya onun müvafiq bölmələrinin) icbari və fakültətiv olması baxımından fakültələr göstərilir, kimlərin qonaq mühazirəçi(lər) qismində dəvət oluna biləcəyi barədə də informasiya verilir.

## b) Öyrənmə məqsədləri və dəyərləri:

Nəzərdə tutulan öyrənmə nəticələri modulu bitirdikdən sonra tələbə və praktiklərin nəyi bilməli olduğunu göstərir.

## c) Modulun strukturu:

Modulun tövsiyə olunan bölmələrdən və konkret mövzulardan ibarət ətraflı strukturu.

## d) Modulun əsas sualları:

Bu suallar modulun sonunda qiymətləndirmə, müzakirə və rəyvermə üçün istifadə edilməlidir. Suallar iştirakçılara formal və qeyri-formal təhsil fəaliyyətləri zamanı əldə etdikləri bilikləri nizama salmağa və bir daha təsdiqləməyə kömək edəcək. Mühaziraçi/təlimçi həmin biliklərin hansı səviyyədə təqdim edilməsi və effektivliyi barədə rəy alacaq.

## e) Modul üçün təklif olunan müddət

Bu informasiya indikativ xarakter daşıyır və kursu yekunlaşdırmaq üçün planlaşdırılmalı olan vaxt barədə ümumi təsəvvür yaratmağa kömək edir. Eyni zamanda, müddət qrupların/iştirakçıların sayından, eləcə də kursun xüsusilə qeyri-formal təhsil çərçivəsində məqsədindən asılıdır.

## f) Modulun indikativ məzmunu:

Modulun və onun bölmələrinin, eləcə də modulla əhatə olunan əsas sualların/məsələlərin ətraflı indikativ icmalı bu hissədə təqdim olunur. Həmçinin, modulun məzmununa modul daxilindəki digər fəaliyyətlərin, məsələn, empirik işin və ümumi qiymətləndirmənin təsviri daxildir ki, bu da mühaziraçinin/təlimçinin dərsə/seminara/təlimə hazırlaşdığı zaman istiqamətləndirilməsi üçün nəzərdə tutulur.

## g) Resurslar və əlavə ədəbiyyat:

Hər modul üçün indikativ resurslar və əlavə ədəbiyyat siyahısı bu hissədə təqdim olunur. Əslində, bütün resurslar Miqrasiya üzrə Dərslikdən götürülüb, lakin həmin dərslikdə bütün istifadə olunmuş resursları səhifə sayı baxımından məhdudiyyətə görə bu modullara daxil etmək mümkün olmayıb. Bu səbəbdən əlavə məlumat üçün dərsliyə də baxmaq olar. Bundan əlavə, qeyd etmək lazımdır ki, həm kurikulumda, həm də dərslikdə verilmiş siyahı müfəssəl hesab olunmur və mühaziraçılar/təlimçilər digər resurslara da müraciət edə bilərlər.

# Mündəricat


**Giriş** 5

Miqrasiya üzrə kurikulum nə üçün lazımdır? 5

Miqrasiya üzrə kurikulumdan necə istifadə etmək olar? 6

**Akademik dairələr üçün kurikulumun strukturu** 10

**Modul 1. Miqrasiya mövzusuna giriş** 13

Modulun qısa təsviri 13

Öyrənmə məqsədləri və dəyərləri 14

Modulun strukturu 14

Modulun əsas sualları 15

Müddət 16

Modulun indikativ məzmunu 17

Resurslar və əlavə ədəbiyyat 22

**Modul 2. Miqrasiya məlumatları və bu məlumatların idarə edilməsi** 28

Modulun qısa təsviri 28

Öyrənmə məqsədləri və dəyərləri 29

Modulun strukturu 29

Modulun əsas sualları 30

Müddət 30

Modulun indikativ məzmunu 31

Resurslar və əlavə ədəbiyyat 37

**Modul 3. Miqrasiyanin hüquqi aspektləri** 39

Modulun qısa təsviri 39

Öyrənmə məqsədləri və dəyərləri 39

Modulun strukturu 40

Modulun əsas sualları 40

Müddət və mühazirə metodu 40

Modulun indikativ məzmunu 41

Resurslar və əlavə ədəbiyyat 46

**Modul 4. Miqrasiya idarəçiliyi və miqrasiyanın təhlükəsizlik mövzusuna çevrilməsi** 62

Modulun qısa təsviri 62

Öyrənmə məqsədləri və dəyərləri 62

Modulun strukturu 63

Modulun əsas sualları 63

Müddət 64

Modulun indikativ məzmunu 64

Resurslar və əlavə ədəbiyyat 71

Modul 5. Azərbaycanda və qonşu ölkələrdə miqrasiya idarəçiliyi 62
Modulun qısa təsviri 62
Öyrənmə məqsədləri və dəyərləri 62
Modulun strukturu 63
Modulun əsas sualları 63
Müddət 64
Modulun indikativ məzmunu 64
Resurslar və əlavə ədəbiyyat 71

Modul 6. Miqrant inteqrasiyası 73
Modulun qısa təsviri 73
Öyrənmə məqsədləri və dəyərləri 73
Modulun strukturu 74
Modulun əsas sualları 74
Müddət və mühazirə metodu 75
Modulun indikativ məzmunu 75
Resurslar və əlavə ədəbiyyat 81

# Akademik dairələr üçün kurikulumun strukturu

| Modul | Fakültələr | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hüquq | | Sosial-siyasi elmlər | | İqtisadiyyat | | Beynəlxalq münasibələr | | Jurnalistika | |
| | Saat | Dərs | Saat | Dərs | Saat | Dərs | Saat | Dərs | Saat | Dərs |
| **Modul 1. Miqrasiya mövzusuna giriş** | | | | | | | | | | |
| Bölmə 1.1 Miqrasiya tədqiqatlarında fənlərarasılıq | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 |
| Bölmə 1.2 Proses kimi miqrasiyanın tipologiyaları | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 |
| Bölmə 1.3 Miqrasiya iştirakçıları kimi miqrantların tipologiyaları | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 |
| Bölmə 1.4 Əsas miqrasiya nəzəriyyələrinin icmalı | 4 | 2 | 4 | 2 | 4 | 2 | 4 | 2 | 4 | 2 |
| Bölmə 1.5 Empirik iş/ Qiymətləndirmə | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 |
| **Ara cəmi** | **12** | **6** | **12** | **6** | **12** | **6** | **12** | **6** | **12** | **6** |
| **Modul** | **Hüquq** | | **Sosial-siyasi elmlər** | | **İqtisadiyyat** | | **Beynəlxalq münasibələr** | | **Jurnalistika** | |
| **Modul 2. Miqrasiya məlumatları və bu məlumatların idarə edilməsi** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** |
| Bölmə 2.1 Beynəlxalq miqrasiya statistikasında anlayışlar və təriflər | | | 2 | 1 | 2 | 1 | | | | |
| Bölmə 2.2 Əsas məlumat mənbələri | | | 2 | 1 | 2 | 1 | | | | |
| Bölmə 2.3 Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi üzrə institusional çərçivə | | | 2 | 1 | 2 | 1 | | | 2 | 1 |
| Bölmə 2.4 Empirik iş/ Qiymətləndirmə | | | 2 | 1 | 2 | 1 | | | | |
| **Ara cəmi** | | | **8** | **4** | **8** | **4** | | | **2** | **1** |

| Modul | Hüquq | | Sosial-siyasi elmlər | | İqtisadiyyat | | Beynəlxalq münasibələr | | Jurnalistika | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Modul 3. Miqrasiyanın hüquqi aspektləri** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** |
| Bölmə 3.1 Qanuni miqrasiya etimologiyası və miqrasiya sahəsində beynəlxalq hüquqi bazanın əsas prinsipləri | 2 | 1 | | | | | | | | |
| Bölmə 3.2 Empirik iş/ Qiymətləndirmə | 2 | 1 | | | | | | | | |
| **Ara cəmi** | **4** | **2** | | | | | | | | |
| **Modul** | **Hüquq** | | **Sosial-siyasi elmlər** | | **İqtisadiyyat** | | **Beynəlxalq münasibələr** | | **Jurnalistika** | |
| **Modul 4. Miqrasiya idarəçiliyi və miqrasiyanın təhlükəsizlik mövzusuna çevrilməsi** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** |
| Bölmə 4.1 Miqrasiyanın təhlükəsizlik mövzusuna çevrilməsi | 2 | 1 | 2 | 1 | | | 2 | 1 | 2 | 1 |
| Bölmə 4.2 Müxtəlif səviyyələrdə miqrasiya idarəçiliyi | 2 | 1 | 2 | 1 | | | 2 | 1 | 2 | 1 |
| Bölmə 4.3 Miqrasiya idarəçiliyi, qloballaşma və təhlükəsizləşdirmə arasında əlaqələr | 2 | 1 | 2 | 1 | | | 2 | 1 | 2 | 1 |
| Bölmə 4.4 Qonaq mühazirəçi tərəfindən | 2 | 1 | 2 | 1 | | | 2 | 1 | 2 | 1 |
| Bölmə 4.5 Empirik iş/ Qiymətləndirmə | Yoxdur | Yoxdur | Yoxdur | Yoxdur | | | Yoxdur | Yoxdur | Yoxdur | Yoxdur |
| **Ara cəmi** | **8** | **4** | **8** | **4** | | | **8** | **4** | **8** | **4** |
| **Modul** | **Hüquq** | | **Sosial-siyasi elmlər** | | **İqtisadiyyat** | | **Beynəlxalq münasibələr** | | **Jurnalistika** | |
| **Modul 5. Azərbaycanda və qonşu ölkələrdə miqrasiya idarəçiliyi** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** |
| Bölmə 5.1 Azərbaycanda miqrasiya idarəçiliyi | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 |
| Bölmə 5.2 Aİ-də və İttifaqdan kənarda miqrasiya idarəçiliyi | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 |
| Bölmə 5.3 Empirik iş/ Qiymətləndirmə | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 | 2 | 1 |
| **Ara cəmi** | **6** | **3** | **6** | **3** | **6** | **3** | **6** | **3** | **6** | **3** |

| Modul | Hüquq | | Sosial-siyasi elmlər | | İqtisadiyyat | | Beynəlxalq münasibələr | | Jurnalistika | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Modul 6. Miqrant inteqrasiyası** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** | **Saat** | **Dərs** |
| Bölmə 6.1 İnteqrasiya sosial anlayış kimi və inteqrasiya siyasəti | | | 2 | 1 | 2 | 1 | | | | |
| Bölmə 6.2 Azərbaycanda miqrant və qaçqınların inteqrasiyası | | | 2 | 1 | 2 | 1 | | | | |
| Bölmə 6.3 Empirik iş/ Qiymətləndirmə | | | 2 | 1 | 2 | 1 | | | | |
| **Ara cəmi** | | | **6** | **3** | **6** | **3** | | | | |
| **Cəmi** | **30** | **15** | **40** | **20** | **32** | **16** | **28** | **14** | **30** | **15** |

# Modul 1

# Miqrasiya mövzusuna giriş

## Modulun qısa təsviri

Bu modul kurikulumdakı bütün digər modulların əsasını təşkil edən miqrasiya tədqiqatları mövzusuna girişi təqdim edir. Modul miqrasiyanın fənlərarasılığını və mühüm aspektlərini, o cümlədən miqrasiya tədqiqatına bu cür yanaşmanı və onun bütün miqrasiya aktorlarının cəlb edilməsində, eləcə də hökumətin akademik dairələrlə əməkdaşlığında nə üçün vacib ola biləcəyini təsvir etməklə başlayır. Bundan əlavə, o, beynəlxalq səviyyədə müəyyən edilmiş çərçivələrə əsaslanan *miqrasiya* və *miqrant* anlayışlarının müxtəlif təriflərinə aydınlıq gətirir və eyni zamanda, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda prosesi müəyyənləşdirən müddət, məsafə, qanuniləşdirmə, səbəb və məqsədlərə görə müxtəlif miqrasiya növlərini təqdim edir. Həmçinin, bu modulda miqrasiya prosesini izah etməyə çalışan müxtəlif (sosioloji, iqtisadi, siyasi və s.) fənlər baxımından nəzəriyyələr hərtərəfli açıqlanaraq təqdim olunur.

Miqrasiya tədqiqatları sahəsində daha mürəkkəb və əhatəli işə başlamazdan əvvəl hədəf auditoriyaya əsaslı məlumat vermək məqsədi daşıyan fundamental biliklərin xarakterinə görə bu modul kurikulumda göstərilmiş bütün fakültələrin tələbələri və Azərbaycanda miqrasiya idarəçiliyi ilə məşğul olan bütün praktiklər üçün nəzərdə tutulur. Odur ki, bu modul daha geniş əhatə dairəsinə malik olduğundan həm akademik, həm də qeyri-akademik mühitlərdə kurikuluma daxil edilmiş bütün iştirakçılar üçün icbaridir.

| İştirakçılar | Mühazirəçilər/təlimçilər |
|---|---|
| **Bu modulun** bütün bölmələri kurikulumda göstərilmiş **bütün fakültələri** təmsil edən tələbələr, eləcə də kurikulumda nəzərdə tutulmuş miqrasiya idarəçiliyi üzrə praktiklər üçün icbaridir. Əhəmiyyətinə görə bu modul kurikuluma daxil edilmiş bütün sonrakı modullara giriş kimi qəbul olunmalıdır. | Akademik dairələrdə bu modul miqrasiya sahəsində və ya ümumiyyətlə sosial elmlərdə tədqiqat təcrübəsi olan, habelə hüquqi və iqtisadi biliklərə malik müəllimlər tərəfindən mühazirə formasında oxunmalıdır. Bundan əlavə, yerli və ya beynəlxalq səviyyədə miqrasiya idarəçiliyində böyük iş təcrübəsi olan qonaq mühazirəçi də dəvət oluna bilər.<br><br>Qeyri-akademik dairələrdə bu modulun miqrasiya barədə bəzi empirik və ya nəzəri biliklərə və yaxud miqrasiya ilə bağlı məsələlərdə təcrübəyə malik olan təlimçi tərəfindən təqdim edilməsi tövsiyə olunur. |

# Öyrənmə məqsədləri və dəyərləri

**Bu modulun sonunda iştirakçılar:**

- miqrasiyanın fənlərarası xarakteri, eləcə də müxtəlif fənlərin miqrasiyanı necə izah etməsi haqqında biliklərini artıracaqlar;
- miqrasiya tədqiqatlarında, habelə hökumətin akademik dairələrlə və digər müvafiq iştirakçılarla əməkdaşlığında fənlərarası yanaşmanın rolunu başa düşəcəklər;
- miqrasiya tədqiqatlarında tez-tez istifadə olunan terminləri müəyyən etməyi, onlara tənqidi nəzər salmağı və onların istifadəsi və reallığa/faktlara uyğunluğu barədə müzakirələrdə iştirak etməyi bacaracaqlar;
- müxtəlif fənlər üzrə miqrasiya nəzəriyyələri və yanaşmaları və onların əsas hipotezaları haqqında məlumat alacaqlar;
- onlara öyrənilməsi üçün təqdim olunan misallar əsasında analitik bacarıqları, həmçinin prezentasiya etmə bacarıqlarını təkmilləşdirəcəklər;
- tədqiqat aparma və ədəbiyyata baxış bacarıqlarını yaxşılaşdıracaqlar.

# Modulun strukturu

## Bölmə 1.1 Miqrasiya tədqiqatlarında fənlərarasılıq

1.1.1 Fənlərarasılığın mənası və tarixi inkişaf nöqteyi-nəzərindən istifadəsi
1.1.2 Fənlərarası və çoxfənli yanaşmalar arasında fərq
1.1.3 Miqrasiyanı müxtəlif fənlər vasitəsi ilə izah və təhlil etmə yolları
1.1.4 Miqrasiya tədqiqatları sahəsində inteqrasiyalı fənlərarası yanaşma, o cümlədən qarışıq metodologiyaların istifadəsi, ölkə və miqrant qruplarının müqayisəsi

## Bölmə 1.2 Proses kimi miqrasiyanın tipologiyaları

1.2.1 Miqrasiya və məsafə:
- Daxili və beynəlxalq miqrasiya
- Emiqrasiya və immiqrasiya

1.2.2 Miqrasiya müddəti:
- Daimi və müvəqqəti miqrasiya
- Turizm və miqrasiya
- Mövsümi və dövri miqrasiya
- Uzunmüddətli miqrasiya və naturalizasiya

1.2.3 Miqrasiyanın hərəkətverici qüvvələri:
- Könüllü və məcburi miqrasiya

1.2.4 Hüquqi status və miqrasiya:
- Tənzimlənən və tənzimlənməyən miqrasiya

## Bölmə 1.3 Miqrasiya iştirakçıları kimi miqrantların tipologiyaları

1.3.1 Məcburi miqrasiya:
- Qaçqınlar, sığınacaq axtaranlar, müşayiət olunmayan miqrantlar, ekoloji miqrantlar
- İnsan alveri və miqrant qaçaqmalçılığı

1.3.2 Könüllü miqrasiya:
- Əməkçi miqrantlar, geri qayıdanlar, tələbə miqrantlar, ailənin yenidən birləşməsi məqsədi ilə miqrasiya

## Bölmə 1.4 Əsas miqrasiya nəzəriyyələrinin icmalı

1.4.1 Rasional seçim nəzəriyyələri:
- Təkanverici-cəlbedici modellər
- Neoklassik yanaşma

1.4.2 Sosial şəbəkə nəzəriyyəsi, institusional və transmilli nəzəriyyələr
1.4.3 Əmək miqrasiyasının yeni iqtisadiyyatı
1.4.4 İkili əmək bazarı nəzəriyyəsi
1.4.5 Kumulyativ səbəbiyyət nəzəriyyəsi
1.4.6 Miqrasiya nəzəriyyəsində yeni tendensiyalar

## Bölmə 1.5 Empirik iş/Qiymətləndirmə

1.5.1 Tələbələrin yekun qiymətləndirilməsi onlara qısa tədqiqat məqaləsi, yaxud da tematik misalın təhlili daxil olmaqla yazılı imtahan arasında seçim etmək imkanı verməklə aparılmalıdır.
1.5.2 Qeyri-akademik mühitdə iştirakçı sayından asılı olaraq, tematik misalın təhlili üzrə qrup işi tövsiyə olunur.

# Modulun əsas sualları

Aşağıda verilmiş suallar modul üzrə mühazirə zamanı müzakirələrin aparılması və tələbələrin/praktiklərin biliklərinin qiymətləndirilməsi üçün bələdçi kimi istifadə oluna bilər:

- Miqrasiya tədqiqatları fənlərarası, yoxsa çoxfənli xarakter daşıyır və niyə?
- Miqrasiyanın fənlərarası xarakterini başa düşmək nə üçün vacibdir?
- Azərbaycanda miqrasiya aspektlərinin digər fənlərə inteqrasiyası və əks istiqamətdə inteqrasiya üçün aşağıdakı səviyyələrdə nə etmək lazımdır:
  a) Universitet (miqrasiya mütəxəssislərini hazırlama) səviyyəsində?
  b) Siyasət hazırlama (miqrasiya qanunvericiliyinə dair qərar qəbuletmə) səviyyəsində?
  c) Cəmiyyət (əhalini miqrasiya və qanuni yollar barədə məlumatlandırma/maarifləndirmə) səviyyəsində?
- Nə üçün miqrasiyanın və miqrasiya kateqoriyalarının tərifini vermək çətindir?
- Beynəlxalq miqrasiyanın təkanverici və cəlbedici amilləri hansılardır?
- Ən çox yayılmış miqrasiya növləri hansılardır?

- Nə üçün miqrasiyanı izah etmək vacibdir?
- Miqrasiyanı vahid, çoxşaxəli nəzəriyyə vasitəsi ilə izah etmək olarmı? Cavabınızı əsaslandırın.
- Nə üçün son zamanlar təkanverici-cəlbedici amillər modeli və neoklassik yanaşmalar tənqid olunur? Bu barədə fikriniz nədir?
- Sosial şəbəkələr miqrasiya qərarının qəbulunda hansı rol oynayır?
- Miqrasiya nəzəriyyələrindən hansıları miqrant (fərd) yönümlüdür?

# Müddət

| Modul 1-in bölmələri | Kursun müddəti (saat) | |
|---|---|---|
| | Saat | Dərs |
| Bölmə 1.1 Miqrasiya tədqiqatlarında fənlərarasılıq | 2 | 1 |
| Bölmə 1.2 Proses kimi miqrasiyanın tipologiyaları | 2 | 1 |
| Bölmə 1.3 Miqrasiya iştirakçıları kimi miqrantların tipologiyaları | 2 | 1 |
| Bölmə 1.4 Əsas miqrasiya nəzəriyyələrinin icmalı | 4 | 2 |
| Bölmə 1.5 Empirik iş və imtahan | 2 | 1 |
| **Cəmi** | **12 saat** | **6 dərs**[1] |

1 Modul daxilində hər bölmənin saatları akademik saatlar deməkdir və bir dərs akademik dairələrdə tətbiq olunan iki akademik saatdan ibarətdir (2 x 45 dəq = 1 saat 30 dəq). Qeyri-formal təhsil şəraitində saatlar iştirakçıların ehtiyacları və sayına uyğun tənzimlənə bilər, çünki onlar müxtəlif təşkilatları təmsil edə bilərlər.

# Modulun indikativ məzmunu

## Bölmə 1.1 Miqrasiya tədqiqatlarında fənlərarasılıq

Sosial, təbiət, humanitar elmləri və müxtəlif aidiyyəti peşələri əhatə edən "fənlərarasılıq" anlayışı Julie Kleinin 1990-cı ildə yazdığı "Fənlərarasılıq: tarix, nəzəriyyə və təcrübə" kitabında ilk dəfə hərtərəfli tədqiq olunub. Klein iddia edirdi ki, müvafiq kontekstin qısamüddətli alətlərə ehtiyacından və ya bildiyimiz və öyrəndiyimiz üsulun uzun müddətə yenidən konseptuallaşdırılması məqsədindən asılı olmayaraq, fənlərarasılıq yalnız vahid metoddan və yanaşmadan istifadə etməklə qənaətbəxş şəkildə həll edilməsi mümkün olmayan problemlərin öhdəsindən gəlmək və suallara cavab vermək üçün yeganə vasitədir. "Fənlərarasılıq" məsələyə "bir sıra fənlərin nəzər nöqtələrindən" yanaşır və "vahid və ya sistemli nəticəni" əldə etmək üçün "müxtəlif fənlərin töhfələrini" inteqrasiya edir. Fənlərarasılıq ümumi tapşırığın həll edilməsində bir neçə akademik düşüncə məktəbini, peşəni və ya texnologiyaları, habelə onların konkret baxışlarını əlaqələndirmək və inteqrasiya etmək məqsədlərinə tədqiqatçıları, tələbələri və müəllimləri cəlb edir. O, tədqiqat institutlarının ənənəvi fənlər strukturunda, məsələn qadın araşdırmaları və ya etnik araşdırmalar kimi sahəyə aid hansısa mövzunun nəzərə alınmaması və ya hətta yanlış təqdim edilməsi hesab olunduqda tətbiq edilə bilər. Həm "fənlərarası", həm də "fənlərarasılıq" çox vaxt 20-ci əsrin terminləri kimi qəbul edilsə də, bu anlayışların qədim yunan fəlsəfəsinə qədər uzanan tarixi keçmişi var. Son illərdə ənənəvi fənlərin mühüm cari problemləri mövcud tədqiqat metodları və alətləri ilə həll etmək iqtidarında olmadığına (yaxud həll etmək üçün kifayət qədər təchiz olunmadığına) dair geniş yayılmış qənaətə əsaslanan bir çox fənlərarası proqram tətbiq edilib.

Lakin, "fənlərarasılıq" "çoxfənlilik"dən daha əhatəli anlayışdır, belə ki, ikincisi ümumi suala cavab vermək üçün birdən çox fənni əhatə etsə də, müxtəlif fənləri və onların metodlarını birgə vahid yanaşmada inteqrasiya etmir. Beləliklə, "çoxfənlilik" şəraitində hər bir fənn müəyyən işə ayrılıqda töhfə verir və onun ideyaları qoyulan suala qlobal cavab vermədən bir araya gətirilir. Yuxarıda qeyd olunmuş miqrasiya profillərinə tətbiq edildikdə, çoxfənlilik profilin bir bölməsinin yalnız immiqrasiya, emiqrasiya və əhaliyə dair statistik məlumatları əhatə etməsini, digər bölmənin isə sözügedən ölkənin iqtisadi vəziyyətini, məsələn, ÜDM-i, artımı, investisiyanı, ticarəti, əmək bazarını, maliyyə vəziyyətini və s. təsvir etmək üçün ənənəvi amilləri təhlil etməsini nəzərdə tutur. Beləliklə, nəticədə ortaya çıxan ayrı-ayrı bölmələr miqrasiya və iqtisadi aspektlərin bir-biri ilə necə əlaqəli olması barədə müəyyən təsəvvür yaradacaq, lakin bu cür qarşılıqlı əlaqə haqqında əsaslı faktlar təqdim etməyəcək.

Bununla əlaqədar olaraq qeyd etmək yerinə düşər ki, miqrasiya fərqli fənlər tərəfindən müxtəlif rakurslardan izah olunaraq nəzərdən keçirilir, məsələn, demoqrafiya aşağı məhsuldarlıq, qocalma və ya demoqrafik artım kimi demoqrafik dəyişikliklərin miqrasiyaya, o cümlədən miqrasiya nisbətlərinə və bu kimi balanslara necə təsir etdiyini izah edir, tarix isə tarixi əlaqələrə də əsaslanaraq ölkələr və regionlar arasında miqrasiya/yerdəyişmə modelləri haqqında təsəvvür yaradır. Digər tərəfdən iqtisadiyyat emiqrasiyaya/immiqrasiyaya səbəb olan iqtisadi amillərin mürəkkəb qarşılıqlı əlaqələrini və miqrasiyanın göndərən və qəbul edən ölkələrə, o cümlədən ÜDM artımına və adambaşına düşən ÜDM-ə, əmək haqqlarında fərqlərə, məşğulluq və işsizlik səviyyələrinə, ikili əmək bazarlarına, inflyasiya səviyyəsinə və s. iqtisadi təsirlərini izah etməyə çalışır. Beləliklə, hər bir fənn miqrasiya dinamikasını öyrənmək üçün öz imkanlarını təqdim edir ki, bu da mövzuya hərtərəfli yanaşmada əhəmiyyətli rol oynayır.

Müasir cəmiyyət və onun siyasi sistemləri hakimiyyət bölgüsündə təmsil olunmuş əsas aktorlarla - qanunvericilik, icra və məhkəmə hakimiyyətləri ilə birlikdə geniş çevrəli müxtəlif aktorlar tərəfindən

formalaşır. Monteskyenin üç əsas hakimiyyət qolundan başqa, işəgötürənlər, həmkarlar ittifaqları, dini qurumlar, QHT-lər, jurnalistlər və heç də az əhəmiyyət kəsb etməyən elmi dairələr kimi bir çox digər ictimai və siyasi iştirakçılar cəmiyyətdə və siyasətdə fəal və həlledici rol oynayırlar. Aydındır ki, onların maraqları, qısa və uzunmüddətli məqsədləri və iş üsulları inzibati maraqlarla heç də həmişə üst-üstə düşmür. Bununla belə, müasir dövlətin və cəmiyyətin fəaliyyəti yalnız üç əsas güc üzərində qurula bilməz, əksinə, o, bütün aktorlara əsaslanmalıdır, hətta onları cəlb etmək üçün hüquqi öhdəlik olmadığı hallarda belə. Üstəlik, cəmiyyətdə qəbul, təqdir və etimad istənilən dövlət siyasətinin qanuniləşdirilməsi üçün əsas ilkin şərtlərdir. Miqrasiya ilə bağlı qərarların qəbulu yuxarıda qeyd olunan hər bir aktorun münasibətindən, iştirakından və ən əsası - biliklərindən asılıdır. Burada qarşılıqlı əlaqə, fikir mübadiləsi və qarşılıqlı fayda böyük əhəmiyyət kəsb edir.

Miqrasiya tədqiqatları fənlərarası düşüncə üçün “təbii olaraq yetişib” və miqrasiyanın öyrənilməsində “çoxmetodlu yanaşma ilə çoxfənlilik əsas şərt olmalıdır”. Son bir neçə onillikdə beynəlxalq miqrasiyanın xarakteri və anlayışının dəyişdiyini nəzərə alsaq, bu, daha aydın görünür. “Avropa miqrasiyasının yeni xəritəsinə doğru” adlı məqaləsində Russel King “beynəlxalq miqrasiyanın yeni coğrafiyası və tipologiyalarına” gətirib çıxaran miqrasiya növləri, modelləri və motivlərində əhəmiyyətli dəyişiklikləri qeyd edib. Bu dəyişikliklər miqrasiyanın müəyyən edilməsi və öyrənilməsi üçün vacib nəticələrə gətirib çıxarır və “miqrasiya tədqiqatlarına daha çox inteqrasiya olunmuş yanaşmanı” tələb edir. Bununla əlaqədar olaraq, King miqrasiya tədqiqatları sahəsi üzrə dörd əsas prioriteti müəyyənləşdirib:

- Paradiqmatik plüralizmi və qarışıq metodologiyaların dəyərini qəbul edən inteqrasiya olunmuş fənlərarası yanaşmaya riayət etmək;
- Ölkələr, müxtəlif miqrant qrupları və zaman üzrə müqayisələrə diqqət yetirmək;
- Miqrasiyanı həm mikro- (fərdi), həm də makrosəviyyələrdə nəzərdən keçirmək, mənşə və təyinat ölkələrindəki cəmiyyətlər kontekstində və sosial proseslər çərçivəsində başa düşmək;
- Miqrasiya proseslərini daha yaxşı sənədləşdirmək və ölçmək, miqrasiya məlumatları və statistikasının keyfiyyətini yaxşılaşdırmaq.

## Bölmə 1.2 Proses kimi miqrasiyanın tipologiyaları

Ümumi mənada, miqrasiya insanların hər hansı səbəbdən dövlət sərhədlərindən keçməklə və ya bu sərhədlər daxilində hərəkət etməsi və yerdəyişməsi deməkdir. “Miqrasiya” və ya “miqrant” termininin ümumi razılaşdırılmış tərifi olmadığı üçün hüquqi, inzibati, tədqiqat və statistik məqsədlər üçün müxtəlif təriflərdən istifadə olunur. “Yerdəyişmə” və “miqrasiya” anlayışlarını da bir-birindən fərqləndirmək vacibdir. Şəxsin yerdəyişməsi adətən yaşadığı yerdən kənarda bütün növ hərəkətliliyi deməkdir. Turizm, ailə ziyarətləri və bizneslə əlaqəli yerdəyişmə bu məqsədlər üçün nəzərdə tutulmuş məkan və zamandan asılı olmayaraq miqrasiya kimi təsnif edilmir. Miqrasiya müəyyən bir ölkənin sərhədləri daxilində baş verdikdə “daxili miqrasiya” (və ya nisbətən az “ölkədaxili miqrasiya”) adlandırılır. Əgər bu proses ölkə hüdudlarından kənara çıxmaqla bir qitə daxilində baş verirsə, “ölkələrarası miqrasiya” (və ya “regional miqrasiya”), qitələr arasında baş verdikdə isə, “qitələrarası miqrasiya” (və ya “regionlararası miqrasiya”) kimi müəyyən edilir. Adətən, son iki proses ümumilikdə “beynəlxalq miqrasiya” kimi göstərilir.

Əhalinin milli sərhədlərdən keçməklə hərəkət edərək yaşayış yerini dəyişməsini nəzərdə tutan beynəlxalq miqrasiya müvəqqəti, uzunmüddətli (ən azı bir il ərzində davam edən) və ya daimi ola bilər. Müvəqqəti miqrasiya vəziyyətində söhbət xaricdə, məsələn, iş və ya təhsil ilə bağlı qısa müddət ərzində olmadan gedir, daha davamlı miqrasiyanın tipik forması xaricdə daha uzunmüddətli məşğulluqdan ibarətdir, lakin xaricdə qalmaq səbəbi ailənin yenidən birləşməsi və ya digər məsələlərlə də əlaqəli ola bilər. Daimi beynəlxalq

miqrasiya dedikdə, daimi yaşamaq üçün mənşə ölkəsinə qayıtmaq niyyəti olmadan emiqrasiya başa düşülür. Bir şəxs başqa ölkədə məskunlaşmaq üçün öz ölkəsini tərk etdikdə emiqrasiya baş verir və bu, onun mənşə ölkəsinə müsbət və mənfi təsir göstərir. Bir şəxsin mənşə ölkəsini tərk edərək xarici ölkəyə yaşamaq üçün gəlməsi immiqrasiyadır. Beləliklə, hər bir miqrant mənşə ölkəsi baxımından emiqrant, qəbul edən ölkə baxımından isə immiqrant kimi nəzərdən keçirilir.

Müvəqqəti miqrasiyanın tez-tez rast gəlinən başqa bir növü mövsümi əmək miqrasiyasıdır ki, bu zaman miqrantın məşğulluğu mövsümi şəraitdən asılı olur və ilin yalnız müəyyən vaxtında və ya vaxtlarında gerçəkləşir. Adətən, mövsümi miqrasiya, insanların kənd təsərrüfatı və turizm kimi iqtisadi sahələrdə məşğulluğu məqsədi ilə yerdəyişməsini nəzərdə tutur. Digər tərəfdən dövri miqrasiya “eyni şəxs tərəfindən iki və ya daha çox ölkə arasında qanuni miqrasiyanın təkrarlanması” kimi müəyyən edilir. Miqrasiyanın bu növü getdikcə daha çox diqqət çəkir. Dövri miqrasiyanın əsasını təşkil edən ideya ondan ibarətdir ki, miqrantlar müəyyən işçi qüvvəsi çatışmazlığı yaşayan təyinat ölkələrinə cəlb olunur və burada onların məhdud müddət ərzində işləməsi, həmin müddət bitdikdən sonra isə öz ölkələrinə qayıtması gözlənilir. Tələbə miqrasiyası, müvafiq proqram üzrə təhsil almaq üçün adətən yaşadığı yeri tərk edərək beynəlxalq sərhəddən keçən tələbələrin yerdəyişməsidir. Qloballaşma dövründə ali təhsilin beynəlmiləlləşdirilməsi kəskin şəkildə artaraq bazar yönümlü fəaliyyətə çevrilib. Ailə miqrasiyası isə yeni və ya artıq mövcud olan ailə əlaqələri səbəbindən yerdəyişmələr edən insanların miqrasiyasını təsvir etmək üçün istifadə olunan termindir və o, bir neçə bu kimi yarımkateqoriyanı əhatə edir: əvvəllər miqrasiya etmiş ailə üzvü ilə yenidən birləşmə; əsas miqrantı müşayiət edən ailə üzvləri; immiqrant və ölkə vətəndaşı arasında nikah; immiqrantla onun ölkəsindən kənarda yaşayan əcnəbi arasında nikah və beynəlxalq övladlığa götürmə. Bundan əlavə, bu bölmədə digər miqrasiya tipologiyaları, o cümlədən əmək miqrasiyası, məcburi miqrasiya və naturalizasiyaya dair anlayışlar təklif olunur.

## Bölmə 1.3 Miqrasiya iştirakçıları kimi miqrantların tipologiyaları

BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin (UN DESA) Beynəlxalq miqrasiya statistikasına dair 1998-ci il Tövsiyələrində əks olunaraq geniş şəkildə qəbul edilmiş təriflərdən biri (ən azı bir il müddətinə başqa ölkəyə köçən) uzunmüddətli miqrant və (ən azı üç ay müddətinə başqa ölkəyə köçən) qısamüddətli miqrant təsnifatlarını verməklə beynəlxalq miqrantı “adətən yaşadığı ölkəni dəyişən hər hansı şəxs” kimi müəyyən edir. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığına (BMTQAK) əsasən, qaçqınlar və sığınacaq axtaranlar xüsusi qrupa aiddir, çünki bu insanlar həyat və azadlıqları üçün ciddi təhlükələr səbəbindən evlərini tərk edirlər. “Miqrant” terminindən fərqli olaraq, “qaçqın” termininin hüquqi və beynəlxalq tərifi mövcuddur. Belə ki, BMT-nin “Qaçqınların statusu haqqında” 1951-ci il Konvensiyasında qaçqın “irqi, dini, milli əlamət, müəyyən sosial qrupa mənsubiyyət və ya siyasi əqidə üzündən təqibin qurbanı olmaq barəsində tam əsaslı ehtiyatlara görə vətəndaşı olduğu ölkədən kənarda olan və həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya sadalanan ehtiyatlar üzündən istifadə etmək istəməyən” şəxs kimi müəyyən edilir. BMTQAK xəbərdar edir ki, qaçqınları digər miqrant qrupları ilə qarışdırmaq risklidir, çünki miqrasiya edən digər qruplar öz həyatını yaxşılaşdırmaq üçün ölkələrini iqtisadi və ya sosial səbəblərə görə dəyişsələr də, qaçqınlar öz həyat və ya azadlıqlarını qorumaq məqsədi ilə bunu etməyə məcbur olurlar.

Bundan əlavə, “müşayiət olunmayan uşaq” və ya “müşayiət olunmayan yetkinlik yaşına çatmamış şəxs” hər iki valideynindən və digər qohumlarından ayrılmış və qanunla və ya adətlə buna görə məsuliyyət daşıyan yetkin şəxsin humayəsində olmayan uşaq kimi, “ayrı düşmüş uşaq” isə hər iki valideynindən və yaxud əvvəlki qanuni və ya adətə görə əsas himayəçisindən ayrılmış, lakin başqa qohumlarından ayrılmamış uşaq kimi müəyyən edilir. Buna görə də, digər yetkin ailə üzvlərinin müşayiəti ilə gələn uşaqlar da buraya aid edilə

bilər. Bununla yanaşı, iqlim dəyişikliyi səbəbindən son zamanlarda ortaya çıxan bir termin bu cür fəsadlara görə öz ölkəsini tərk etmək məcburiyyətində qalanları təsvir edir. Lakin ekoloji amillərə görə yerdəyişmə edən miqrantların heç bir hüquqi və ya beynəlxalq səviyyədə qəbul edilmiş tərifi yoxdur və bəzən onlara "ekoloji qaçqınlar", "iqlim qaçqınları" və ya "ekomiqrantlar" da deyilir.

Yuxarıda qeyd edilərək müəyyənləşdirilmiş tipologiyalardan başqa, Miqrasiya üzrə dərslikdə ətraflı müzakirə olunan bir sıra digər tipologiyalar da vardır ki, bunlara miqrant qaçaqmalçılığı və insan alverinin qurbanları, geri qaytarılanlar daxildir və dərsliyin müvafiq modulunda onlarla daha ətraflı tanış olmaq mümkündür.

## Bölmə 1.4 Əsas miqrasiya nəzəriyyələrinin icmalı

Miqrasiya nəzəriyyələrindən istifadə etməklə miqrasiyanın izahı konkret problemi müəyyən etmək və ya onun fəsadlarını aradan qaldırmaq, yaxud da gələcəkdə əlaqədar tərəfləri oxşar vəziyyətlər barədə xəbərdar etmək məqsədi ilə müvafiq tədbirlərin hazırlanması üçün bir alət təqdim edir. Bu həm də o deməkdir ki, biz miqrasiya proseslərinin necə işlədiyini nə qədər çox başa düşsək, gələcək miqrasiya axınlarını və onların müxtəlif səviyyələrdə fəsadlarını bir o qədər çox qiymətləndirə və ya hətta proqnozlaşdıra, habelə miqrasiya ilə əlaqəli hüquqi, institusional, siyasi, sosial, iqtisadi və digər çərçivələri hazırlaya və ya tənzimləyə bilərik. Miqrasiyanı fərdi proses, eləcə də xərc və fayda hesablamaları əsasında qərar qəbulu kimi qəbul edən bir sıra nəzəriyyələr mövcuddur. Onlardan biri miqrasiyanı fərdlərin miqrasiyasına təkan verən mənfi amillər, yəni potensial olaraq yoxsulluq, işsizlik, aşağı sosial status, müdafiəsizlik və s. prizmasından və insanları müəyyən istiqamətlərə cəlb edən xaricdə təhsil, daha yaxşı sosial status və əmək haqqı, siyasi azadlıq kimi arzuolunan amillər prizmasından izah edən təkanverici-cəlbedici yanaşmadır. Eynilə, neoklassik yanaşma miqrasiyanı ilk növbədə axınları hərəkətə gətirən iqtisadi səbəblərə istinad edərək fərdi proses kimi nəzərdən keçirir. Bununla belə, miqrasiyanın bu cür məhdud çərçivədə izah edilməsi, son nəticədə yalnız fərdi yönümlü qərarların qəbulu deyil, miqrasiyaya töhfə verən digər potensial amillərin də nəzərdən qaçırılması ilə nəticələnə bilər. Əksinə, sosial şəbəkə nəzəriyyəsi xüsusən təyinat ölkələrində daha təhlükəsiz miqrasiyaya töhfə verən mövcud şəbəkələrə xüsusi diqqət ayıraraq miqrasiyanı daha çox kollektiv prizmasından nəzərdən keçirir. Massey və başqaları (1996) miqrant şəbəkələrini "mənşə və təyinat bölgələrində hazırkı və keçmiş miqrantları və miqrant olmayan şəxsləri qohumluq, dostluq və ortaq icma mənşəli bağlar vasitəsi ilə birləşdirən şəxsiyyətlərarası əlaqələr toplusu" kimi müəyyən edir. Bu cür şəbəkələr miqrantın fərdi qaydada çəkdiyi "sosial, iqtisadi və emosional xərcləri" azaltmağa şərait yarada bilər. Buna görə də şəbəkə əlaqələri insanların həm miqrasiya planlarını, həm də uyğunlaşma prosesini asanlaşdıran informasiyanı, eləcə də maddi və psixoloji dəstəyi əldə etmək üçün istifadə edə biləcəyi sosial kapitalın bir forması hesab oluna bilər.

Bundan əlavə, qloballaşma dövründə insanların artan mobilliyinə açıq şəkildə əsaslanan miqrasiya nəzəriyyəsində ən yeni yanaşmalardan biri nəzəri "transmillilik" konsepsiyasıdır. Bu yanaşmada vurğulanır ki, beynəlxalq nəqliyyat sistemlərinin inkişafı nəqliyyat xərclərini azaldıb, pul köçürmələrinin və məlumat ötürmək prosesinin sürətlənməsi isə "bir çox yerdə sosial, mədəni və fiziki cəhətdən lövbər salmış əhalinin artmasına gətirib çıxarıb və bu əksər hallarda mənşə və təyinat ölkələri arasında yüksək mobilliklə xarakterizə olunur." Əmək miqrasiyasının yeni iqtisadiyyatından ibarət başqa bir nəzəriyyə miqrasiya qərarlarının qəbulunda fərdin rasional seçimini vurğulayır, bununla belə, nəticədə miqrasiyanın xərcləri və risklərini azaldan ailə/icma/ev təsərrüfatlarının təsirini də nəzərə alır. Bundan əlavə, ikili əmək bazarı nəzəriyyəsi qəbul edən əmək bazarının birinci və ikinci dərəcəli bölgüsünü izah edir və birincidə əsasən qəbul edən ölkənin vətəndaşları, ikincidə isə müəyyən peşələrdə geniş şəkildə təmsil olunmuş miqrantlar işləyirlər. Yekun olaraq bu bölmədə miqrasiya ilə bağlı digər daha yeni nəzəriyyələr də, məsələn köçərilik müzakirə olunur.

## Bölmə 1.5 Empirik iş/Qiymətləndirmə

Empirik iş və qiymətləndirmə mühazirə/təlim zamanı əldə edilmiş bilikləri tətbiq etmək və qiymətləndirmək məqsədi daşıyır. Buna görə də təklif olunan fəaliyyətlər yalnız mühazirə/təlim başa çatdıqdan sonra həyata keçirilməlidir. Miqrasiya mövzusuna giriş formasında tanışlıq xarakterli bu modul çərçivəsində empirik iş və imtahan kurikulumda nəzərdə tutulmuş həm formal, həm də qeyri-formal təhsil dairələrini təmsil edən bütün iştirakçıların növbəti modulların əsasını qoyan zəruri informasiya və tənqidi biliklərlə daha yaxşı təchiz edilməsi üçün icbaridir.

1.5.1 Bununla belə, tələbələrin yekun qiymətləndirilməsi onlara *qısa tədqiqat məqaləsi*, yaxud da tematik misalın təhlili daxil olmaqla *yazılı imtahan* arasında seçim etmək imkanı verməklə aparılmalıdır.

Birinci halda, bu kimi hissələrə bölünəcək tədqiqat məqaləsi istifadə olunmuş ədəbiyyat siyahısı ilə birgə maksimum 10 səhifədən ibarət olmalıdır: Giriş (problemin qoyuluşu), mövcud olduqda, bəzi üstünlük verilən məlumatlarla birgə, ardınca isə tədqiqatın sualı və ya məqalənin məqsədi; məqalədə nəzərdən keçirilərək bir və ya bir neçə miqrasiya nəzəriyyəsi ilə izah edilməli olan əsas konsepsiyalar üzrə ədəbiyyatın icmalı; Yekun; İstinadlar. Məqalədə mütləq olmasa da, Azərbaycana üstünlük verməklə miqrasiya ilə əlaqəli məsələyə, misal üçün ölkədən emiqrasiyanın hərəkətverici qüvvələrinə, tələbə miqrasiyasına və ya insan alverinə diqqət yetirilməlidir və bunun üçün əsasən köməkçi mənbələrə istinad olunmalıdır. İstifadə olunmuş ədəbiyyat siyahısının tərtibat üslubu "APA" formatında olmalı, məqalə isə "12 pt" ölçüsündə "Times New Roman" şrifti ilə yazılmalıdır.

Tədqiqat məqaləsi yazmaq istəməyənlər əlavə dərs zamanı keçiriləcək yazılı imtahan vermək seçiminə malik olacaqlar. Yazılı imtahana (bu moduldakı bölmələrdən birində təqdim olunmuş) 2 tematik misalın təhlili və modulun bölmələrində müzakirə olunmuş mövzuları əhatə edən 5 açıq sual daxil edilməlidir. İmtahan müvafiq təhsil müəssisənin təqdim etdiyi kompüterlərdən istifadə etməklə, bu cür imkan olmadıqda isə yazılı formada həyata keçirilə bilər.

Tədqiqat məqaləsi yazmağı və ya yazılı imtahan verməyi seçən tələbələrin yekun qiyməti onların ümumi qiymətlərinin 20%-ni təşkil edən sinif müzakirələrində fəal iştirakı ilə tamamlanmalıdır. Yəni, "Miqrasiya mövzusuna giriş" modulunu keçən tələbələrin yekun qiymətlərinin 80%-ni empirik iş/imtahan, 20%-ni isə dərsdə iştirak səviyyəsi təşkil etməlidir.

1.5.2 Qeyri-akademik dairələrə gəldikdə, tövsiyə edilir ki, iştirakçıların qiymətləndirilməsi auditoriyanın sayından asılı olaraq qrup işləri formasında aparılsın və bu zaman onlardan moduldakı bölmələrdə təqdim edilən iki misalın təhlili üzərində işləməsi tələb olunacaq. Təkrarlanmaya yol verməmək üçün iki tematik misal fərqli bölmələrdən olmalıdır. Hər iki misalı təhlil etmək və şifahi təqdimatla çıxış etmək üçün qruplara 20 dəqiqə vaxt veriləcək.

Akademik auditoriya üçün qiymətləndirmə aşağıdakı meyarlara əsaslanmalıdır:

| | |
|---|---|
| Analitik bacarıqlar | 40% |
| Aparılmış ədəbiyyat icmalı | 30% |
| Aydın şəkildə müəyyənləşdirilərək məqalədə istifadə olunan anlayışlar | 20% |
| Akademik yazı bacarıqları | 10% |
| **Qiymətin ümumi faizi** | **100%** |

# Resurslar və əlavə ədəbiyyat


Arango, J., 'Theories of International Migration', in International Migration in the New Millennium. Global Movement and Settlement, Joly, D. (ed.), Routledge, Abingdon, 2004, pp. 15-35, p. 27. / *J. Arango "Beynəlxalq miqrasiya nəzəriyyələri". D. Jolyinin redaktoru olduğu "Yeni minillikdə beynəlxalq miqrasiya: qlobal yerdəyişmə və məskunlaşma" adlı kitabda, 2004-cü il, səh. 15-35; 27. Routledge, Abingdon;*

Brettell, C.B and J.F. Hollifield, Migration Theory: Talking across Disciplines, 2nd edition, 2007. / *C.B. Brettell və J.F. Hollifield "Miqrasiya nəzəriyyəsi: müxtəlif fənlər barədə söhbət", 2-ci nəşr, 2007-ci il.*

Chumburidze M. et al., The State of Migration in Georgia, ICMPD, ENIGMMA project, 2015. https://migration.commission.ge/files/enigmma-state-ofmigration_e_version.pdf / *M. Chumburidze və başqaları "Gürcüstanda miqrasiyanın vəziyyəti", MSİBM, ENIGMMA layihəsi, 2015-ci il.*

de Haas, H., Castles, S. and M.J. Miller, The Age of Migration: International Population Movements in the Modern World, 4th edition, Basingstoke, Palgrave Macmillan, 2009. / *H. de Haas, S. Castles və M.J. Miller "Miqrasiya dövrü: müasir dünyada* əhalinin *beynəlxalq yerdəyişmələri", 4-cü nəşr, Basingstoke, Palgrave Macmillan, London, 2009-cu il.*

Djelti, S., 'The Evolution of the Human Migration Determinants', Draft paper, 2017. / *S. Djelti "İnsanların miqrasiyasını müəyyənləşdirən amillərin təkamülü", Sənəd layihəsi, 2017-ci il. Burada mövcuddur:* https://www.researchgate.net/publication/320427737_The_Evolution_of_the_Human_Migration_Determinants_1_Draft_paper/link/59e4dc150f7e9b0e1aa87acd/download

EMN, Temporary and Circular Migration: empirical evidence, current policy practice and future options in EU Member States, Luxembourg, EU, October 2011. / *Avropa Miqrasiya* Çəbəkəsi *(AMŞ) "Müvəqqəti və dövri miqrasiya: Aİ* üzv dövlətlərində *empirik faktlar,* mövcud *siyasət* təcrübəsi və gələcək üçün *variantlar", Lüksemburq, Aİ, oktyabr 2011-ci il. Burada mövcuddur:* https://op.europa.eu/pt/publication-detail/-/publication/f20ccc9d-44c5-4bf2-8072-51b8c8409b39. *2023-cü il dekabrın 11-də baxılıb.*

EMN, EMN Asylum and Migration Glossary, June 2023. / *AMŞ "AMŞ-in* sığınacaq *və miqrasiya* üzrə *İzahlı Lüğəti", iyun 2023-cü il. Burada mövcuddur:* https://home-affairs.ec.europa.eu/networks/european-migration-network-emn/emn-asylum-and-migration-glossary_en. *2023-cü il dekabrın 11-də baxılıb.*

Fouron, G. and N. Glick Schiller, 'All in the Family: Gender, Transnational Migration, and the Nation-State, Identities', Global Studies in Culture and Power, Vol.7, No. 4, 2001, pp. 539-582. / *G. Fouron və N. Glick Schiller "Hamı ailədə: gender, transmilli miqrasiya və millət-dövlət* münasibətləri, *identiklik", Mədəniyyət və hakimiyyət sahəsində qlobal araşdırmalar, cild 7, No 4, səh. 539-582, 2001-ci il. Burada mövcuddur: https://doi.org/10.1080/1070289X.2001.9962678. 2023-cü il dekabrın 11-də baxılıb.*

Favell, A., 'Rebooting Migration Theory. Interdisciplinarity, Globality, and Postdisciplinarity in Migration Studies' in Migration Theory: Talking Across Disciplines, Brettell, C.B. and J.F. Hollifield (eds.), 2nd edition, Routledge, Abingdon, 2007, pp. 259-278. / *A. Favell "Miqrasiya nəzəriyyəsinin yenidən işə salınması. Miqrasiya tədqiqatlarında fənlərarasılıq, qloballıq və post-fənlərarasılıq". C.B. Brettell və J.F. Hollifieldin redaktoru olduğu "Miqrasiya nəzəriyyəsi: müxtəli fənlər barədə söhbət" adlı kitabda, 2-ci nəşr, Routledge, Abingdon, səh. 259-278, 2007-ci il.*

Gamlen, A. and K. Marsh (eds.), Migration and Global Governance, The International Library of Studies on Migration, Elgar Research, 2011. */ A. Gamlen və K. Marshın redaktoru olduğu "Miqrasiya və qlobal idarəçilik", Beynəlxalq Miqrasiya Tədqiqatları Kitabxanası, 2011-ci il.*

Hagen-Zanker, J., 'Why do people migrate? A review of the theoretical literature', Maastricht Graduate School of Governance, 2008. */ J. Hagen-Zanker "Nə* üçün *insanlar miqrasiya edir? Nəzəri* ədəbiyyata *baxış", Maastrixt Ali* İdarəçilik *Məktəbi, 2008-ci il.*

Jordan, B. and F. Düvell, Irregular migration: the dilemmas of transnational mobility, Edward Elgar, Cheltenham, 2002 */ B. Jordan və F. Düvell "Tənzimlənməyən miqrasiya: transmilli mobilliyin dilemmaları", 2002-ci il.*

ICMPD, International Centre for Migration Policy Development (ICMPD), Fostering Cooperation between Academia and Government in the Field of Migration, Policy Brief, 2012. */ MSİBM "Miqrasiya sahəsində elmi dairələr və hökumət arasında* əməkdaşlığın *təşviqi", Analitik qeyd, 2012-ci il. Burada mövcuddur:* https://www.icmpd.org/file/download/48171/file/Fostering%2520Cooperation%2520between%2520Academia%2520and%2520Government%2520in%2520the%2520Field%2520of%2520Migration%2520.pdf

ILO, ILO Global Estimates on International Migrant Workers: Results and Methodology, Third edition, Geneva, ILO, 2021. / *BƏT "BƏT-in beynəlxalq əməkçi miqrantlara dair qlobal hesablamaları: nəticələr və metodologiya", 3-cü nəşr, Cenevrə, 2021-ci il. Burada mövcuddur:* https://www.ilo.org/wcmsp5/groups/public/@dgreports/@dcomm/@publ/documents/publication/wcms_808935.pdf. *2023-cü il dekabrın 11-də baxılıb.*

IOM, Discussion Note: Migration and the Environment, Ninety-Fourth Session of the IOM Council, MC/INF/288, 1 November 2007. / *BMqT "Müzakirə* üçün *qeyd: miqrasiya və* ətraf *mühit". BMqT* Şurasının *94-cü sessiyası, 1 noyabr 2007-ci il. Burada mövcuddur:* https://environmentalmigration.iom.int/sites/g/files/tmzbdl1411/files/MC_INF_288.pdf. *2023-cü il dekabrın 11-də baxılıb.*

IOM, World Migration Report 2015. Migrants and Cities: New Partnerships to Manage Mobility, Geneva, IOM, 2015. / *BMqT "2015-ci il* üzrə *dünya miqrasiya heasabatı: miqrantlar və* şəhərlər*: mobilliyi idarə etmək* üçün *yeni tərəfdaşlıqlar", Cenevrə, 2015-ci il. Burada mövcuddur:* https://publications.iom.int/books/world-migration-report-2015-migrants-and-cities-newpartnerships-manage-mobility. *2023-cü il dekabrın 11-də baxılıb.*

IOM, A Framework for Assisted Voluntary Return and Reintegration, 2018. */ BMqT "Könüllü qayıdışa və reinteqrasiyaya yardım* üçün *çərçivə", 2018-ci il. Burada mövcuddur:* https://publications.iom.int/books/framework-assistedvoluntary-return-and-reintegration. *2023-cü il dekabrın 11-də baxılıb.*

IOM, Glossary on Migration, International Migration Law, No. 34, 2019. */ BMqT "Miqrasiya* üzrə *izahlı lüğət", Beynəlxalq Miqrasiya Hüququ, No 34, 2019-cu il. Burada mövcuddur: https://publications.iom.int/system/files/pdf/iml_34_glossary.pdf. 2023-cü il dekabrın 11-də baxılıb.*

IOM, Glossary on Migration, 2019. / *BMqT "Miqrasiya* üzrə *izahlı lüğət", 2019-cu il. Burada mövcuddur:* http://publications.iom.int/bookstore/free/IML_1_EN.pdf /

IOM, IOM World Migration Report 2020, 2019. / *BMqT "BMqT-nin 2020-ci il* üçün *dünya miqrasiya hesabatı", 2019-cu il. Burada mövcuddur:* https://worldmigrationreport.iom.int/wmr-2020-interactive/

King, R., 'Towards a New Map of European Migration', International Journal of Population Geography, Vol. 8, No. 2, 2002, pp. 89-106. doi:10.1002/ijpg.246. */ R. King "Avropa miqrasiyasının yeni xəritəsinə doğru", Beynəlxalq* Əhali *Coğrafiyası Jurnalı, cild 8, No 2, səh. 89-106, 2002-ci il.*

Lane, M., 'Myths about migration: historical and philosophical perspectives', History and Policy, Policy Papers, 2006. */ M. Lane "Miqrasiya haqqında miflər: tarixi və fəlsəfi perspektivlər", Tarix və Siyasət, Siyasət sənədləri, 2006-cı il.*

King, R., 'Theories and Typologies of Migration: an Overview and a Primer', Willy Brandt Series of Working Papers in International Migration and Ethnic Relations 3/12, Malmö: Malmö University, 2012. */ R. King "Miqrasiya nəzəriyyələri və tipologiyaları:* ümumi *baxış və* əsaslar*', Malmö Universiteti, Beynəlxalq Miqrasiya və Etnik Münasibətlərdə İş Sənədlərinin Willy Brandt Seriyası 3/122012-ci il.*

Kodra, M., 'Circular Migration and Triple Benefits: The Case of Albanian Migrants to Italy', Mediterranean Journal of Social Sciences, Vol. 12, No. 4, July 2021. / *M. Kodra "Dövri miqrasiya və* üçqat *fayda: alban miqrantların* İtaliyadakı *işi". Aralıq dənizi Sosial Elmlər Jurnalı, cild 12, No 4, iyul 2021-ci il. Burada mövcuddur:* https://www.richtmann.org/journal/index.php/mjss/article/view/12528. *2023-cü il dekabrın 11-də baxılıb.*

Lyall, C. et al., 'Departure Point: Our approach to interdisciplinarity', in Interdisciplinary Research Journeys: Practical Strategies for Capturing Creativity, Lyall, C. et al., Bloomsbury Academic, London, 2011, pp. 7-24. / *C. Lyall və başqaları "Gediş nöqtəsi: bizim fənlərarasılığa yanaşmamız". C. Lyall və başqalarının "Fənlərarası tədqiqat səyahətləri: yaradıcılığı mənimsəmək* üçün *praktik strategiyalar" kitabında, səh. 7-24, London, 2011-ci il. Burada mövcuddur:* http://dx.doi.org/10.5040/9781849661782.ch-002

Macleod, C., 'The Changing Concepts around Immigrant Integration', Migration Policy Institute, Feature, 17 September 2021. / *C. Macleod "İmmiqrant* *inteqrasiyası ilə bağlı dəyişən anlayışlar", Miqrasiya Siyasəti* İnstitutu*, 17 sentyabr 2021-ci il. Burada mövcuddur:* https://www.migrationpolicy.org/article/changing-concepts-immigrant-integration. *2023-cü il dekabrın 11-də baxılıb.*

Massey, D.S. et al., 'Theories of International Migration: A Review and Appraisal', in Theories of Migration, Cohen, R. (ed.), Edward Elgar, Cheltenham, 1996. */ D.S. Massey və başqaları "Beynəlxalq miqrasiya nəzəriyyələri: baxış və qiymətləndirmə", R. Cohenin redaktoru olduğu "Miqrasiya nəzəriyyələri" adlı nəşrdə, 1996-cı il.*

McAuliffe, M. and A. Triandafyllidou (eds.), World Migration Report 2022, IOM, 2021. */ M. McAuliffe və A. Triandafyllidou (red.) "2022-ci il* üçün *dünya miqrasiya hesabatı", BMqT, 2021-ci il. Burada mövcuddur:* https://publications.iom.int/books/world-migrationreport-2022. *2023-cü il dekabrın 11-də baxılıb.*

Migration Data Portal, Diasporas, Migration & development. / *Miqrasiya Məlumat Portalı "Diasporlar, miqrasiya və inkişaf". Burada mövcuddur:* https://www.migrationdataportal.org/ themes/diasporas. *2023-cü il dekabrın 11-də baxılıb.*

Migration Data Portal, Return Migration / *Miqrasiya Məlumat Portalı "Qayıdış miqrasiyası". Burada mövcuddur:* https://www.migrationdataportal.org/themes/return-migration. *2022-ci il avqustun 19-da baxılıb.*

OECD, Permanent immigrant inflows. / İƏİT "Daimi *immiqrant axınları". Burada mövcuddur:* https://doi.org/10.1787/443b6567-en. *2022-ci il avqustun 18-də və 2023-cü il dekabrın 11-də baxılıb.*

Pries, L., Transnational Migration: New Challenges for Nation States and New Opportunities for Regional and Global Development, Center for International Relations, Reports & Analyses 1/06, 2006. / *L. Pries "Transmilli miqrasiya: milli* dövlətlər üçün *yeni çağırışlar, regional və qlobal inkişaf* üçün *yeni imkanlar", Beynəlxalq Münasibətlər Mərkəzi, Hesabatlar və Təhlillər, 2006-cı il. Burada mövcuddur:* http://pdc.ceu.hu/archive/00004803/

Repko, A.F., Interdisciplinary Research. Process and Theory, Sage Publications, New York, 2008. */ A.F. Repko "Fənlərarası tədqiqat. Proses və nəzəriyyə", Sage Nəşriyyarı, Nyu-York, 2008-ci il.*

Sampson, R. et al., There are alternatives: a handbook for preventing unnecessary immigration detention (revised), International Detention Coalition, Melbourne, International Detention Coalition, 2015. */ R. Sampson və başqaları "Alternativlər mövcuddur: miqrantların ehtiyac olmadan saxlanılmasının qarşısının alınması* üçün *(yenidən işlənmiş) təlimatlar", Saxlanılma* Əleyhinə *Beynəlxalq Koalisiya, Melburn, 2015-ci il. Burada mövcuddur:* https://idcoalition.org/publication/there-are-alternatives-revised-edition. *2023-cü il dekabrın 11-də baxılıb.*

Skeldon, R., International migration, internal migration, mobility and urbanization: Towards more integrated approaches, IOM, Migration Research Series, No. 53, 2018. */ R. Skeldon "Beynəlxalq miqrasiya, daxili miqrasiya, mobillik və urbanizasiya: daha inteqrasiyalı yanaşmalara doğru", BMqT, Miqrasiya Araşdırmaları Seriyası No 53, 2018-ci il. Burada mövcuddur:* https://publications.iom.int/system/files/pdf/mrs_53.pdf. *2023-cü il dekabrın 11-də baxılıb.*

Thielemann, E.R., 'The Effectiveness of Governments' Attempts to Control Unwanted Migration', in Immigration and the Transformation of Europe, Parsons, C.A. and T.A. Smeeding (eds.), Cambridge University Press, Cambridge. 2006, pp. 442-471. */ E.R. Thielemann "Hökumətlərin arzuolunmaz miqrasiyaya nəzarət cəhdlərinin effektivliyi". C.A. Parsons və T.A. Smeedingin redaktoru olduğu "*İmmiqrasiya *və Avropanın transformasiyası" kitabında. 2006-cı il, səh. 442-471.*

UN Committee on the Rights of the Child, General comment No. 6 (2005): Treatment of Unaccompanied and Separated Children Outside their Country of Origin, CRC/GC/2005/6, 1 September 2005. */ BMT-nin Uşaq Hüquqları* üzrə *Komitəsi "*Ümumi şərh *No 6 (2005): müşayiət olunmayan və ayrılmış uşaqlarla mənşə* ölkəsindən *kənarda rəftar", 1 sentyabr 2005-ci il. Burada mövcuddur:* https://www.refworld.org/docid/42dd174b4.html. *2023-cü il dekabrın 11-də baxılıb.*

UN DESA, Recommendations on Statistics of International Migration, Statistical Papers Series M, No. 58, Rev. 1, 1998. */ UN DESA "Beynəlxalq miqrasiya statistikasına dair tövsiyələr", Statistik sənədlər, M seriyası, No 58, 1-ci nəşr, 1998-ci il. Burada mövcuddur:* https:// www.migrationdataportal.org/resource/recommendations-statisticsinternational-migration-revision-1. *2023-cü il dekabrın 11-də baxılıb.*

UN DESA, Population Division, World Urbanization Prospects: The 2018 Revision, 2019. / *UN DESA-nın* Əhali *Sakinliyi* şöbəsi *"Dünya* üzrə *urbanizasiya perspektivləri: 2018-ci ilə baxış", 2019-cu il. Burada mövcuddur:* https://population.un.org/wup/publications/Files/WUP2018-Report.

UN DESA, Population Division. World Population Prospects 2019: Data Booklet / *UN DESA-nın* Əhali *Sakinliyi* Şöbəsi *"Dünya* üzrə *urbanizasiya perspektivləri 2019:* məlumat *kitabçası", 2019-cu il. Burada mövcuddur:* https://worldpopulationreview.com/world-cities/baku-population

UNDP, Human Development Report 2009. Overcoming barriers: Human mobility and development, 2009. / *BMTİP "*İnsan *inkişafı hesabatı 2009. Maneələrin aradan qaldırılması: insan mobilliyi və inkişafı", 2009-cu il. Burada mövcuddur:* https://hdr.undp.org/content/humandevelopment-report-2009. *2023-cü il dekabrın 11-də baxılıb.*

UN General Assembly, Universal Declaration of Human Rights, 217 A (III), 10 December 1948. / *BMT Baş Assambleyası "*Ümumdünya *insan* hüquqları *bəyannaməsi", 217 A (III), 10 dekabr 1948-ci il. Burada mövcuddur:* https://documents-dds-ny.un.org/doc/RESOLUTION/GEN/NR0/043/88/PDF/NR004388.pdf?OpenElement. *2023-cü il dekabrın 11-də baxılıb.*

UN General Assembly, Convention Relating to the Status of Refugees, 28 July 1951, United Nations, Treaty Series, Vol. 189 / *BMT Baş Assambleyası "Qaçqınların statusu haqqında konvensiya", 28 iyul 1951-ci il, BMT, Müqavilələr Seriyası, cild 189. Burada mövcuddur:* https://treaties.un.org/pages/ViewDetailsII.aspx?src=TREATY&mtdsg_no=V-2&chapter=5&Temp=mtdsg2&clang=_en. *2023-cü il dekabrın 11-də baxılıb.*

UN General Assembly, Convention Against Torture and Other Cruel, Inhuman or Degrading Treatment or Punishment, 10 December 1984, United Nations, Treaty Series, Vol. 1465. / *BMT Baş Assambleyası "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə konvensiya", 10 dekabr 1984-cü il, BMT, Müqavilələr Seriyası, cild 1465. Burada mövcuddur:* https://www.refworld.org/docid/3ae6b3a94.html. *2022-ci il avqustun 10-da baxılıb.*

UN General Assembly, Convention on the Rights of the Child, 20 November 1989, United Nations, Treaty Series, Vol. 1577. / *BMT Baş Assambleyası "Uşaq* hüquqları *haqqında konvensiya", 20 noyabr 1989-cu il, BMT, Müqavilələr Seriyası, cild 1577. Burada mövcuddur:* https://www.refworld.org/ docid/3ae6b38f0.html. *2022-ci il dekabrın 17-də baxılıb.*

UN General Assembly, Protocol against the Smuggling of Migrants by Land, Sea and Air, Supplementing the United Nations Convention against Transnational Organized Crime, 15 November 2000. / *BMT Baş Assambleyası "BMT-nin transmilli* mütəşəkkil *cinayətkarlığa qarşı konvensiyasını tamamlayan miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı protokol", 15 noyabr 2000-ci il. Burada mövcuddur:* https://www.refworld.org/ docid/479dee062.html. *2022-ci il avqustun 19-da baxılıb.*

UN General Assembly, Protocol to Prevent, Suppress and Punish Trafficking in Persons, Especially Women and Children, Supplementing the United Nations Convention against Transnational Organized Crime, 15 November 2000. / *BMT Baş Assambleyası "BMT-nin transmilli* mütəşəkkil *cinayətkarlığa qarşı konvensiyasını tamamlayan insan alverinin,* xüsusən *qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və* cəzalandırılması *haqqında protokol", 15 noyabr 2000-ci il. Burada mövcuddur:* https://www.refworld.org/docid/4720706c0.html. *2022-ci il avqustun 21-də baxılıb.*

UNHCR, Handbook and Guidelines on Procedures and Criteria for Determining Refugee Status under the 1951 Convention and the 1967 Protocol Relating to the Status of Refugees, 2019. / *BMTQAK "Qaçqınların statusu haqqında 1951-ci il konvensiyasına və 1967-ci il protokoluna əsasən qaçqın statusunun* müəyyənləşdirilməsi üçün *prosedurlar və meyarlara dair* təlimatlar *və* rəhbər *prinsiplər", 2019-cu il. Burada mövcuddur:* https://www.unhcr.org/fr-fr/en/media/handbook-procedures-and-criteria-determining-refugee-statusunder-1951-convention-and-1967. *2023-cü il dekabrın 11-də baxılıb.*

UNHCR, Global Trends: Forced Displacement in 2021, 2022. / *BMTQAK "Qlobal tendensiyalar: 2021-ci ildə* məcburi *yerdəyişmələr", 2022-ci il. Burada mövcuddur:* https://www.unhcr.org/media/global-trends-report-2021. *2022-ci il iyunun 16-da baxılıb.*

UNICEF, Migrant and displaced children, Programme. / *UNICEF "Miqrant və köçkün uşaqlar", proqram. Burada mövcuddur:* https://www.unicef.org/migrant-refugee-internally-displaced-children. *2022-ci il dekabrın 17-də baxılıb.*

UNODC, Human trafficking and migrant smuggling. / *UNODC "*İnsan *alveri və miqrant qaçaqmalçılığı". Burada mövcuddur:* https://www.unodc.org/e4j/en/secondary/human-trafficking-and-migrant-smuggling.html. *2023-cü il dekabrın 11-də baxılıb.*

UNODC, Global Report on Trafficking in Persons 2020, UNODC Research, 2020. / *UNODC "2020-ci il* üçün *insan alverinə dair qlobal hesabat", UNODC tədqiqatı. Burada mövcuddur:* https://www.unodc.org/documents/data-and-analysis/tip/2021/GLOTiP_2020_15jan_web.pdf. *2023-cü il dekabrın 11-də baxılıb.*

UNSD, Expert Group on Migration Statistics - Expert Group on Migration Statistics. / *UNSD "Birləşmiş Millətlər Təşkilatının miqrasiya statistikası* üzrə *ekspert qrupu". Burada mövcuddur:* https://web.archive.org/web/20220712014032/https:/unstats.un.org/unsd/demographic-social/migration-expert-group. *2022-ci il iyunun 16-da baxılıb.*

World Bank, Urban Development, Topics. / *Dünya Bankı "*Şəhər *inkişafı", Mövzular. Burada mövcuddur:* https://www.worldbank.org/en/topic/urbandevelopment/overview. *2022-ci il avqustun 1-də baxılıb.*

World Bank; Development Research Center of the State Council, the People's Republic of China, Urban China: Toward Efficient, Inclusive, and Sustainable Urbanization, World Bank, Washington, D.C., 2014. / *Dünya Bankı,* Çin *Xalq Respublikası Dövlət* Şurasının İnkişaf *Araşdırmaları Mərkəzi "Urbanizasiyalı* Çin*: səmərəli, inklüziv və davamlı urbanizasiyaya doğru", Vaşinqton, Kolumbiya dairəsi, 2014-cü il. Burada mövcuddur:* https://openknowledge.worldbank.org/handle/10986/18865

# Modul 2

# Miqrasiya məlumatları və bu məlumatların idarə edilməsi

## Modulun qısa təsviri

Bu modul miqrasiya ilə əlaqəli müxtəlif məlumat əldəetmə və toplama mənbələrini, ilk növbədə miqrasiya statistikasında istifadə olunan tərifləri və bununla bağlı çətinlikləri və ölkənin ümumi əhalisinə münasibətdə miqrasiya məlumatlarının hazırlanması yollarını təqdim edir. Həmçinin, modul ölkədə miqrasiya axınları ilə bağlı etibarlı məlumatların hazırlanmasında istifadə olunan əhalinin siyahıyaalınması, ev təsərrüfatları tədqiqatları, analoji seçmə sorğuları və xüsusi miqrasiya tədqiqatları kimi əsas statistik vasitələrin ətraflı təsvirini təqdim edir. Bundan əlavə, məlumatların toplanması və idarə edilməsi ilə məşğul olan hər bir qurumun öhdəliklərini və onların bu istiqamətdə birgə səylərini əsas götürərək Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsinin institusional çərçivəsi burada təsvir olunur.

| İştirakçılar | Mühazirəçilər/təlimçilər |
|---|---|
| Bütün müvafiq bölmələri ilə birgə bu modul sosial-siyasi elmlər, iqtisadiyyat fakültələrinin tələbələri və Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi ilə məşğul olan bütün praktiklər üçün icbaridir. Praktiklər yalnız Dövlət Statistika Komitəsindən (DSK) deyil, məlumat toplama və idarəetmə şöbələri olan digər dövlət qurumlarından da ola bilərlər.<br><br>Miqrasiya ilə əlaqəli məsələlərin Azərbaycan kontekstində KİV-lər tərəfindən müvafiq miqrasiya məlumatlarının istifadəsi sahəsindəki boşluqları, həmçinin qeyri-düzgün istifadəsini nəzərə alaraq, Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi üzrə institusional çərçivəyə dair bölmə 2.3-ün jurnalistlər və ya jurnalistika fakültəsinin tələbələri üçün ayrıca keçirilməsi tövsiyə olunur. | Akademik mühitdə mühazirəçinin/müəllimin sosial-siyasi elmlər fakültəsindən olması, miqrasiya ilə bağlı məlumatlar və əsasən bu məlumatlara aid empirik məqalələr barədə bəzi təməl biliklərə malik olması tövsiyə edilir.<br><br>Bundan əlavə, DSK-dan və ya digər aidiyyəti qurumlardan, eləcə də ilk növbədə Azərbaycanda fəaliyyət göstərən müstəqil tədqiqat təşkilatlarından qonaq mühazirəçilər həm akademik, həm də qeyri-akademik mühitlərə cəlb oluna bilərlər. Belə bir qonağın töhfəsi bütün bölmələr, xüsusilə Azərbaycanda miqrasiya məlumatlarının idarə olunmasına dair bölmə 2.3 üçün dəyərli olacaq. Qonaq mühazirəçinin iştirakı dərslərdən birində təşkil edilməlidir. |

# Öyrənmə məqsədləri və dəyərləri

**Bu modulun sonunda iştirakçılar:**

- müxtəlif köməkçi və əsas mənbələrə istinad edərək miqrasiya məlumatlarının necə hazırlanması barədə əsas biliklərə malik olacaqlar;
- məlumatların toplanmasında istifadə olunan müxtəlif statistik vasitələri, onların üstünlükləri və çatışmazlıqlarını fərqləndirməyi bacaracaqlar;
- məlumatların hazırlanmasında istifadə olunan beynəlxalq miqrasiya statistikasının müxtəlif tərifləri ilə tanış olacaqlar;
- bu modul çərçivəsində təchiz olunduqları biliklərdən istifadə edərək miqrasiya məlumatlarını hazırlamağı bacaracaqlar;
- Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi və bu prosesdə iştirak edən müxtəlif maraqlı tərəflərin rolu haqqında əsas informasiyaya malik olacaqlar;
- fərqli mənbələrdən əldə olunan məlumatları, onların miqrasiyanın müxtəlif tipologiyaları ilə bağlı üstünlükləri və çatışmazlıqlarını hərtərəfli təhlil etmək, fərqli ölkələrdə toplanmış məlumatları, eləcə də müvafiq illəri və ya dövrləri müqayisə etmək bacarığına malik olacaqlar.

# Modulun strukturu

## Bölmə 2.1 Beynəlxalq miqrasiya statistikasında anlayışlar və təriflər

2.1.1 Beynəlxalq miqrasiya axınlarına dair əsas təriflər
2.1.2 Beynəlxalq miqrasiya ilə əlaqəli əhali qruplarına aid təriflər
2.1.3 Müvəqqəti əhali mobilliyi və sayı

## Bölmə 2.2 Əsas məlumat mənbələri

2.2.1 Əhalinin və mənzil fondunun siyahıyaalınmaları
2.2.2 Ev təsərrüfatlarının tədqiqatı və digər seçmə statistik sorğular
2.2.3 Xüsusi beynəlxalq miqrasiya tədqiqatları
2.2.4 İnzibati məlumat topluları və birgə metodlar

## Bölmə 2.3 Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi üzrə institusional çərçivə

Azərbaycanda qurumlararası miqrasiya məlumatlarının mübadiləsi tədbirləri və miqrasiya statistikasının hazırlanması

## Bölmə 2.4 Empirik iş/Qiymətləndirmə

2.4.1 Miqrasiya məlumatlarını toplama və idarəetmə mövzuları üzrə qısa prezentasiya tapşırığı əsasında akademik dairələrin tələbələri üçün empirik iş/imtahan.

2.4.2 Azərbaycanda miqrasiya idarəçilyində iştirak edən müxtəlif maraqlı tərəflərdən olan iştirakçıların biliklərinin qeyri-formal təhsil metodları vasitəsi ilə qiymətləndirilməsi.

# Modulun əsas sualları

Aşağıda verilmiş suallar modul üzrə mühazirə zamanı müzakirələrin aparılması və tələbələrin/praktiklərin biliklərinin qiymətləndirilməsi üçün bələdçi kimi istifadə oluna bilər:

- Beynəlxalq miqrasiyaya dair məlumatların toplanması üçün tövsiyə olunan əsas mənbələr hansılardır?
- Hər bir məlumat mənbəyinin üstünlükləri və çatışmazlıqları hansılardır?
- BMT-nin tövsiyələrinə əsasən beynəlxalq miqrant necə müəyyən edilir?
- BMT-nin təriflərinə görə müvəqqəti beynəlxalq yerdəyişmələri beynəlxalq miqrasiya axınlarından necə ayırd etmək olar?
- Əgər "müvəqqəti miqrant" anlayışına hər hansı zaman meyarı daxil deyilsə, əhali sayı haqqında məlumatların hazırlanmasında hansı çətinliklərlə üzləşmək olar?
- Zəruri bacarıqları nəzərə alaraq, Azərbaycanda BMT-nin tövsiyə etdiyi kimi əhali sayı və miqrasiya axınları haqqında məlumatların birləşdirilməsi və sayla axınlar arasında uyğunluğun təmin edilməsi işlərinin hansı dövlət qurumu tərəfindən aparılması daha münasib olardı?

# Müddət

| Modul 2-nin bölmələri | Kursun müddəti | |
|---|---|---|
| | Saat | Dərs |
| Bölmə 2.1 Beynəlxalq miqrasiya statistikasında anlayışlar və təriflər | 2 | 1 |
| Bölmə 2.2 Əsas məlumat mənbələri | 2 | 1 |
| Bölmə 2.3 Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi üzrə institusional çərçivə | 2 | 1 |
| Bölmə 2.4 Empirik iş/İmtahan | 2 | 1 |
| **Cəmi** | **8** | **4** |

# Modulun indikativ məzmunu

## Bölmə 2.1 Beynəlxalq miqrasiya statistikasında anlayışlar və təriflər

### Beynəlxalq miqrasiya axınlarına dair əsas təriflər

20-ci əsrin əvvəllərindən etibarən beynəlxalq qurumlar beynəlxalq miqrantlar və miqrasiya anlayışlarının necə tərif edilməsi ilə bağlı tövsiyələr verirlər. Bir çox halda miqrasiya (əmək miqrasiyası) müvəqqəti hesab edildiyindən və qayıdış miqrasiyası gözlənildiyindən, qəbul edən ölkədə miqrantın ailə üzvləri ilə birləşməsi perspektivi adətən nəzərə alınmırdı. Bununla belə, iş elə gətirdi ki, əməkçi miqrantların əhəmiyyətli hissəsi qəbul edən ölkələrdə daimi qaldı. Bundan əlavə, artmaqda olan müxtəlif (turizm, biznes, təhsil, tibbi və s.) səbəblər və fərqli (qısa, uzunmüddətli, sabit, dairəvi və s.) mobillik növləri miqrasiya yerdəyişmələrini qeyri-miqrasiya mobilliyindən ayırmaqda çətinliklər yaratdı. Bu şəraitdə yerdəyişmələr haqqında dəqiq məlumatların toplanması getdikcə daha da çətinləşdi və nəticədə ölkələrin konkret maraqlarından asılı olaraq yalnız bir neçə miqrasiya növü, digərləri ilə müqayisədə, siyasət üçün prioritet təşkil etdi.

Statistik məlumatların hazırlanması üçün miqrasiya və miqrantlar ilə əlaqəli müxtəlif anlayışlar dəqiq olmalıdır. 1998-ci il tövsiyələrinin yenidən baxılmasını təmin edən konseptual çərçivəyə uyğun olaraq, beynəlxalq miqrasiya statistikası ilə bağlı aşağıdakı anlayışlardan və onların təriflərindən istifadə etmək tövsiyə olunur:

**Beynəlxalq miqrant** müəyyən il ərzində yaşadığı ölkəni dəyişmiş və başqa ölkədə özünə yeni yaşayış yeri yaratmış şəxsdir. Beynəlxalq miqrant “immiqrant” və ya “emiqrant”, eləcə də milli və ya xarici vətəndaşlığı olan və ya vətəndaşlığı olmayan şəxs ola bilər.

**İmmiqrasiya (axını)** müəyyən il ərzində ölkəyə daxil olan və daimi əhalinin bir hissəsinə çevrilən bütün şəxslərdən, o cümlədən milli və ya xarici vətəndaşlığı olan, yaxud da vətəndaşlığı olmayan şəxslərdən ibarətdir.

**Emiqrasiya (axını)** müəyyən il ərzində başqa ölkənin daimi əhalisinin bir hissəsi olmaq üçün ölkəni tərk edən bütün şəxslərdən, o cümlədən milli və ya xarici vətəndaşlığı olan, yaxud da vətəndaşlığı olmayan şəxslərdən ibarətdir.

**Geri qayıdan vətəndaşlar (axını)** əvvəllər başqa ölkədə yaşamış və müəyyən il ərzində ölkə rezidenti olmuş bütün milli vətəndaşlardan ibarətdir.

**Geri qayıdan yerli əhali (axını)** əvvəllər başqa ölkədə yaşamış və müəyyən il ərzində ölkə rezidenti olmuş bütün yerli sakinlərdən ibarətdir.

Bundan əlavə, əhalinin və mənzil fondunun siyahıyaalınmasına aid son tövsiyələrdə ölkədəki daimi əhalinin son 12 ayın böyük hissəsi (ən azı 6 ay və bir gün nəzərdə tutulur) və ya (müxtəlif səbəblərdən nisbətən qısamüddətli beynəlxalq yerdəyişmələri istisna etməklə) ən azı 12 ay ərzində fasiləsiz ölkədə olmaq müddəti əsasında müəyyənləşdirilməsi təklif edilir.

## Beynəlxalq miqrasiya ilə əlaqəli əhali qruplarına aid təriflər

Ölkənin daimi əhalisi arasında beynəlxalq miqrasiya ilə əlaqəli qrupları ayırmaq üçün ənənəvi olaraq iki anlayışdan istifadə edilir – **xaricdə doğulmuş əhali və xarici vətəndaşlar**. Bu əhali qruplarını müəyyən etmək üçün şəxsin doğulduğu və vətəndaşı olduğu ölkələr haqqında informasiya lazımdır. Bu anlayışların tərifləri Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyası (UNECE) tərəfindən təqdim olunub.

**Xaricdə doğulmuş əhali (sayı)** müəyyən bir müddətdə ölkədə yaşayan və başqa ölkədə doğulmuş bütün şəxslərdən ibarətdir.

**Yerli əhali (sayı)** müəyyən bir müddətdə ölkədə yaşayan və həmin ölkədə doğulmuş bütün şəxslərdən ibarətdir.

**Xarici vətəndaş əhalisi (sayı)** müəyyən bir müddətdə ölkədə yaşayan və milli vətəndaşlığı olmayan, o cümlədən vətəndaşlığı olmayan bütün şəxslərdən (apatridlərdən) ibarətdir.

**Milli vətəndaş əhalisi (sayı)** müəyyən bir müddətdə ölkədə yaşayan və milli vətəndaşlığı olan bütün şəxslərdən ibarətdir.

Xaricdə doğulmuş əhali ölkə hüdudlarından kənarda doğulmuş əhalinin sayına uyğundur və bu o deməkdir ki, onlar həyatlarında ən azı bir dəfə ölkəyə immiqrasiya etmiş və məlumat toplama tarixində ölkə daxilində yaşayan beynəlxalq miqrantlardır. Xarici vətəndaş əhalisinə məlumat toplama tarixində ölkədə yaşayan və ölkə vətəndaşlığına malik olmayan bütün şəxslər daxildir. Həmin şəxslər əsasən xaricdə doğulduğundan bu iki əhali qrupu böyük ölçüdə üst-üstə düşür. Bundan əlavə, “beynəlxalq miqrant” anlayışını əsas götürərək BMT-nin Əhalinin siyahıyaalınmaları vasitəsi ilə beynəlxalq miqrasiyanın ölçülməsi üzrə təlimatında **beynəlxalq miqrant sayını** adətən yaşadığı ölkəni dəyişmiş şəxslərin cəmi kimi müəyyənləşdirmək təklif olunub. Bunlar, həyatının ən azı ardıcıl 6 ayını (ilin çox hissəsini) məlumat toplama zamanı yaşadığı ölkədən fərqli ölkədə keçirmiş şəxslərdir. Ehtimal olunur ki, bütün əcnəbilər, o cümlədən bir yaşa çatana qədər valideynləri ilə miqrasiya etmiş şəxslər beynəlxalq miqrantdır.

**“İmmiqrant sayı”** termini əlaqədar ölkədə müəyyən bir zamanda olan beynəlxalq miqrantların ümumi miqdarı kimi müəyyən edilir, **“emiqrant sayı”** isə müəyyən bir zamanda əlaqədar ölkədən getmiş beynəlxalq miqrantların ümumi miqdarına bərabərdir.

**Geri qayıtmış miqrantlar (qrupu)** qiymətləndirmə ölkəsində əvvəllər yaşamış, emiqrasiya etmiş, sonra bu ölkədə yaşamaq üçün geri qayıtmış və tələb edilən minimum yaşayış müddəti ərzində ölkədə qalmış və ya qalmaq niyyətində olmuş şəxslərdən ibarətdir.

**Geri qayıtmış yerli miqrantlar (qrupu)** qiymətləndirmə ölkəsində əvvəllər yaşamış, emiqrasiya etmiş, sonra bu ölkədə yaşamaq üçün geri qayıtmış və tələb edilən minimum yaşayış müddəti ərzində ölkədə qalmış və ya qalmaq niyyətində olmuş yerli sakinlərdən ibarətdir.

## Müvəqqəti əhali mobilliyi və sayı

**Transsərhəd işçilər** qiymətləndirmə ölkəsinin rezidenti olmayan, lakin müntəzəm və qısa (gündəlik və ya həftəlik) fasilələrlə ölkəni tərk etmək şərti ilə burada dəfələrlə (ildə bir dəfədən çox) iqtisadi fəaliyyətlə məşğul olmuş bütün şəxslərdir.

**Mövsümi işçilər** işlədiyi ölkənin rezidenti olmayan, işi öz xarakterinə görə mövsümi şəraitdən asılı olan və ilin bir hissəsində (eyni yerdə) yerinə yetirən bütün şəxslərdir.

**Digər müvəqqəti işçi növləri** qiymətləndirmə ölkəsinin rezidenti olmayan, lakin işlə bağlı səbəblərə görə bu ölkəyə qısa müddətə (ölkədə yaşamaq üçün tələb olunan minimum müddətdən az müddətə) səfər edən şəxslərdən, məsələn, səyyar işçilərdən və layihə işçilərdən ibarətdir.

**Təlimlə bağlı mobillik** ölkə rezidenti olmayan, lakin ölkədə yaşamaq üçün tələb olunan minimum müddətdən az müddətə, qısamüddətli təlim proqramında iştirak etmək məqsədi ilə ölkəyə səfər edən bütün şəxsləri əhatə edir.

**Müalicə ilə bağlı mobillik** ölkə rezidenti olmayan, lakin ölkədə yaşamaq üçün tələb olunan minimum müddətdən az müddətə, tibbi xidmətlərdən istifadə etmək məqsədi ilə ölkəyə səfər edən bütün şəxsləri əhatə edir.

**Ölkə ərazisindən tranzitlə keçən sığınacaq axtaranlar** sığınacaq ərizəsi vermək üçün başqa ölkəyə getmək niyyəti ilə ölkə ərazisindən tranzitlə keçən şəxslərdir.

**Dövri yerdəyişmə** ölkə rezidenti olmayan və müəyyən il ərzində eyni ölkəyə bir dəfədən çox səfər edən şəxsləri əhatə edir.

## Bölmə 2.2 Əsas məlumat mənbələri

### Statistik məlumatların toplanması vasitələri: əhalinin və mənzil fondunun siyahıyaalınmaları

Əhalinin siyahıyaalınması etibarlı inzibati reyestrləri, xüsusən də əhali reyestrləri olmayan ölkələr üçün miqrasiya statistikasının hazırlanması baxımından əsas məlumat mənbəyidir. Adətən siyahıyaalma on ildən bir keçirilsə də, ölkələrin çoxu üçün bu, beynəlxalq miqrantlar haqqında yeganə etibarlı informasiya mənbəyidir. Siyahıyaalmalar miqrasiya təcrübəsi və ya xarici mənşəyi olan əhalinin sosial-iqtisadi və demoqrafik xüsusiyyətlərinin müəyyənləşdirilməsi sayəsində miqrasiya nümunələrinin təhlili üçün böyük həcmdə statistik məlumatlar təqdim edə bilər. Siyahıyaalma zamanı toplanacaq əsas miqrasiya xüsusiyyətləri doğulduğu ölkə, vətəndaşlıq ölkəsi, adətən yaşadığı əvvəlki ölkə, gəlmə vaxtı və miqrasiya səbəbindən ibarətdir. Bununla belə, siyahıyaalmaların, xüsusən miqrasiya axınlarına dair məlumatlarla bağlı bəzi məhdudiyyətləri var. Belə ki, siyahıyaalma zamanı bütün emiqrantlar haqqında məlumat toplamaq problem olaraq qalır, xüsusilə əgər bütün ailə emiqrasiya edibsə. Ənənəvi olaraq, siyahıyaalmalar on il müddətinə aparıldığından, iki siyahıyaalma arasında baş vermiş mühüm miqrasiya hadisəsi müvafiq şəxsin ölməsi və ya (yenidən) emiqrasiya etməsi faktı ilə əlaqədar diqqətdən kənarda qala bilər.

### Ev təsərrüfatlarının tədqiqatı və digər seçmə statistik sorğular

Siyahıyaalmalara hər bir mövzu, o cümlədən miqrasiya üzrə olduqca az sayda sual daxil edildiyi halda, seçmə statistik sorğular daha çox mövzu üzrə kifayət qədər ətraflı məlumat toplamaq üçün istifadə edildiyindən tez-tez aparıla bilər. Bəzən miqrasiya suallarının daxil edildiyi bir sıra seçmə statistik sorğular üçün nəzərdə tutulan metodologiya beynəlxalq statistika orqanları tərəfindən təklif olunur. Lakin, ümumi əhalinin ev təsərrüfatlarına yönəlmiş və konkret miqrantlı ev təsərrüfatlarını nəzərə almayan seçmə tədqiqat vasitəsi ilə etibarlı miqrasiya məlumatlarını toplamaq adətən çox problemli görünür. Birincisi,

seçmə sorğu vasitəsi ilə miqrasiya axınları haqqında məlumatların toplanması əhalinin siyahıyaalınması zamanı olduğu kimi böyük ölçüdə çətindir, hətta siyahıyaalma ilə müqayisədə seçmə sorğu anketinə daha çox sual daxil etmək mümkün olsa belə. İkincisi, əgər seçmə sorğu strategiyasına miqrasiya məsələləri üzrə reprezentativ nümunə daxil deyilsə, bu zaman keyfiyyətli miqrasiya məlumatlarını toplamaq mümkün olmaya bilər, sadəcə ona görə ki, miqrantlar ümumi əhalinin yalnız kiçik hissəsini təşkil edirlər. Sorğu xüsusi olaraq miqrasiya məlumatlarının toplanması üçün nəzərdə tutulduqda, bu problemlərin ikisinin də qarşısını qismən almaq olar.

## Xüsusi beynəlxalq miqrasiya tədqiqatları

Xüsusi miqrasiya tədqiqatının əsas üstünlüyü ondan ibarətdir ki, burada miqrasiya məsələlərinə aid məlumatların toplanmasına diqqət yetirilir. Müvafiq olaraq, nümunə elə bir qaydada tərtib edilir ki, miqrant əhali toplanmış məlumatlar əsasında etibarlı şəkildə təmsil olunur. Xaricdə yaşadıqdan sonra nə vaxtsa immiqrasiya etmiş və ya geri qayıtmış şəxslər haqqında keyfiyyətli məlumatları bu cür tədqiqatlar vasitəsi ilə toplamaq mümkün olsa da, yerlərdə müsahibə əsasında digər tədqiqatlar zamanı olduğu kimi, hazırda xaricdə yaşayanları əhatə etmək asan deyil. Əgər nümunə hazırkı emiqrantların ev təsərrüfatlarını əhatə edirsə, cavabları almaq mümkündür, lakin bu cavabların emiqrantın şəxsən verə biləcəyi məlumatlarla üst-üstə düşməsi mütləq deyil. Bəzən daha konkret tətqiqatlar üçün ev təsərrüfatlarının emiqrasiya etmiş üzvləri ilə müsahibə onların xaricdəki yaşayış yerində aparılır. Lakin, bu cür transsərhəd tədqiqatlar çox nadir hallarda aparılır, çünki onları təşkil etmək çətindir.

## İnzibati məlumat topluları

Miqrasiya statistikası üçün ən çox istifadə olunan inzibati reyestrlər bunlardır:

- Əhali reyestri;
- Əcnəbilər reyestri;
- Yaşama icazələrinin reyestri.

**Əhali reyestrinin məlumatları** adətən qanunvericiliyə uyğun olaraq yenilənən şəxsi göstəricilər qismində yaşayış yerinə dair məsələləri özündə əks etdirdiyi üçün faydalıdır. Beynəlxalq miqrasiya statistikasında miqrasiyanın müəyyənləşdirilməsi üçün əsas anlayış "adətən yaşaydığı ölkə"dir. Bununla bağlı bu kimi iki şərtə diqqət yetirilməlidir: birincisi, qeydiyyata alınmış yaşayış yeri şəxsin adətən yaşadığı yaşayış yerindən ibarət olmalıdır, ikincisi isə, qeydiyyata alınmış yeni yaşayış yerində minimum yaşamaq müddəti adətən yaşadığı yerin müəyyənləşdirilməsi üçün tövsiyə olunan müddətdən az və ya ona bərabər olmalıdır. Bəzən immiqrasiya reyestri də adlandırılan **əcnəbilər reyestri** əhali reyestrinə bənzəyir, lakin yalnız xarici immiqrantları əhatə edir. Bəzi hallarda o, əhali reyestrinin xüsusi bir hissəsindən ibarət olur və ümumi əhali reyestri ilə müqayisədə daha çox göstəricini özündə əks etdirir. Əhali reyesti ilə olduğu kimi, əcnəbilər reyestrində də miqrasiya hadisələrinin müəyyənləşdirilməsi üçün eyni şərtlərə diqqət yetirilməlidir. Bundan əlavə, **yaşama icazələrinin reyestri** əcnəbilər reyestrinə nisbətən oxşayır, çünki ilk yaşama icazəsinin verilməsi immiqrasiya hadisəsinin göstəricisi hesab oluna bilər. Lakin, icazənin etibarlılıq tarixləri reyestrdə qeyd olunsa belə, mütləq deyil ki, bu qeyd ölkəyə gəlmə və ölkədən getmənin real tarixlərini əks etdirir. Əcnəbiyə ölkədə daimi yaşamaq hüququ verildikdən sonra başqa yerlərdə növbəti yaşama müddətlərinin qeydiyyatını reyestrdə aparmaq çətindir.

## Bölmə 2.3 Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi üzrə institusional çərçivə

Azərbaycanda beynəlxalq miqrasiya məsələlərinin idarə edilməsi üzrə institusional çərçivə hər birinin öz vəzifəsi olan bir sıra dövlət qurumlarını əhatə edir və bu vəzifələrdən bəziləri müəyyən statistik məlumatların toplanmasını nəzərdə tutur. Bu kontekstdə, müvafiq razılaşma və qanunvericilik qaydaları əsasında həmin qurumlar tərəfindən toplanmış məlumatların mübadiləsi üçün xüsusi mühiti təmin edən və geniş şəkildə istifadə olunan informasiya sistemi - İdarələrarası Avtomatlaşdırılmış Məlumat-Axtarış Sistemi (İAMAS) mövcuddur. Bundan əlavə, bu sistemdə onun vasitəsi ilə təqdim olunan müxtəlif miqrasiya mövzularına aid məlumatlar əsasında statistik məlumatlar hazırlamaq imkanı nəzərdə tutulur. Burada, müxtəlif dövlət qurumları digər dövlət qurumlarının apardığı fərdi qeydlərə, eləcə də əvvəlcədən müəyyən edilmiş razılaşmalar əsasında müvafiq ehtiyaclara uyğun olaraq ümumi istifadə üçün hazırlanmış statistik cədvəllərə çıxış əldə edə bilərlər. Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi və statistikanın hazırlanması ilə məşğul olan üç əsas qurum DMX, Dövlət Sərhəd Xidməti (DSX) və DSK-dır.

Miqrasiya sahəsində əcnəbilər haqqında toplanmış məlumatların idarə edilməsi DMX-nın vəzifələri sırasında yer alır və bu məqsədlə Xidmət tərəfindən Vahid Miqrasiya Məlumat Sistemi saxlanılır. DMX-nın fəaliyyət sahəsinə digər məsələlərlə yanaşı, əcnəbilərin Azərbaycanda müvəqqəti qalması, qaldığı yer üzrə qeydiyyatı, müvəqqəti və daimi yaşama, iş icazələrinin verilməsi və müddətlərinin uzadılması, qaçqın statusunun verilməsi, Azərbaycan vətəndaşlığının əldə edilməsi, bərpası, müəyyənləşdirilməsi və itirilməsi, eləcə də ikili vətəndaşlığın qeydiyyatına dair məlumat toplamaq daxildir.

Statistik məlumatların hazırlanmasında əsas dövlət qurumu olan DSK əhali sayının hesablanması və siyahıyaalmaların həyata keçirilməsi kimi məsələlərə də nəzarət edir. Belə ki, Azərbaycanda (2019-cu ildə keçirilmiş) son siyahıyaalma həmin vaxt ölkədə adətən yaşayan xarici vətəndaşlar, yəni, yaşama və iş icazələrinin sahibləri, xarici tələbələr, uzunmüddətli vizası olan digər əcnəbilər və həmin vaxt ölkə ərazisində yaşayan xaricdə doğulmuş vətəndaşlar haqqında məlumatları özündə ehtiva etdi. Bundan əlavə, Daxili İşlər Nazirliyi (DİN) və DMX tərəfindən təqdim olunmuş ölkəyə gəlmək və ölkədən getmək haqqında məlumatların dərc olunmasını da DSK həyata keçirir. Ümumiyyətlə, DSK-nın dərc etdiyi beynəlxalq miqrasiyaya aid statistik məlumatlar rəsmi statistik hesabatlar əsasında DMX-dan əldə olunur və yalnız əcnəbilərin miqrasiyasını ehtiva edir.

DSX Azərbaycan Respublikasının dövlət sərhədindən keçən şəxslər və nəqliyyat vasitələri haqqında məlumatları toplamaq səlahiyyətinə malikdir. Şəxslərin və nəqliyyat vasitələrinin qeydiyyatı İAMAS-ın Sərhəd nəzarəti alt-sistemi vasitəsi ilə həyata keçirilir. Məlumatlara həm ölkə vətəndaşlarının, həm də əcnəbilərin sərhədkeçmə halları daxildir. Ölkədə bu qurumlardan başqa, miqrasiya ilə bağlı müəyyən məlumatların toplanması və idarə edilməsi ilə məşğul olan digər dövlət orqanları da var.

## Bölmə 2.4 Empirik iş/Qiymətləndirmə

**2.4.1** Tələbələrin biliklərinin qiymətləndirilməsi Cənubi Qafqazda/Azərbaycanda miqrasiya axınları haqqında məlumatların açıq mənbələrdə mövcud olan informasiya əsasında toplanması üzrə qısa tapşırıq vasitəsi ilə həyata keçirilir. Qısa tapşırıq son dərs zamanı prezentasiya formasında təqdim edilməlidir. Tapşırıqla bağlı prezentasiyadan əvvəl bir sinif tələbə sayından asılı olaraq bir neçə qrupa bölünür. Təqdimat yekun qiymətləndirmənin 60%-ni təşkil edir, qalan 40% isə tələbələrin modul daxilində hər bir bölmə üzrə sinif müzakirələrində iştirak səviyyəsinə əsaslanır.

Hər prezentasiya 15 dəqiqə davam etməli, ardınca isə müəllim/mühazirəçi və auditoriya tərəfindən sual-cavab sessiyası keçirilməlidir.

Aşağıda qeyd olunan mövzular məlumatların toplanması üzrə tapşırıqda bir istiqamət kimi istifadə oluna bilər, halbuki həmin mövzular siyahısına əlavələr etmək mümkündür:

- *2014-2024-cü illər ərzində Cənubi Qafqazda (Azərbaycan, Ermənistan və Gürcüstanda) xalis miqrasiya səviyyəsi.*
- *2014-2024-cü illərdə Cənubi Qafqazdan emiqrasiya formaları və emiqrasiya axınlarının əsas təyinat ölkələri.*
- *1990-2000, 2000-2010 və 2010-2020-ci illərdə Cənubi Qafqazdan Rusiyaya emiqrasiya səviyyələrinin müqayisəsi, tendensiyaların necə dəyişdiyini və səbəblərin nədən ibarət olduğunu ətraflı təhlil etməklə.*
- *Azərbaycan qanunvericiliyi və statistikasında "miqrant" termininin tərifi necə müəyyən edilib və bu təriflə bağlı hansı çətinliklər yarana bilər. Bundan əlavə, son 5 ildə ölkəyə daimi immiqrasiya axınlarına dair məlumatların təqdim edilməsi.*

**2.4.2** Qeyri-formal təhsil çərçivəsində (sayından asılı olaraq fərdi qaydada və ya qruplarda) iştirakçılar Miqrasiya üzrə dərslikdə göstərilən tematik misallar üzərində işləyə bilərlər, habelə bu kimi tapşırıqları yerinə yetirə bilərlər:

- *Son 5 ilin statistik məlumatları əsasında Azərbaycanda əhali sayının dəyişməsini təhlil edin, həmçinin "miqrant" əhalisindəki dəyişiklikləri göstərin.*
- *Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsində çatışmazlıqları, o cümlədən statistikada müxtəlif miqrant tipologiyalarının təriflərini təhlil edin.*

Əlavə mövzular əldə etmək üçün dərslikdəki modulun sonunda verilmiş müvafiq tematik misallara müraciət oluna bilər.

Məlumatların toplanması ilə bağlı prezentasiya üzrə qısa tapşırığa əsaslanan akademik qiymətləndirmə üçün qiymət cədvəli aşağıda verilir:

| | |
|---|---|
| Seçilmiş və təhlil edilmiş məlumatların aktuallığı | 20% |
| Məlumatları təhlil və izah etmə bacarıqları | 30% |
| Prezentasiya etmə və şifahi nitq bacarıqları | 10% |
| Bütün bölmələr üzrə sinif müzakirələrində fəal iştirak | 40% |
| **Qiymətin ümumi faizi** | **100%** |

# Resurslar və əlavə ədəbiyyat

European Union, United Nations, Expert Group on Refugee and Internally Displaced Persons Statistics – International Recommendations on Refugee Statistics, Luxembourg, 2018. */ Aİ və BMT "Qaçqınların və məcburi köçkünlərin statistikası* üzrə *ekspert qrupu – qaçqın statistikası* üzrə *beynəlxalq tövsiyələr". Lüksemburq, 2018-ci il.*

ILO, Guidelines concerning statistics of international labour migration, ICLS/20/2018/Guidelines, Department of Statistics, 20th International Conference of Labour Statisticians, Geneva, 10-19 October 2018, ILO, Geneva, 2018. */ BƏT "Beynəlxalq* əmək *miqrasiyasının statistikasına dair təlimatlar". ICLS/20/2018 nömrəli təlimatlar. Statistika* İdarəsi. Əmək *statistiklərinin 20-ci Beynəlxalq Konfransı, Cenevrə, 10-19 oktyabr 2018-ci il.*

Poulain, M., Perrin, N. and A. Singleton (eds.), THESIM: Towards harmonised European statistics on international migration, Presses universitaires de Louvain, 2006. */ Michel Poulain, Nicolas Perrin və Ann Singletonun redaktoru olduğu "THESIM: beynəlxalq miqrasiyaya dair ahəngləşdirilmiş Avropa statistikasına doğru", 2006-cı il.*

UNECE, Conference of European Statisticians Recommendations for the 2020 Censuses of Population and Housing, ECE/CES/41, New York and Geneva, 2015. */ UNECE "Əhalinin və mənzil fondunun 2020-ci il* üzrə *siyahıyaalınmasına dair Avropa Statistikləri Konfransının tövsiyələri". Nyu York və Cenevrə, 2015-ci il.*

UNECE, Defining and Measuring Circular Migration. Final report of the Task Force on Measuring Circular Migration, UNECE Task Force on Circular Migration, ECE/CES/STAT/2016/5, New York and Geneva, 2016 */ UNECE "Dövri miqrasiyanın müəyyənləşdirilməsi və* ölçülməsi*". Dövri miqrasiyanın* ölçülməsi üzrə İşçi *Qrupun yekun hesabatı. Nyu York və Cenevrə, 2016-cı il.*

United Nations, Recommendations on Statistics of International Migration: Revision 1, United Nations, New York, 1998 */ BMT "Beynəlxalq miqrasiya statistikası* üzrə *tövsiyələrin yenidən baxılmış 1-ci nəşri". Nyu York, 1998-ci il.*

United Nations, Principles and Recommendations for Population and Housing Censuses, Revision 3, ST/ESA/STAT/SER.M/67/Rev.3, Department of Economic and Social Affairs, Statistics Division, United Nations, New York, 2017. */ BMT "*Əhalinin *və mənzil fondunun siyahıyaalınmasına dair prinsiplər və tövsiyələr". Nəşr 3.* İqtisadi *və Sosial Məsələlər* üzrə *Departamentin Statistika* şöbəsi*, Nyu-York, 2017-ci il.*

United Nations, Global compact for safe, orderly and regular migration, A/RES/73/195, Resolution adopted by the General Assembly on 19 December 2018, United Nations, New York, 2018. */ BMT "Təhlükəsiz, nizamlı və qanuni miqrasiya* üzrə *qlobal pakt". 2018-ci il dekabrın 19-da Baş Assambleyanın qəbul etdiyi A/RES/73/195 nömrəli Qətnamə. Nyu-York, 2018-ci il.*

United Nations, Handbook on Measuring International Migration through Population Censuses, Statistical Commission, Department of Economic and Social Affairs, United Nations, New York, 2020. */ BMT "*Əhalinin *siyahıyaalınmaları vasitəsi ilə beynəlxalq miqrasiyanın* ölçülməsi üzrə *təlimat".* İqtisadi *və Sosial Məsələlər* üzrə *Departamentin statistika komissiyası. Nyu York, 2020-ci il.*

United Nations, Final Report on Conceptual frameworks and Concepts and Definitions on International Migration. Task Force 2: Key concepts and definitions related to international migration, United Nations, New York, 2021. / *BMT "Beynəlxalq miqrasiyaya aid konseptual* çərçivələr, *anlayışlar və təriflər haqqında yekun hesabat".* İşçi *qrup 2: beynəlxalq miqrasiya ilə bağlı* əsas *anlayışlar və təriflər. Nyu York, 2021-ci il.*

World Bank, Migration and Remittances Surveys, Microdata Library. / *Dünya Bankı "Mikroməlumatlar kitabxanası, miqrasiya və pul köçürmələri tədqiqatları. Burada mövcuddur: https://microdata.worldbank.org/index.php/catalog/mrs/?page=1&ps=15&repo=mrs. 2023-cü il mayın 18-də baxılıb.*

# Modul 3
# Miqrasiyanın hüquqi aspektləri

## Modulun qısa təsviri

Bu modul miqrasiyanın bir hissəsi olduğu müvafiq beynəlxalq hüquqi çərçivələr, o cümlədən miqrantın miqrasiya etmək hüququ ilə bağlı BMT qurumlarının qəbul etdiyi müxtəlif müqavilələr, konvensiyalar və bəyannamələr haqqında məlumat verir, həmçinin məcburi və könüllü miqrasiya prosesləri iştirakçılarının etimologiyasına aydınlıq gətirir. Burada Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Pakta (MQP), Qaçqınlar üzrə Qlobal Pakta (QQP), eləcə də BMT-nin daxili köçkünlük üzrə Rəhbər Prinsiplərinə xüsusi diqqət ayırmaqla miqrasiya sahəsində mövcud beynəlxalq hüquqi bazanın əsas prinsipləri müzakirə olunur. Modul iştirakçılar tərəfindən müxtəlif beynəlxalq hüquqi çərçivələrə uyğun təhlil üçün bir neçə maraqlı tematik misalı özündə əks etdirir.

| İştirakçılar | Mühazirəçilər/təlimçilər |
|---|---|
| Bu modul hüquq fakültəsinin tələbələri üçün icbaridir, kurikulumda nəzərdə tutulan digər fakültələrin tələbələri üçün isə fəkültətiv fənn ola bilər. | Bu modul üzrə dərslərin beynəlxalq hüquq (insan hüquqları) sahəsində ixtisaslaşmış mühazirəçilər tərəfindən aparılması tövsiyə olunur.<br><br>Hüquqi təhsili olan qonaq mühazirəçi qeyri-akademik dairələr üçün seminarları/təlimləri aparmaq məqsədi ilə dövlət qurumları, beynəlxalq təşkilatlar və ya QHT-lərdən dəvət oluna bilər. |

## Öyrənmə məqsədləri və dəyərləri

**Bu modulun sonunda iştirakçılar:**

- miqrasiyanın beynəlxalq hüquqi sahəsi, prosesin iştirakçıları və onların hüquqları ilə tanış olacaqlar;
- müxtəlif miqrasiya proseslərinin əsas etimologiyaları, habelə beynəlxalq insan hüquqları hüququnda və digər oxşar qanunvericilik çərçivələrində göstərilən iştirakçılarla tanış olacaqlar;
- miqrasiya sahəsində mövcud beynəlxalq hüquqi bazanın əsas prinsipləri haqqında məlumatlı olacaqlar;
- müəyyən etimologiyaların üstünlük və çatışmazlıqlarını və miqrasiya kontekstində istifadəsini, habelə miqrasiya ilə bağlı beynəlxalq hüquqi sənədləri təhlil etməyi bacaracaqlar;
- beynəlxalq hüquqi bazanın müəyyən miqrasiya kontekstləri çərçivəsində, həmçinin Miqrasiya üzrə dərslikdə təqdim olunmuş tematik misallar əsasında tətbiqinə tənqidi yanaşmağı bacaracaqlar.

# Modulun strukturu

### Bölmə 3.1 Qanuni miqrasiya etimologiyası və miqrasiya sahəsində beynəlxalq hüquqi bazanın əsas prinsipləri

3.1.1 Müxtəlif beynəlxalq hüquqi sənədlərdə təsbit edilmiş “Miqrasiya etmək hüququ”
3.1.2 Müxtəlif miqrant qruplarının qanuni etimologiyaları
3.1.3 Miqrasiya sahəsində beynəlxalq hüquqi bazanın əsas prinsipləri

### Bölmə 3.2 Empirik iş/Qiymətləndirmə

3.2.1 Miqrasiya üzrə dərsliyə əsasən bir misalın təhlilindən irəli gələn müəllif məqaləsi yekun tapşırıq kimi.
3.2.2 Qeyri-akademik auditoriya ilə bağlı Miqrasiya üzrə dərsliyə əsasən tematik misalın təhlili üzrə qrup işi.

# Modulun əsas sualları

- Nə üçün hər bir qaçqın miqrantdır, amma hər bir miqrant qaçqın deyil?
- Qaçqın, əlavə himayə altında olan şəxs və məcburi köçkün arasında fərq nədir?
- Bu fəsildə nəzərdən keçirilmiş hansı terminləri ölkənizin miqrasiya üzrə hüquqi bazasına daxil etmək yaxşı olardı?
- Beynəlxalq ictimaiyyət MQP və QQP ilə nəyə nail olmaq istəyir? MQP və QQP-in əsas məqsədləri hansılardır?
- MQP və ya QQP-nin milli suveren hüquqlara hər hansı təsiri vardırmı?
- MQP və QQP tənzimlənməyən miqrasiyaya və tənzimlənməyən vəziyyətdə olan miqrantlara necə təsir edir?

# Müddət və mühazirə metodu

| Modul 3-ün bölmələri | Kursun müddəti | |
|---|---|---|
| | Saat | Dərs |
| Bölmə 3.1 Qanuni miqrasiya etimologiyası və miqrasiya sahəsində beynəlxalq hüquqi bazanın əsas prinsipləri | 2 | 1 |
| Bölmə 3.2 Empirik iş/Qiymətləndirmə | 2 | 1 |
| **Cəmi** | **4** | **2** |

# Modulun indikativ məzmunu

## Bölmə 3.1 Qanuni miqrasiya etimologiyası və miqrasiya sahəsində beynəlxalq hüquqi bazanın əsas prinsipləri

İnsanın miqrasiya etmək və qonaqpərvərlik hüquqlarına malik olub-olmaması, malik olduqda isə, bu hüquqlarla bağlı hansı məhdudiyyətlərin olması məsələsi əsrlər boyu aktualdır. Qeyd olunmalıdır ki, bu, alimlərin çoxu üçün mübahisəli məsələ hesab edilir. Tarix boyu alimlərin çoxu güman edir ki, nə milli, nə də beynəlxalq hüquq istər qonaqpərvərlik, istərsə də miqrasiya etmək hüquqlarını tanıyır və təmin edir. Bununla belə, bəziləri belə qənaətə gəliblər ki, miqrasiya etmək hüququ "əsrlər boyu beynəlxalq hüquqla təsbit olunur". Bu mütəfəkkirlər qrupu miqrasiya hüququnun iki elementi kimi sərbəst hərəkət etmək və ölkəni tərk etmək hüquqlarını təhlil etməyi təklif edir. Belə nəzəriyyəyə görə, miqrasiya etmək hüququ bir ölkəni qanuni şəkildə tərk edib digər ölkəyə qısa və ya daha uzun müddətə gəlmək hüququ (səyahət hüququ) mənasını verə bilər. Hal-hazırda beynəlxalq hüquq bir ölkəni, o cümlədən öz ölkəsini tərk etmək hüququnu tanıyıb qoruyur. Ölkəni tərk etmək hüququ isə bir çox beynəlxalq hüquqi sənədlərdə nəzərdə tutulub, o cümlədən:

- Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (maddə 13.2);
- "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda (MSHBP) (maddə 12.2) və "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında" Beynəlxalq Konvensiyada (BƏMHBK) (maddə 8);
- "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyada (maddə 5);
- "Uşaq hüquqları haqqında" Konvensiyada (maddə 10);
- Birləşmiş Millətlər Təşkilatının "Yaşadıqları ölkənin vətəndaşı olmayan şəxslərin hüquqları haqqında" Bəyannaməsində (maddə 5);
- Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) 4 nömrəli Protokolunda (maddə 2.2).

Bununla belə, bir çox halda ölkədən getmək hüququ ilə ölkənin milli təhlükəsizliyi, ictimai asayişi və (və ya) əhalininn sağlamlığını və (və ya) başqalarının hüquq və azadlıqlarını qorumaq öhdəliyi bir-birinə uyğun gəlməyə bilər ki, bu da hər iki məsələni əks etdirən müəyyən hüquqi çərçivələr arasında ziddiyyətə səbəb ola bilər. Bir tərəfdən bütün suveren dövlətlər öz sərhədlərinin toxunulmazlığını təmin etmək, milli təhlükəsizliyi, ictimai asayişi və əhalinin sağlamlığını və ya mənəvi hüquqları, eləcə də digər hüquq və azadlıqları qorumaq hüququna malikdir. Digər tərəfdən sual yaranır ki, yuxarıda qeyd olunanları nəzərə alaraq, bu dövlətlər gələnləri nə dərəcədə qəbul edə bilər və ya əksinə, onların gəlmə-getməsini məhdudlaşdıra bilərlər. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, müvafiq müqavilə rejimləri əsasında yaradılmış beynəlxalq müqavilə qurumları, yəni Avropa İnsan Hüquqları Məhkəməsi və İnsan Hüquqları Komitəsi bir dövlətdə məskunlaşan, cinayət törətməkdə təqsirli bilinən və (və ya) milli dövlətin ərazisində qanunsuz olan əcnəbilərin ölkədən çıxarılması halları üçün meyarlar müəyyən ediblər. Bu meyarlara əcnəbi tərəfindən törədilmiş hüquqpozmanın xarakterinin və ağırlıq dərəcəsinin, onun (çıxarılacağı) ölkədə olmaq müddətinin, qəbul edən və təyinat ölkələri ilə sosial, mədəni və ailə əlaqələrinin möhkəmliyinin və s. yoxlanılması daxildir.

### Miqrant, məcburi miqrant, o cümlədən ekoloji miqrant

BMqT tərəfindən və müxtəlif beynəlxalq hüquqi sənədlərdə "miqrant" termininin geniş şəkildə qəbul edilmiş tərifinə baxmayaraq, bəzi dövlətlərin qanunvericilik bazaları bunu mütləq qaydada əks etdirmir.

Bunun əvəzinə, onlar öz təriflərinə güvənirlər, məsələn, Azərbaycanda müxtəlif müddətlərdə olma və ya ölkədən getmə ilə bağlı ölkənin Miqrasiya Məcəlləsində "miqrant" deyil "əcnəbi" termininin istifadəsinə üstünlük verilir. O zaman məsələ bunun niyə belə olduğu və bununla əlaqədar toplanmış məlumatlara necə təsir edə biləcəyi ilə bağlı ola bilər. Təəccüblü deyil ki, həm Cənubi Qafqaz, həm də Mərkəzi Asiya ölkələrinin bəziləri öz təriflərini hazırlayıblar və bu onların miqrasiya proseslərindəki unikal mövqelərindən və ya sadəcə olaraq müəyyən sosial, mədəni və siyasi kontekstlərdə nəzərə alınan seçimlərindən qaynaqlana bilər. Belə ki, bir sıra yeni müstəqil dövlətlərin, məsələn, Azərbaycan, Tacikistan və Rusiya qanunvericilərinin beyəlxalq səviyyədə formalaşdırılmış "ölkə daxilində köçürülmüş şəxs" termini əvəzinə "məcburi köçkün" terminindən tez-tez istifadə etməsini burada misal kimi göstərmək olar. Azərbaycan kontekstində bu termin "Azərbaycan Respublikası ərazisində hərbi təcavüz, təbii və texnogen fəlakət nəticəsində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçmüş şəxs" deməkdir (Azərbaycan Respublikasının "Qaçqınlar və məcburi köçkünlər haqqında" 1992-ci il tarixli Qanununun 1-ci maddəsi).

Bundan əlavə, iqlim dəyişikliyi və bunun nəticəsində yaranmış ağır ekoloji vəziyyət səbəbindən bəzi insanlar istehsal prosesini davam etdirə və ümumilikdə ekoloji fəsadların öhdəsindən gələ bilməyərək kənd ərazilərindəki adətən yaşadığı yerlərini tərk etmək məcburiyyətində qalırlar. Halbuki, nə "ekoloji miqrant", nə də "ekomiqrant" terminləri heç bir beynəlxalq müqavilədə yer almır. Bununla belə, BMqT "ekoloji miqrant" və ya "ekomiqrant" terminini bu cür müəyyən edir:

> *"Əsasən ətraf mühitdə baş verərək onların həyatına və ya həyat şəraitinə mənfi təsir göstərən qəfil və artan dəyişikliklər səbəbindən adətən yaşadığı yerləri müvəqqəti və ya daimi tərk etmək və yaxud bu cür seçim etmək məcburiyyəti qarşısında qalan və ölkə daxilində köçən və ya xaricə gedən şəxslər, yaxud da belə şəxslərdən ibarət qruplar."*

Qeyd olunmalıdır ki, artıq bir sıra dövlətlər bu problem barədə məlumatlılığı artırmaq və müvafiq prosesi bəzi hüquqi çərçivələr vasitəsi ilə tənzimləmək üçün tədbirlər görüblər, məsələn 2013-cü ildə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı (BMTİHAK) Gürcüstanın təbii fəlakətlər nəticəsində zərər çəkmiş və köçkün olmuş ailələrin köçürülməsi məsələlərinin tənzimlənməsi üzrə Komissiyasını yaradıb.

## Əməkçi miqrantlar

Əmək/iş səbəblərindən miqrasiya edən insanlar ya "işçi miqrant", ya da "əməkçi miqrant", yaxud da digər oxşar sözlərlə adlandırıldığından onların istər göndərən, istərsə də qəbul edən ölkələrin iqtisadiyyatındakı əhəmiyyətini qətiyyən azaltmadan adlandırmağın düzgün yolunun nədən ibarət olması şübhə altına alınır. Faktiki olaraq, əməkçi miqrantlar dünyadakı miqrant cəmiyyətinin ən böyük hissəsini təşkil edirlər və onların statusu və hüquqları a) beynəlxalq publik hüquqla, yəni BƏT-in əməkçi miqrantlara dair konvensiyaları, BƏMHBK ilə b) regional müqavilələrlə və c) suveren dövlətlərin çoxunun normativ-hüquqi aktları ilə təsbit olunur. Təşkilatdan asılı olaraq "əməkçi miqrant" termininin müxtəlif tərifləri mövcuddur, məsələn, BƏT onu "məşğulluq üçün miqrant" kimi müəyyən edərək bu cür təsvir edir: "məşğulluq üçün miqrant muzdla işləmək üçün bir ölkədən digərinə öz şəxsi hesabına deyil, başqa yolla miqrasiya edən şəxsi bildirir və işçi miqrant qismində ölkəyə qanuni gəlmiş bütün şəxslərə şamil edilir" (BƏT-in 97, 143 nömrəli Konvensiyalarının 11-1-ci maddəsi). BƏMHBK-da verilmiş tərifin əhatə dairəsi daha genişdir və BƏT konvensiyaları ilə əhatə olunmayan müəyyən kateqoriyalı əməkçi miqrantları, xüsusən də özünüməşğul şəxsləri, sərhədyanı işçiləri, "köçəri" (tez-tez ölkədən ölkəyə köçməklə iş yerini dəyişən) işçiləri, layihə işçilərini və müəyyən müddətə konkret məqsədlər üçün işə götürülən işçiləri ehtiva edir.

## Tənzimlənməyən vəziyyətdə olan miqrantlar: insan alveri qurbanları və qaçaqmalçılıq yolu ilə gətirilən miqrantlar

Bu gün müəyyən həssas şəraitə, o cümlədən insan alveri və qaçaqmalçılıq kimi *tələlərə* düşərək tənzimlənməyən vəziyyətlərə məruz qalan çoxlu miqrant var. Belə miqrantlar haqqında məlumat toplamaq olduqca çətindir, halbuki onlar mövcuddur. Onların tənzimlənməyən, qeyri-qanuni və sənədsiz miqrantlar kimi müxtəlif adları və müvafiq tərifləri var ki, bunlardan da bəziləri qanunla təsbit olunur. Bu baxımdan, məsələn, BƏT tənzimlənməyən və ya sənədsiz miqrantın dəqiq tərifini vermir, lakin MDB-nin Qanunsuz miqrasiyaya qarşı mübarizədə əməkdaşlıq haqqında Sazişində “qanunsuz miqrantlar” bu sazişi imzalamış dövlətlərin ərazilərinə gəlmək, ərazilərindən getmək, orada olmaq və ya tranzit qaydalarını pozan üçüncü dövlətlərin vətəndaşları və vətəndaşlığı olmayan şəxslər, habelə digər dövlətlərdən hər hansı birinin ərazisində olmaq qaydalarını pozan üçüncü dövlətlərin vətəndaşları kimi müəyyən edilir. Beynəlxalq publik hüquqa və insan ləyaqəti anlayışına görə, insan qeyri-qanuni (qanunsuz) və qanundan kənar ola bilməz: yalnız onun hərəkətləri belə hesab edilə bilər. Buna görə də “tənzimlənməyən vəziyyətdə olan miqrant” və ya “tənzimlənməmiş statuslu miqrant” terminlərinə üstünlük verilir. Müxtəlif ölkələrin, o cümlədən Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin qanunvericiliyində təsbit edilmiş təriflər və miqranta - müəyyən zəifliklərə məruz qalmış şəxsə insan hüququ yönümlü yanaşma arasında ziddiyyət onlara ictimai yanaşmada problem yarada, habelə stereotipləri qırmaq əvəzinə gücləndirə bilər.

Miqrantların düşdüyü tənzimlənməyən vəziyyətlərdən biri də tərifi Palermo Protokolunda bu cür verilən insan alveridir: “İnsan alveri dedikdə, güc tətbiq etmək hədəsi ilə və ya güc tətbiq etməklə və ya məcburetmə, oğurlama, dələduzluq, aldatma, hakimiyyətdən və ya vəziyyətin zəifliyindən sui-istifadə etməklə, yaxud da digər şəxsə nəzarət edən şəxsin razılığını almaq üçün ödəniş və ya mənfəət şəklində rüşvət verməklə [vasitələr] insanların istismar məqsədi ilə [məqsəd] cəlb edilməsi, daşınması, təhvil verilməsi, gizlədilməsi və ya alınması [hərəkət] başa düşülür. İstismar ən azı digər şəxslərin fahişəliyinin istismarını və ya cinsi istismarın digər formalarını, icbari əməyi və ya xidmətləri, köləliyi, köləliyə bənzər adətləri, asılılıq vəziyyətini və ya orqanların çıxarılmasını nəzərdə tutur.” İnsan alveri və istismarının əlamətləri siyahısında digərləri ilə yanaşı ictimai qarşılıqlı fəaliyyətin məhdud olması və ya ümumiyyətlə olmaması, tibbi xidmətə çıxışın olmaması, iş şəraiti barədə müzakirə aparmaq qabiliyyətinin olmaması, yaşayış yerinin yararsız və ya keyfiyyətsiz olması yer alır. İnsan alveri qurbanlarının çoxu yaşadığı və istismar olunduğu ölkədə hüquqi statusa malik deyillər və insan alverçilərindən asılıdırlar ki, bu da onların kənardan adekvat dəstək və yardım almasına mane olur.

İnsan alveri ilə yanaşı, tərifi Miqrantların sərhəddən qanunsuz keçirilməsinə qarşı BMT Protokolunda bu cür verilən miqrant qaçaqmalçılığı da qeyd olunmalıdır: “Hər hansı bir maliyyə və ya digər maddi mənfəətin birbaşa və ya dolayı əldə olunması məqsədi ilə [məqsəd] istənilən İştirakçı dövlətin ərazisinə, onun vətəndaşı olmayan və ya onun ərazisində daimi yaşamayan hər hansı bir şəxsin qeyri-qanuni daxil olmasının [vasitə] təmin edilməsi [hərəkət].” Hazırda yeni müstəqil dövlətlərin çoxu Palermo Protokolunu və BMT-nin miqrant qaçaqmalçılığına qarşı protokolunu imzalayaraq ratifikasiya edib. Onlar insan alveri və qaçaqmalçılığına qarşı cinayət qanunları və hüquqi çərçivələr hazırlayıb, insan alverinə qarşı mübarizə qurumları yaradıblar.

Miqrasiya prosesinin bütün iştirakçıları, həm fərdlər, həm də ölkələr üçün təhlükəsiz və nizamlı bir proses kimi təmin edilməsinə yönəlmiş bir sıra beynəlxalq hüquqi çərçivələr mövcuddur. Onlardan biri *miqrasiyanın çoxölçülü reallıq olduğunu və onu dövlət siyasətinin yalnız bir sektoru vasitəsi ilə həll etmək mümkün olmadığını* bəyan edən MQP-dir. Deməli, miqrasiya problemləri ilə bağlı qlobal həllər və məsuliyyət tələb olunur. MQP, digər məsələlərlə yanaşı, bu kimi məqsədlər daşıyır: a) Miqrasiya ilə əlaqəli sərhəd idarəçiliyi,

insan qaçaqmalçılığı və alveri, miqrantların sənədləşdirilməsi və inklüziyası, qaytarılması, köçürülməsi və readmissiyası kimi geniş spektrli məsələlərə müvafiq cavab tapmaq; b) Diaspor fəaliyyətini və pul köçürmələrini daha yaxşı idarə etmək və asanlaşdırmaq və c) Yerli, milli və beynəlxalq səviyyədə rəhbər prinsipləri müəyyən etməklə və bu günün və sabahın miqrasiya çağırışlarına cavab verməklə beynəlxalq əməkdaşlığa şərait yaratmaq. Bu Pakt 10 prinsipə, o cümlədən bu sahədə məlumatların və lazımi sübutların toplanması; iştirakçılar üçün təhlükəsiz miqrasiya prosesini təmin etmək üçün dəqiq məlumatların təqdim edilməsi; miqrantların xaricdə layiqli işləməsi üçün ədalətli şəraitin və müntəzəm təminatların yaradılması; miqrasiya sahəsində həssaslıqların aradan qaldırılması və azaldılması; bütün miqrasiya prosesi boyu konsulluq müdafiəsinin və yardımln gücləndirilməsi; miqrasiya məsələlərini yerlərdə həll etmək üçün beynəlxalq və regional əməkdaşlığın möhkəmləndirilməsi və s. prinsiplərə əsaslanır.

Digər buna bənzər alət məqsədləri a) qəbul edən ölkələrin yükünü yüngülləşdirmək, qaçqınlara və yerli icmalara fayda vermək, b) qaçqınların özünə inamını artırmaq, c) üçüncü ölkələrdə həll yollarına çıxışı genişləndirmək və d) təhlükəsizlik və ləyaqətli qayıdış üçün mənşə ölkələrində müvafiq şəraiti dəstəkləməkdən ibarət olan QQP-dir. Qeyd etmək lazımdır ki, BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş QQP onun ayrılmaz hissəsi olan Qaçqınlarla bağlı cavab tədbirləri üzrə kompleks çərçivəni (QTKÇ) ehtiva edir. QQP-də dəstəyə ehtiyacı olan bu kimi sahələr müəyyən edilib: 1) İcazə və qəbul, xüsusilə erkən xəbərdarlıq, hazırlıq və fövqəladə halların planlaşdırılması, təxirəsalınmaz qəbulun təşkili, təhlükəsizlik və mühafizə, qeydiyyat və sənədləşdirmə və s.; 2) Qəbul edən icmaların xüsusən təhsil, mənzil, ərzaq təhlükəsizliyi, qidalanma, enerji və təbii ehtiyatların idarə edilməsi və s. sahələrdə dayanıqlılığını gücləndirmək üçün icma ehtiyaclarının ödənilməsi; 3) Həll yollarının axtarışı və asanlaşdırılması, o cümlədən məcburi miqrasiyanın səbəblərini aradan qaldırmaqla və qaçqınlarla bağlı vəziyyətin başlanğıcından həll yollarını planlaşdırmaqla.

## Bölmə 3.2 Empirik iş/Qiymətləndirmə

### 3.2.1 Miqrasiya üzrə dərsliyə əsasən bir misalın təhlilindən irəli gələn müəllif məqaləsi yekun tapşırıq kimi

Müəllif məqaləsinin hazırlanması rəy əsaslı çalışmadır və Miqrasiya üzrə dərslikdə eyni modul üzrə təqdim olunan bir və ya iki misalın hüquqi təhlilini əhatə etməlidir. Misalların sayı sinfin ölçüsündən asılıdır. Müəllif məqaləsi tələbələrin verdiyi üstünlüklərdən asılı olaraq seçimi üçün nəzərdə tutulan bu kimi iki formada təqdim olunmalıdır: a) verilmiş misalı müvafiq hüquqi baza əsasında müzakirə və təhlil edən videoyazı. Videoyazı (hər bir misal üçün) 10 dəqiqədən çox olmamalıdır və bəzi vizual materialları, məsələn, fotoşəkilləri və digər illüstrasiyaları özündə əks etdirə bilər. Yazı son dərsdən əvvəl müəllimə təhvil verilməlidir; b) şifahi təqdimat, daha doğrusu, son dərs zamanı auditoriyaya müraciət, eynilə, (hər bir misal üçün) 10 dəqiqədən çox olmamalı və işin müvafiq hüquqi baza əsasında təhlili ilə tənqidi yanaşmanı özündə əks etdirməlidir.

Misalın təhlili tələbələrin tənqidi təhlil və düşünmə, şifahi təqdimat etmə və auditoriyaya inandırıcı şəkildə müraciət etmə bacarıqlarına töhfə verəcək.

### 3.2.2 Qeyri-akademik auditoriyada Miqrasiya üzrə dərsliyə əsasən tematik misalın təhlili üzrə qrup işi

Qeyri-akademik auditoriyada misalın təhlili eynilə qalmalıdır, lakin iştirakçı sayından asılı olaraq fərdi yox, qrup işi aparıla bilər. İştirakçıların sayı 10 nəfərdən azdırsa, misalin fərdi qaydada təhlilindən ibarət çalışma

da nəzərdən keçirilə bilər. Auditoriya və təlimçi tərəfindən sualları və müzakirələri çıxmaq şərti ilə hər bir misalın təhlili 10 dəqiqə olmalıdır.

## Təqdimat

Empirik işin qiymətləndirilməsi üçün aşağıdakı şkala tətbiq oluna bilər:

| | |
|---|---|
| Tənqidi təhlil bacarıqları | 60% |
| Ritorika bacarıqları | 20% |
| Çıxışın təşkili | 20% |
| **Qiymətin ümumi faizi** | **100%** |

# Resurslar və əlavə ədəbiyyat


Adeola, R., 'The Legal Protection of Development-Induced Displaced Persons in Africa', African Journal of Legal Studies, Vol. 1, No. 1, 2017, pp. 91-104. / *R. Adeola "Afrikada inkişaf səbəbindən köçkünlərin hüquqi müdafiəsi", Afrika Hüquq Araşdırmaları Jurnalı, 2017-ci il, cild 1, No 1, səh. 91-104.*

Babis, P. et al., Recommendations for the Roadmap to Refugee Integration Policy in Azerbaijan, ICMPD, Prague Process, 2018. / *P. Babis və başqaları "Azərbaycanda qaçqınların inteqrasiya siyasətinə dair yol xəritəsi* üçün *tövsiyələr", MSİBM, Praqa Prosesi, 2018-ci il. Burada mövcuddur: https:// www.pragueprocess.eu/en/migration-observatory/publications/33-reports/168-recommendations-for-the-roadmap-to-refugee-integration- policy-in-azerbaijan*

Barutciski, M., Addressing Legal Constraints and Improving Outcomes in Development-Induced Resettlement Projects. Desk Study, Department for International Development, Refugee Studies Centre, University of Oxford, 2000. / *M. Barutciski "*İnkişaf *səbəbindən köçürülmə layihələrində hüquqi məhdudiyyətlərin aradan qaldırılması və nəticələrin yaxşılaşdırılması", Masaüstü tədqiqat, Beynəlxalq* İnkişaf *Departamenti, Qaçqın Araşdırmaları Mərkəzi, Oksford Universiteti, 2000-ci il.*

Boudin, L.B., 'The Constitutional Right to Travel', Columbia Law Review, Vol. 56 Jan. 1956, pp. 47-75. / *L.B. Boudin "Səyahət etmək* üçün *konstitusiya hüququ", Kolumbiya Hüquq* İcmalı *Jurnalı, cild 56, səh. 47-75, yanvar 1956-cı il.*

Cernea, M. 'Internal refugee flows and development-induced population displacement', Journal of Refugee Studies, Vol. 3, No. 4, pp. 320-349, 1990. / *M. Cernea "Daxili qaçqın axınları və inkişaf səbəbindən* əhali *yerdəyişməsi", Qaçqın Araşdırmaları Jurnalı, 1990-cı il, cild 3, No 4, səh. 320-349.*

Chetail, V., 'Sovereignty and Migration in the Doctrine of the Law of Nations: An Intellectual History of Hospitality from Vitoria to Vattel', European Journal of International Law, Vol. 27, No. 4, 1 November 2016, pp. 901-922. / *V. Chetail "Beynəlxalq hüquq doktrinasında suverenlik və miqrasiya: Vitoriyadan Vattelə qədər qonaqpərvərliyin intellektual tarixi", Avropa Beynəlxalq Hüquq Jurnalı, cild 27, No 4, səh. 901-922, 1 noyabr 2016-cı il. Burada mövcuddur:* https://doi.org/10.1093/ejil/chw059

CIS, Agreements Establishing the Commonwealth of Independent States, 1991. / *MDB "Müstəqil Dövlətlər Birliyinin yaradılmasına dair sazişlər", 1991-ci il. Burada mövcuddur:* https://cis.minsk.by/page/176

CIS, The Agreement on Cooperation of the State Parties of the Commonwealth of Independent States in Fight Against Illegal Migration of 1998. / *MDB "Qanunsuz miqrasiyaya qarşı mübarizədə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin* əməkdaşlığı *haqqında 1998-ci il tarixli saziş". Burada mövcuddur:* https://base.spinform.ru/show_doc.fwx?rgn=4726

CIS, Convention on Legal Status of Migrant Workers and Members of Their Families of the State Parties of the Commonwealth of Independent States, 2008. / *MDB "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin* əməkçi *miqrantlarının və onların ailə* üzvlərinin *hüquqi statusu haqqında 2008-ci il tarixli konvensiya". Burada mövcuddur:* http://www.ilo.org/dyn/natlex/docs/ELECTRONIC/83982/93098/F1842771661/KAZ83982.pdf

Council of Europe/European Court of Human Rights, Guide on the caselaw of the European Convention on Human Rights. Immigration, 31 August 2021. / *Avropa* Şurası/*Avropa* İnsan *Hüquqları Məhkəməsi "Avropa* İnsan *Hüquqları Konvensiyası ilə* əlaqəli *presedent hüququna dair bələdçi.* İmmiqrasiya*", 31 avqust 2021-ci il. Burada mövcuddur:* https://www. echr.coe.int/Documents/Guide_Immigration_ENG.pdf

Council of Europe/Commissioner for Human Rights, Positions on the Right of Migrants in an Irregular Situation, CommDH/PositionPaper (2010)5. Strasbourg, 24 June 2010. / *Avropa* Şurası/İnsan *Hüquqları* üzrə *Komissarlıq "Tənzimlənməyən vəziyyətdə olan miqrantların hüquqları ilə bağlı mövqelər", Strasburq, 24 iyun 2010-cu il. Burada mövcuddur:* https://rm.coe.int/ref/CommDH/PositionPaper(2010)5

European Commission, EMN Asylum and Migration Glossary, n.d. / *Avropa Komissiyası "AMŞ-in sığınacaq və miqrasiya* üzrə *izahlı lüğəti", tarixsiz. Burada mövcuddur:* https:// home-affairs.ec.europa.eu/networks/european-migration-network-emn/emn-asylum-and- migration-glossary_en.

Fundamental Rights Agency, Handbook on European law relating to asylum, borders and immigration, Edition 2020, 2020. / *Fundamental Hüquqlar Agentliyi "Sığınacaq, sərhədlər və immiqrasiya ilə bağlı Avropa hüququna dair məlumat kitabı" 2020-ci il nəşri. Burada mövcuddur:* https://fra.europa.eu/sites/default/files/fra_uploads/fra-2020-handbook-law- asylum-migration-borders-2020-ed_en.pdf

Global Compact for Migration, Global Compact for Safe, Orderly and Regular Migration, 'Intergovernmentally Negotiated and Agreed Outcomes', 2018. / *Miqrasiya* üzrə *Qlobal Pakt - Təhlükəsiz, nizamlı və qanuni miqrasiya* üzrə *Qlobal Pakt, 'Hökumətlər səviyyəsində müzakirə edilmiş və razılaşdırılmış nəticələr", 2018-ci il. Burada mövcuddur:* https://refugeesmigrants.un.org/sites/default/files/180713_agreed_outcome_global_compact_for_migration.pdf

IOM, Glossary on Migration, 2019 / *BMqT "Miqrasiya* üzrə *izahlı lüğəti", 2019-cu il. Burada mövcuddur: https://publications.iom.int/system/files/pdf/iml_34_glossary.pdf.*

OCHA, The Guiding Principles on Internal Displacement, 1998. / *Humanitar Məsələlərin* Əlaqələndirilməsi *Ofisi "Daxili köçkünlük* üzrə *rəhbər prinsiplər", 1998-ci il. Burada mövcuddur:* https://www.internal-displacement.org/sites/default/files/publications/documents/199808-training-OCHA-guiding-principles-Eng2.pdf

OHCHR, Principles and Guidelines, supported by practical guidance, on the human rights protection of migrants in vulnerable situations, 2017. / *BMT*İHAK *"Həssas vəziyyətdə olan miqrantların hüquqlarının müdafiəsi* üzrə *praktiki təlimatlarla gücləndirilmiş prinsiplər və təlimatlar", 2017-ci il. Burada mövcuddur: https://www.ohchr.org/sites/default/files/Documents/Issues/Migration/PrinciplesAndGuidelines.pdf*

United Nations Network on Migration, Regular Pathways for Admission and Stay for Migrants in Situations of Vulnerability, Guidance Note, 2021. / *Birləşmiş Millətlər Təşkilatının Miqrasiya* Şəbəkəsi *"Həssas vəziyyətdə olan miqrantlar* üçün ölkədə *müntəzəm qəbul və olma yolları". Təlimat xarakterli qeyd, 2021-ci il. Burada mövcuddur:* https:// www.ohchr.org/sites/default/files/2022-01/guidance_note_migrants_in_situations_of_ vulnerabilty_2021.pdf

UNODC, Human Trafficking Indicators, n.d. / *BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə* İdarəsi *"*İnsan *alveri indikatorları", tarixsiz. Burada mövcuddur:* https://www.unodc.org/documents/human-trafficking/HT_indicators_E_LOWRES.pdf

Vainomaa, M. and I. Hainzl, What is Trafficking in Human Beings?, Trainer's Manual ICMPD, Prague Process, 2019. */ M. Vainomaa və I. Hainzl "*İnsan *alveri nədir?", Təlimçi* üçün *vəsait, MSİBM, Praqa Prosesi, 2019-cu il. Burada mövcuddur:* https://www.pragueprocess.eu/en/migration- observatory/publications/document?id=192

# Modul 4

# Miqrasiya idarəçiliyi və miqrasiyanın təhlükəsizlik mövzusuna çevrilməsi

## Modulun qısa təsviri

Modul miqrasiyanın iqtisadi, sosial, ictimai və demoqrafik perspektivlərdən təhlükəsizlik mövzusuna çevrilməsi məsələlərinə, eləcə də bu fenomenin müxtəlif səviyyələrdə miqrasiya idarəçiliyi və idarəetmə proseslərinə necə uyğunlaşdığına və cavab reaksiyası verdiyinə diqqət yetirir. Xüsusən keçmişlə müqayisədə nəqliyyat, sosial şəbəkələr, asanlaşdırıcı siyasətlər və digər vasitələr baxımından artan axınlar və miqrasiyaya daha asan çıxış nəzərə alınmaqla miqrasiya ilə bağlı təhlükəsizlik problemləri burada geniş şəkildə müzakirə edilib. Bu modul miqrasiya idarəçiliyi çərçivəsində mövzuları işıqlandırarkən və bununla bağlı regional və dövlət səylərinə toxunarkən potensial nəticələrə əsaslanaraq təhlükəsizlik məsələləri barədə bəzi sübutlarla bəhs edir.

| İştirakçılar | Mühazirəçilər/təlimçilər |
|---|---|
| Bu modul hüquq, sosial-siyasi elmlər, beynəlxalq münasibətlər və jurnalistika fakültələrinin tələbələri üçün icbaridir.<br><br>Kurikulumda nəzərdə tutulmuş digər fakültələrdən olan tələbələr üçün bu, fakültətiv fənn/modul ola bilər. | Beynəlxalq əlaqələr sahəsində təcrübəyə malik və miqrasiya məsələləri ilə bağlı məlumatlı olan müəllim/təlimçi bu modulun həm akademik, həm də qeyri-akademik auditoriya üçün keçirilməsində faydalı olacaq.<br><br>Miqrasiya idarəçiliyi və onun praktiki nəticələri baxımından Azərbaycana dair misal haqqında məlumat verəcək dövlət və ya qeyri-dövlət təşkilatından qonaq mühazirəçi, əlçatanlığından asılı olaraq, bir dərs üçün dəvət olunacaq. |

## Öyrənmə məqsədləri və dəyərləri

**Bu modulun sonunda iştirakçılar:**

- “milli təhlükəsizliyin” nə olduğunu və miqrasiyadan hansı təhlükələrin yarana biləcəyini başa düşəcəklər;
- təhlükəsizliyin sosial, ictimai, demoqrafik və s. kimi müxtəlif aspektlərini fərqləndirəcəklər;

- təhlükəsizləşdirmə fenomeninə aid müasir elmi və bədii ədəbiyyatla və bu məsələyə dövlətlərin müxtəlif yanaşmaları ilə tanış olacaqlar;
- miqrasiya idarəçiliyində müxtəlif regional və beynəlxalq təşkilatların rolu haqqında məlumatlı olacaqlar;
- müxtəlif qurumlar tərəfindən tətbiq edilən miqrasiya idarəetmə üsullarının və onların nəticələrinin tənqidi təhlilini aparmağı bacaracaqlar;
- gələcəyi potensial şəkildə başa düşməklə mövcud mexanizmlər çərçivəsində miqrasiya idarəçiliyi və təhlükəsizlik məsələləri arasında əlaqə ilə bağlı tənqidi düşüncə nümayiş etdirəcəklər.

# Modulun strukturu

## Bölmə 4.1 Miqrasiyanın təhlükəsizlik mövzusuna çevrilməsi

4.1.1 Təhlükəsizlik və nəzəri yanaşmalar
4.1.2 Miqrasiya və cəmiyyətin təhlükəsizliyi, iqtisadi, ictimai və demoqrafik təhlükəsizlik
4.1.3 Miqrasiya və Azərbaycanın milli təhlükəsizliyi

## Bölmə 4.2 Müxtəlif səviyyələrdə miqrasiya idarəçiliyi

4.2.1 Aİ səviyyəsində və İttifaqdan kənarda müxtəlif təşkilatların rolu
4.2.2 Miqrasiya idarəçiliyində diasporun rolu

## Bölmə 4.3 Miqrasiya idarəçiliyi, qloballaşma və təhlükəsizləşdirmə arasında əlaqələr

## Bölmə 4.4 Miqrasiya idarəçiliyi və təhlükəsizləşdirmə məsələləri baxımından qonaq mühazirəçi tərəfindən Azərbaycan misalına dair çıxış/təqdimat

## Bölmə 4.5 Empirik iş/Qiymətləndirmə

4.5.1 Akademik auditoriya üçün yekun tapşırıq kimi rəy sənədinin hazırlanması.
4.5.2 Qeyri-akademik auditoriya üçün təlim nəticələrini qiymətləndirmə üsulu kimi qrup işi

# Modulun əsas sualları

- Milli təhlükəsizlik dedikdə daha çox nə baş düşürsünüz?
- Müasir miqrasiya prosesləri dövlətlərin milli təhlükəsizliyində hansı aspektlərdən qiymətləndirilir?
- Müasir dövrdə təhlükəsizlik və miqrasiya arasındakı əlaqəni necə izah etmək olar? Əsasən hansı amillər miqrasiya ilə bağlı təhlükəsizlik problemlərini gündəmə gətirir?
- Miqrantların təyinat ölkələrindəki daxili siyasi proseslərində rolu nədən ibarətdir?
- Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müvafiq maddələri hansılardır?

- Miqrasiya idarəçiliyində beynəlxalq təşkilatların rolu və əhəmiyyəti nədən ibarətdir?
- Beynəlxalq miqrasiya milli, regional və beynəlxalq səviyyələrdə necə tənzimlənir və tənzimləmə prosesində əsas problemlər hansılardır?
- Miqrasiya siyasətinin effektiv tənzimlənməsi üçün hansı təklif və ideyaları irəli sürmək olar?

# Müddət

| Modul 4-ün bölmələri | Kursun müddəti | |
|---|---|---|
| | Saat | Dərs |
| Bölmə 4.1 Miqrasiyanın təhlükəsizlik mövzusuna çevrilməsi | 2 | 1 |
| Bölmə 4.2 Müxtəlif səviyyələrdə miqrasiya idarəçiliyi | 2 | 1 |
| Bölmə 4.3 Miqrasiya idarəçiliyi, qloballaşma və təhlükəsizləşdirmə arasında əlaqələr | 2 | 1 |
| Bölmə 4.4 Qonaq mühazirəçi tərəfindən (Azərbaycan misalına dair) çıxış/təqdimat | 2 | 1 |
| Bölmə 4.5 Empirik iş/Qiymətləndirmə | Yoxdur | Yoxdur |
| **Cəmi** | **8** | **4** |

# Modulun indikativ məzmunu

## Bölmə 4.1 Miqrasiyanın təhlükəsizlik mövzusuna çevrilməsi

“Milli təhlükəsizlik” anlayışı şəxsiyyətin, cəmiyyətin, dövlətin həyati mənafelərinin daxili və xarici təhdidlərdən qorunması vəziyyəti kimi şərh edilir. Geniş anlamda milli təhlükəsizlik daxili və xarici təhlükələr fonunda yaşamaq və inkişaf etmək qabiliyyəti baxımından dövlətin inkişaf sistemi kimi başa düşülür. “Milli maraq” və “milli təhlükəsizlik” kimi terminlərin hamılıqla razılaşdırılmış tərifi yoxdur. Hazırda “təhlükəsizlik” termini ilə o qədər geniş mövzuları əhatə edirlər ki, çox fərqli məsələlər təhlükəsizlik siyasətinin obyekti kimi şərh edilə bilər. Miqrasiyaya gəldikdə, miqrasiya və təhlükəsizlik arasında qarşılıqlı əlaqəni tədqiq edən araşdırmaçılar miqrasiya proseslərinin dövlətlərin və cəmiyyətlərin sosial, iqtisadi, daxili və ictimai təhlükəsizliyinə (potensial) təsirlərini fərqləndirirlər. Qeyd etmək lazımdır ki, təhlükəsizliyə realistik yanaşma Soyuq Müharibə dövründə xüsusilə dominant yanaşma oldu. Həmin vaxt təhlükəsizlik anlayışı ən ümumi mənasında təhdidlərin olmaması kimi başa düşülürdü. Beynəlxalq təhlükəsizliyə ənənəvi realistik yanaşma ilk növbədə hərbi məsələlərə diqqət yetirirdi. Soyuq Müharibədən sonrakı dövrdə isə təhlükəsizlik tədqiqatları dövlət mərkəzli yanaşmadan uzaqlaşaraq təhlükəsizliyin tərifini bir sıra potensial təhdidləri əhatə edəcək şəkildə genişləndirdi. Simvolik haldır ki, Soyuq Müharibənin başa çatmasından sonra 1992-ci il yanvarın 31-də BMT Təhlükəsizlik Şurasının Sammit Bəyanatında beynəlxalq sülhə və təhlükəsizliyə təhdidlərin hərbi olmayan, iqtisadi, sosial, humanitar, ekoloji qeyri-sabitlik mənbələrdən gələ biləcəyi vurğulanaraq, bu cür mənbələrin təhlükəsizlik fəaliyyət sahəsinə daxil olduğu elan edildi. Həmçinin, bəyannamədə seçkilərin monitorinqi, insan hüquqları və qaçqınların repatriasiyası məsələlərinin Təhlükəsizlik Şurasının beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq səylərinin tərkib hissəsi olduğu bəyan edildi.

Bu sahədə ən tanınmış müəlliflər miqrasiya proseslərinin doğurduğu təhlükəsizlik təhdidləri arasında daha çox miqrasiyanın cəmiyyətlərin təhlükəsizliyi üçün yarada biləcək təhdidləri qabardırlar. Cəmiyyətlərin təhlükəsizliyi konsepsiyasını elmi dövriyyədə tez-tez istifadə edilən ictimai təhlükəsizlik konsepsiyası ilə qarışdırmaq olmaz. İctimai təhlükəsizlik daha çox ictimai asayiş, cəmiyyətlərin birbaşa fiziki təhlükəsizliyi, cəmiyyətin təhlükəsizliyi isə daha çox simvolik normalarla bağlıdır və kifayət qədər mücərrəd, simvolik və subyektiv yanaşmadır. Beynəlxalq miqrasiya ilə əlaqədar olaraq, bu, bir dövlətin üzvlərinin öz mədəni, dil, dini və ya milli kimliklərinə miqrantlar tərəfindən yaradılan təhlükə kimi qəbul etməsinə aiddir. Bu baxımdan, miqrantları qəbul edən ölkənin milli dəyərləri təhlükə altında olan istinad obyektidir. Miron Veynerə görə, miqrasiyanın dövlətin cəmiyyət baxımından təhlükəsizliyi üçün qəbul edilən təhlükəsi obyektiv və universal təhlükə deyil, daha çox qəbul edən dövlətin özünü necə təyin etməsindən asılı olaraq subyektiv təhlükədir, məsələn, bəzi dövlətlər multikulturalizmi arzuolunmaz hesab etsələr də, digər dövlətlər öz mədəni müxtəlifliyi ilə fəxr edə və buna güc kimi baxa bilərlər. Təəssüflər olsun ki, ənənəvi olaraq böyük miqrant kütlələrini qəbul edən və bir zamanlar fərqli mədəniyyətlərin dinc birgə yaşayışını və multikultural dəyərlərin zəruriliyini dövlət səviyyəsində müdafiə edən cəmiyyətlərdə miqrantlara qarşı ictimai rəy getdikcə daha da çox yayılmaqdadır. Müxtəlif dövlətlərin bu məsələyə müxtəlif yanaşmaları var, məsələn, Kanada kimi ənənəvi olaraq miqrant qəbul edən dövlət fərqli milli kimlik anlayışına malik ola bilər və beləliklə, multikulturalizm siyasətini davam etdirərək daha tolerant ola və fərqli dilləri, mədəniyyətləri və dinləri qəbul edə bilər. Bu belə bir faktla əlaqəlidir ki, Kanada immiqrasiyanı öz inkişafı üçün vacib şərt hesab edir və immiqrant ölkəsi olaraq bu ölkə hansısa tarixi, yerli və dominant etnik qrupla assosiasiya edilmir.

Miqrasiyanın dövlətlərin milli maraqlarına potensial təhlükə yaratdığına dair başqa bir arqument onun ölkələrin iqtisadiyyatlarına təsiridir. Cəmiyyət və iqtisadi təhlükəsizlik bir-biri ilə sıx bağlıdır, çünki immiqrantların fərqli görünüşlərinə görə “digərləri” kimi qəbul edilməsi əslində çox vaxt immiqrantların gəldiyi ölkənin iqtisadiyyatına necə təsir etməsi düşüncəsindən doğur. Miqrasiya həm qəbul edən, həm də mənşə ölkəsinin iqtisadiyyatına əhəmiyyətli təsir göstərməkdədir. Bu, daha çox “beyin axını” və “beyin qazancı” anlayışları ilə bağlıdır və iddia olunduğu kimi birincisi mənşə ölkələri, ikincisi isə təyinat ölkələri üçün nəticə verir. Belə ki, ölkələr emiqrasiya yolu ilə yüksək ixtisaslı işçilərini itirə bilsələr də, geri qayıdış miqrasiyası prosesində çox vaxt daha yüksək bacarıqlara malik olan çoxlu sayda insanı geri gətirirlər. Miqrantlar, xüsusən də geri qayıdanlar evlərinə başqa aktivlər gətirirlər, məsələn öz ölkəsində hələ geniş yayılmayan yeni biznes ideyalar/metodlar/məlumatlarla tanışlığı, xaricdə əldə edilən əlaqələri, müxtəlif mədəniyyətlər, dillər və insanlarla təmasdan dərin anlayışı və s. Digər tərəfdən isə, potensial geri qayıdanlar vətənlərində müvafiq əmək şəraiti, əmək standartları, əldə edilmiş bacarıqlara uyğun sahələr və sosial təminat olmadığına görə heç də həmişə geri qayıtmırlar. Beləliklə, “beyin axını” tendensiyası bəzən təsvir olunduğu qədər birmənalı deyil. Bundan əlavə, iqtisadiyyata təsir baxımından pul köçürmələri mühüm rol oynayır və tədqiqatların çoxu göstərir ki, məhz pul köçürmələri dünyada yoxsulluğun aradan qaldırılmasına və iqtisadi inkişafa müsbət təsir göstərir. Belə ki, inkişaf etməkdə olan ölkələrin çoxunda pul köçürmələri yoxsulluq həddinin altında yaşayan əhalinin faizini azaldıb.

Digər arqumentə görə, miqrasiya əmək bazarına təsiri baxımından qəbul edən ölkənin iqtisadi təhlükəsizliyinə təhdid yaradır. E. Gild bəzi əsas sualları vurğulayaraq bu problemə aydınlıq gətirməyə çalışır: Güclü iqtisadiyyatlarda əməkçi miqrantlar maaşları həqiqətən aşağı salırmı? Güclü iqtisadiyyatda miqrantlar yerli işçilərin iş yerlərini tuturlarmı? İctimai rəydə adətən miqrantlara görə qəbul edən ölkədə əmək haqlarının azalması, yerli əməkçilərin iş yerlərini itirməsi, işçi qüvvəsi təklifinin artması səbəbindən iqtisadi şəraitin pisləşməsi fikirləri səsləndirilir. Lakin bu cür düşüncələr empirik və elmi faktlara deyil, subyektiv iddialara əsaslanır. Üstəlik, bəzi iqtisadçılar çox vaxt miqrasiyanın miqrantları qəbul edən dövlətdə məşğulluq səviyyəsinə müsbət təsir göstərdiyi iddiasını da irəli sürürlər. Beləliklə, miqrantların yerli əhalinin əmək təhlükəsizliyini təhdid etməsi, maaşları aşağı salması və işsizliyi artırmasına dair çox

yayılmış inancın əksinə olaraq, miqrasiya məşğulluq imkanlarını artıra və qəbul edən ölkənin iqtisadiyyatını əslində yaxşılaşdıra bilər.

Bununla yanaşı, çox vaxt immiqrasiya ölkələrin daxili təhlükəsizliyinə və ya ictimai asayişinə də təhdid mənbəyi kimi göstərilir. Daxili təhlükəsizliyə təhdid qismində immiqrasiya anlayışı 1980-ci illərdən daha çox qabardılır. Bəzi ekspertlər miqrantları qəbul edən dövlətin daxili təhlükəsizliyini qorumaq üçün immiqrasiya siyasətinin məhdudlaşdırılması fikrini dəstəkləyir, məsələn, kanadalı Daniel Stoffman iddia edir ki, Kanadaya həddindən çox miqrant gəldiyinə görə hər yeni gələn şəxs diqqətlə yoxlanıla bilməz, buna görə də ölkəyə təhlükəli insanlar daxil ola bilər. Stoffmana görə, arzuolunmaz immiqrantların qarşısını almağın ən təsirli yolu immiqrantların illik axınını azaltmaq olardı. Terrorizm, şübhəsiz ki, bütün dünyada dövlətlərin daxili təhlükəsizliyi üçün real təhlükə olsa da, onun immiqrasiya ilə əlaqəsi elmi araşdırmalarla şübhə altına alınır, məsələn, Maria Sauksun İspaniyada immiqrasiya və terrorizmlə bağlı araşdırmasına əsaslanaraq tənzimlənməyən miqrasiya və terrorizm arasında əlaqənin obyektiv deyil, əsassız və ya uydurulmuş bir ehtimal olduğu göstərilir. Sauks mənəvi panika nəzəriyyəsini əsas götürərək terrorizm təhlükəsinin bir qrup insanların müəyyən qrup insanları günahlandırmasına, onları düşmən kimi etiketləməsinə və “biz”lə “onlar” arasında parçalanma yaratmasına səbəb olduğunu qeyd edir. Miqrasiya terrorizmlə əlaqələndirildiyi kimi, bəzən cinayətkarlığın artması ilə də əlaqələndirilir və miqrasiyanın ictimai asayişə təhdid kimi qəbul edilməsinə səbəb olur. Bir çox halda heç bir əmək və sosial təminatları olmadığından, tənzimlənməyən miqrantların yaşamaq üçün etnik həmrəylik mexanizmlərindən istifadə etməyə məcbur olurlar. Bu, mütəşəkkil cinayətkar qruplar və qapalı fəaliyyət göstərən etnik qurumların formalaşmasına gətirib çıxara bilər.

Demoqrafik təhlükəsizlik xarici amilin əhəmiyyətli təsiri olmadan əhalinin təkrar istehsalı üçün kifayət edən və dövlətin geosiyasi maraqları üçün insan resurslarını təmin edən demoqrafik proseslərin vəziyyəti kimi təqdim edilə bilər. Demoqrafik təhlükəsizlik əhalinin öz yaş, cins və etnik parametrlərinə görə fəaliyyət göstərməsi və inkişafı, onun bütövlüyünün, müstəqilliyinin, suverenliyinin təmin edilməsindən və mövcud geosiyasi statusunun qorunub saxlanmasından ibarət olan dövlətin milli maraqları ilə əlaqələndirilməsidir. Bu növ təhlükəsizliyin daxili tərəfi sağ qalma, əhalinin azalması, degenerasiya, yox olma, özünü qoruma, özünü təmin edən çoxalma, demoqrafik inkişaf, demoqrafik böhran, depopulyasiya və s. kimi təriflərdə ifadə olunur. Hazırda əhəmiyyətli sayda miqrant qəbul edən ölkələrin çoxu demoqrafik təhlükəsizlik baxımından çətin seçim qarşısında qalıblar. Ya onlar təbii azalan yerli əhalini əvəz etmək və iqtisadi inkişafını müəyyən səviyyədə saxlamaq üçün miqrantları qəbul etməlidirlər, ya da əhalinin yekcinsliyini qorumağı əsas tutaraq miqrantları qəbul etmək əvəzinə əhalisinin və iqtisadi gücünün azalması reallığı ilə barışmalıdırlar. Bəzi Avropa ölkələrində miqrantların yerli əhaliyə nisbətdə faiz dərəcəsində dəyişikliyin həmin dövlətlərin “demoqrafik təhlükəsizliklərini təhdid altına” salması ətrafında müzakirələr və bu məsələnin daxili siyasi mübarizə mövzusuna çevrilməsi müasir milli dövlət, etnik kimlik, milliyətçilik və vətəndaş milliyyətçiliyi kimi mövzuları diqqət mərkəzinə gətirir. Bildiyimiz kimi, müasir liberal cəmiyyətlərdə vətəndaşlıq anlayışı etno-mərkəzçi deyil, azadlıq, tolerantlıq, bərabərlik, fərdi hüquqlar kimi ənənəvi liberal dəyərlərə əsaslanan, dinindən, irqindən və etnik mənşəyindən asılı olmayaraq vətəndaş millətçiliyi kimi inklüziv yanaşmanı nəzərdə tutur. Beləliklə, böyük miqrant kütlələrini qəbul edən bəzi ölkələrdə etnik tərkibin dəyişməsinin demoqrafik təhdid kimi göstərilməsi liberal vətəndaş milliyyətçiliyi konsepsiyasını və müxtəlif milli dövlət anlayışlarını tarixi sınaq qarşısında qoymaqdadır.

SSRİ-nin dağılmasından sonra müstəqilliyini bərpa edən Azərbaycan və postsovet məkanında digər yeni müstəqil dövlətlər beynəlxalq miqrasiya axınlarına yol açdılar ki, bu da daha çox iqtisadi, təhsil və digər imkanlar yaratdı. Lakin bu dövlətlər insan alveri və insan qaçaqmalçılığı üzrə ixtisaslaşmış qlobal cinayət şəbəkəsinin yaxın maraq dairəsinə də çevrildi. 1991-ci ildən sonra keçmiş SSRİ-nin daxili və xarici sərhədlərindən miqrantların qanunsuz keçirilməsi üçün çoxsaylı kanallar yarandı. Keçmiş Sovet ölkələri

ərazisində müxtəlif münaqişələr, cinayətkarlıq hallarının artması və ağırlaşan iqtisadi vəziyyət milyonlarla insanın müxtəlif istiqamətlərdə axınlarına səbəb oldu. 1991-ci ildən sonra Azərbaycan ərazisi qadın və uşaqların cinsi istismarı ilə məşğul olan müxtəlif beynəlxalq mütəşəkkil cinayətkar qrupların diqqət mərkəzinə çevrildi. Bu məsələnin öhdəsindən gəlmək üçün Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə haqqında" 28 iyun 2005-ci il tarixli Qanununun 8-ci maddəsinə əsasən Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi yaradıldı. İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planında göstərilən vəzifələrin səmərəli icrası, insan alveri qurbanlarının təhlükəsizliyinin təmin edilməsi, onlara peşəkar yardımın göstərilməsi, insan alverinə qarşı mübarizə sahəsində məlumatların vahid mərkəzdə cəmlənməsi və qorunması, insan alverinə qarşı mübarizənin xüsusi təlim keçmiş peşəkar polis əməkdaşları və lazımi avadanlıqla təchiz edilmiş polis qurumu tərəfindən həyata keçirilməsi bu idarəyə həvalə edilib.

## Bölmə 4.2 Müxtəlif səviyyələrdə miqrasiya idarəçiliyi

Müasir siyasi məkanda hökumət və cəmiyyətin yanaşması miqrasiya siyasətinin səmərəli təşkilində mühüm rol oynayır, bu isə öz növbəsində dövləti transmilli və beynəlxalq təşkilatlarla tandemdə miqrasiya siyasəti və idarəçiliyi sahəsində islahatlara və əməkdaşlığa sövq edir. Beynəlxalq miqrasiya milli, regional və qlobal inkişaf və siyasət gündəliklərində özünü daha qabarıq şəkildə büruzə verdikcə, effektiv miqrasiya idarəçiliyinə ehtiyac artır. BMT-nin 1975-ci ildə təsdiq etdiyi Dünya Əhalisinə dair Fəaliyyət Planında beynəlxalq miqrasiya idarəçiliyi ilə bağlı tövsiyələr arasında aşağıdakı ideyalar diqqəti cəlb edir:

- Hökumətlər və beynəlxalq təşkilatlar könüllü beynəlxalq yerdəyişmələrə şərait yaradır.
- Beynəlxalq miqrasiya idarəçiliyi siyasətlərini uyğunlaşdırmaq üçün hökumətlər ikitərəfli və ya çoxtərəfli məsləhətləşmələr keçirməyə təşviq olunur.

2013-cü ildə BMT-nin Baş katibi səkkiz prinsipi özündə əks etdirən Miqrasiyaya dair Fəaliyyət Planını elan etdi. Ənənəvi olaraq, bu fəaliyyət planı bir çox BMT agentliyinin, məsələn, BƏT, BMTİP, UNICEF və BMTQAK-ın məsuliyyət daşıdığı sektorları birləşdirir. Fəaliyyət planı ardıcıl yanaşmanın hazırlanması məqsədi ilə miqrasiya idarəçiliyi potensiallarını BMT sistemi ilə birləşdirmək üçün ilk cəhdlərdən biri olduğundan əhəmiyyətlidir. İnstitusional olaraq qlobal miqrasiya idarəçiliyində yaxından iştirak edən bir neçə beynəlxalq təşkilat mövcuddur.

Miqrasiya idarəçiliyi ilə məşğul olan bir sıra beynəlxalq təşkilatlar var ki, öz missiyaları ilə bütün dünya ölkələrində təmsil olunurlar. İlk olaraq Avropadakı Miqrantların Yerdəyişməsi üzrə Müvəqqəti Hökumətlərarası Komitə kimi tanınan və İkinci Dünya Müharibəsindən sonra Avropadakı məcburi köçkünlərin çoxunu köçürməyə çalışan Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) 1951-ci ildə yaradılıb. Nəhayət, bir neçə islahatdan sonra, 1989-cu ildə bu təşkilat BMqT adlandırılıb. BMTQAK bütün dünyada qaçqınların məsələləri ilə məşğul olmaqla yanaşı vətəndaşlığı olmayan şəxslər və məcburi köçkünlər kimi digər həssas əhali qrupları ilə də işləyir.

BMT-yə üzv dövlətlərə effektiv, zamana uyğun və əlaqələndirilmiş ümumsistem dəstəyin göstərilməsini təmin etmək üçün BMT-nin Miqrasiya Şəbəkəsi yaradılıb. Bu şəbəkə öz mandatını həyata keçirərkən miqrantların və onların təyinat, mənşə və tranzit yerlərindəki icmalarının hüquqları və rifahını prioritetləşdirir. BMT agentlikləri ilə yanaşı, beynəlxalq miqrasiya idarəçiliyində əhəmiyyətli rol oynayan digər hökumətlərarası qurumlar da mövcuddur, məsələn, 19 ölkənin üzv olduğu və BMT-də müşahidəçi statusuna malik MSİBM bu cür beynəlxalq təşkilatlardandır.

Regional səviyyəyə gəldikdə, Aİ daxilində miqrasiya idarəçiliyinə diqqət yetirmək maraqlı olardı. Aİ daxilində vətəndaşların və işçi qüvvəsinin hərəkət azadlığı regional inteqrasiyalı birlik çərçivəsində beynəlxalq miqrasiya idarəçiliyinin ən heyrətamiz nümunəsidir. 2015-ci ildən etibarən Aİ dövlətləri Avropaya qaçqın axınının öhdəsindən gəlmək üçün ümumi yanaşma və ardıcıl siyasət hazırlamağa cəhd edərək dəfələrlə görüşüblər.

Son illərdə miqrantların və diasporun mənşə və təyinat ölkələrində dayanıqlı inkişafa verdiyi töhfələr 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi, Qaçqın və Miqrantlar haqqında Nyu-York Bəyannaməsi və Miqrasiya və İnkişaf üzrə Qlobal Forum sammitləri tərəfindən tanınıb. Diasporlar “miqrasiya təcrübəsi və mənşəyi əsasında real və ya simvolik identiklik və mənsubiyyət hissi formalaşan miqrantlardır və ya miqrant nəsilləridir. Onlar öz ölkələri və bir-birləri ilə ortaq tarix, identiklik və ya təyinat ölkəsində qarşılıqlı təcrübələr vasitəsi ilə əlaqə saxlayırlar.” Diaspor inkişaf üçün dəyərli mənbə olmaqla, müxtəlif səviyyələrdə miqrasiya idarəçiliyini formalaşdırır. Öz vətənlərində diasporlar maddi töhfələri ilə yanaşı, innovasiyaları, öyrənmə proseslərini və vətəndaşların iştirakını inkişaf etdirməyə kömək edə bilərlər. Bundan əlavə, onlar, məsələn, inkişaf proqramlarının formalaşdırılmasında iştirak etməklə, miqrantların maraqlarını təmsil etməklə və ya mənşə ölkəsi ilə qarşılıqlı əlaqə və münasibətləri asanlaşdırmaqla təyinat ölkələrində də həlledici rol oynaya bilərlər. Miqrasiya idarəçiliyində effektiv diaspor təcrübələrinin siyahısı aşağıda verilir.

- Dövlətlər və diasporlar arasında məşvərət mexanizmlərinin, tərəfdaşlığın və əməkdaşlığın təşviqi;
- Diasporun miqrasiya proseslərində və miqrasiya siyasətinin hazırlanmasında iştirakı;
- Diasporun doğma şəhərlər assosiasiyaları və miqrant şəbəkələri kimi icma əsaslı təşəbbüslərə dəstəyi;
- Öz vətənləri üçün bilik mübadiləsi şəbəkələrinin diaspor üzvləri arasında inkişafı və təşviqi;
- Diasporları öz vətənlərində iştiraka təşviq etmək üçün kommunikasiya və məlumat kanallarının yaradılması və dəstəklənməsi, məsələn, konsulluq yardımı, səsvermə və investisiya məqsədi ilə veb-saytları reklam imkanları ilə təmin etməklə.

Diasporların və ya transmilli icmaların oxşar və ya müttəhid qruplar olmadığını qəbul etmək olduqca vacibdir. Onlar geniş spektrdə iqtisadi, sosial və etnik xarakterisitkalara görə bir-biri ilə kəsişir. Beynəlxalq miqrasiya ilə yanaşı, diasporun iştirakı ayrı-ayrı dövlətlərdə fərdlərin sosial inteqrasiyasına, fəaliyyətinə və inkişafına qarşılıqlı təsir göstərən sosial-iqtisadi rifahın təməlində dayanır.

## Bölmə 4.3 Miqrasiya idarəçiliyi, qloballaşma və təhlükəsizləşdirmə arasında əlaqələr

Qloballaşma beynəlxalq miqrasiya ilə ayrılmaz şəkildə əlaqəlidir. İnsanların beynəlxalq miqrasiyası davam edən qloballaşma prosesinin mərkəzində yer alır. Miqrasiyanın qloballaşması qaçılmaz olaraq fayda və zərər verdiyi üçün təhlükəsizləşdirmə məsələlərini də ön plana çıxarır. Öz növbəsində, qloballaşan miqrasiya sabitliyə, təhlükəsizliyə və asayişə daha çox diqqət yetirməyi tələb edir. Qloballaşma həm daxili miqrasiyaya, həm də beynəlxalq yerdəyişmələrə təsir edir. Qloballaşmanın ən çox görünən və əhəmiyyətli aspektlərindən biri artan miqrasiyadır: daha yaxşı iş imkanları və həyat tərzi axtarışında ölkə daxilində və sərhədlərdən keçməklə yerdəyişmələr edən insanların sayı getdikcə artır. Bundan əvvəl müzakirə olunduğu kimi, adətən miqrasiya problem kimi qəbul edilsə də, uzunmüddətli inkişafa töhfə verir. Miqrasiya diasporlar arasında transmilli mikroiqtisadi əlaqələri gücləndirməklə dünya iqtisadiyyatının qloballaşmasına şərait yaradır. Belə ki, diaspor üzvləri tərəfindən pul köçürmələri və birbaşa xarici investisiyalar xeyli artıb. Eyni zamanda, beynəlxalq miqrasiya malların, xidmətlərin sürətli axını və mübadiləsi, beynəlxalq ticarət və

dayanıqlı iqtisadi inkişaf üçün şərait yaradır, digər tərəfdən isə immiqrasiya liberal hökumətlər üçün kritik problem yaradır.

Danılmaz bir faktdır ki, milli/beynəlxalq təhlükəsizlik milli dövlətlərin xarici siyasət gündəliyində ən mühüm mövzudur və burada daxili və xarici siyasətə aid təhlükəsizlik məsələləri bir-birini tamamlamalıdır. Peter Brimelou (1995) və Patrick C. Byukenen (2006) kimi polemistlər ağdərili olmayan immiqrantların qərb cəmiyyətlərinə axınını liberal demokratiyaların sabitliyini poza biləcək mədəni təhlükə hesab edərək, aşkar mədəni və irqi çalarlı təhlükəsizlik iddiasını irəli sürürlər. Lakin, siyasi realizm nöqteyi-nəzərindən bu günədək miqrasiyaya ən mürəkkəb münasibət Miron Veyner tərəfindən göstərilib. Belə ki, o, yeni müstəqil dövlətlərin legitimliyinin son dərəcə kövrək olduğu cənub yarımkürəsinə qaçqın gəlişinin təsiri nəticəsində sabitliyin pozulacağını qətiyyətlə bildirirdi. Veyner öz arqumentini cənubdan şimala və şərqdən qərbə miqrasiya mövzusunu əhatə edəcək şəkildə genişləndirərək, hər bir cəmiyyətin əcnəbiləri qəbul etmək üçün məhdud imkanlara malik olduğunu fərz edirdi (sabiq Fransa prezidenti Fransua Mitteran bunu “tolerantlıq astanası” adlandırırdı) və Qərbi Avropadakı ksenofobik reaksiyaya nəzarətsiz miqrasiyanın təhlükəsizliyə yaratdığı təhdid misalı kimi istinad edirdi. Bununla bağlı Veyner miqrantların ölkəyə gəlməsi və ölkədən getməsinə dair bu kimi 8 növ rejimi təklif edirdi: *sərbəst gəlmə rejimi, təşviqedici gəlmə rejimi, seçimli gəlmə rejimi, qadağanedici gəlmə qaydaları, məhdudiyyətli getmə rejimi, seçimli getmə qaydaları, sərbəst getmə qaydaları,* ölkədən çıxarılmaqla *getmə qaydaları.*

## Bölmə 4.4 Miqrasiya idarəçiliyi və təhlükəsizləşdirilmə məsələləri baxımından qonaq mühazirəçi tərəfindən Azərbaycan misalına dair çıxış/təqdimat

Akademik öyrənmə şəraitində sonuncu dərs zamanı, qeyri-akademik mühitdə isə təlimin/seminarın son günü ərzində qonaq mühazirəçinin iştirakı təşkil edilməlidir. Qonaq mühazirəçi ya miqrasiya idarəçiliyi ilə məşğul olan dövlət orqanlarından, ya da miqrasiya ilə əlaqəli məsələlərlə məşğul olan beynəlxalq/regional/yerli təşkilatlardan ola bilər. Əgər arzu olunandırsa, o, bu sahədə bilikli müstəqil tədqiqatçı da ola bilər. Mühazirə bundan əvvəl kurikulumla əhatə olunmuş və dərslikdə müzakirə edilmiş qlobal yanaşmalar və nəzəri mülahizələri nəzərə alaraq Azərbaycanda miqrasiya idarəçiliyi və təhlükəsizləşdirilmə məsələlərinə diqqət yetirməlidir. Həmçinin, mühazirə zamanı müzakirələr və sual-cavab bölməsi də daxil olmaqla bir akademik dərsdə keçirilməli olan prezentasiyaya da istinad edilə bilər. Qeyri-akademik öyrənmə mühitində qonaq mühazirəçi tərəfindən mühazirə/prezentasiya müddətinin müəyyənləşdirilməsi zamanı iştirakçıların ehtiyacları və təcrübəsi nəzərə alınmalıdır.

## Bölmə 4.5 Empirik iş/Qiymətləndirmə

4.5.1 Akademik auditoriya üçün yekun tapşırıq dərs üçün təyin edilmiş, lakin istifadə olunmamış ədəbiyyatlardan birinə əsaslanan rəy sənədinin hazırlanmasından ibarət olmalıdır. Rəy sənədi, müvafiq ədəbiyyat siyahısını çıxmaq şərti ilə, 5 səhifə olmalıdır, “APA” formatından istifadə etməklə “12 pt” ölçüsündə “Times New Roman” şriftilə yazılmalıdır. Bu sənəd seçilmiş ədəbiyyatı (məqaləni, kitab fəslini və s.) əks etdirən təhlilin xülasəsi olaraq müəlliflə razılaşan və razılaşmayan məqamları və aydın şəkildə ortaya qoyulmuş arqumentasiyanı təsvir etməlidir. Rəy sənədini son təqdimetmə tarixindən 3 həftə əvvəl mühazirəçi tərəfindən ədəbiyyat siyahısı verilməlidir ki, tələbələr bu sənəd üçün əsas götürəcəyi ədəbiyyatı seçə bilsinlər. Bu, dərsin hansı dildə keçirilməsindən asılı olaraq yaxşı akademik Azərbaycan/ingilis dili biliklərinə malik tələbələrin tənqidi düşünmə və analitik bacarıqlarını hədəfləyən fərdi tapşırıqdır.

4.5.2 Qeyri-akademik auditoriyada kurikulumun "Modulun əsas sualları" başlığı altında qeyd olunmuş 2 bəndi/sualı əhatə edən qrup müzakirəsinə 20 dəqiqə vaxt ayrılmalıdır. Qrup müzakirəsi seminar/təlim zamanı daha geniş auditoriyaya və ya təlimçiyə məruzə edilmədən daxili müzakirə xarakteri daşımalıdır. O, müxtəlif ideyalar və fikirlər üzərində aparılan beyin həmləsinə, bunun nəticəsində əldə olunmuş düşüncələrə, müsbət və mənfi cəhətlərin təhlilinə və qrup işi zamanı hasil edilmiş nəticələrə əsaslanmalıdır.

Akademik işin/rəy sənədinin qiymətləndirilməsi üçün aşağıdakı şkala tətbiq oluna bilər:

| | |
|---|---|
| Tənqidi düşüncə və analitik bacarıqlar | 80% |
| Rəy sənədinin təşkili, məntiqi və formatı | 10% |
| Azərbaycan/ingilis dillərində akademik yazı bacarıqları | 10% |
| **Qiymətin ümumi faizi** | **100%** |

# Resurslar və əlavə ədəbiyyat


Adamson, F.B., ‘Crossing Borders: International Migration and National Security’, International Security, Vol. 31, No. 1, 2006, pp. 165-199. / *F. B. Adamson “Sərhədkeçmə: beynəlxalq miqrasiya və milli təhlükəsizlik”, Beynəlxalq Təhlükəsizlik Jurnalı, 2006-cı il, cild 31, No 1, səh. 165-199.*

Adler, E. (1997). Seizing the middle ground: Constructivism in world politics. European journal of international relations, 3(3), 319-363. / *E. Adler “Ortaq məxrəc axtarışında: dünya siyasətində konstruktivizm”, Avropa Beynəlxalq Münasibətlər Jurnalı, 1997-ci il, 3(3), səh. 319-363.*

Ayala, L., ‘Modern day slavery: How immigration laws lure and trap undocumented workers’, The Hill, 12 August 2020. / *L. Ayala “Müasir köləlik: immiqrasiya qanunları sənədsiz miqrantları necə cəlb edərək tələyə salır”, The Hill saytı, 12 avqust 2020-ci il. Burada mövcuddur:* https://thehill.com/changingamerica/opinion/511669-modern-day-slavery-how-immigration-laws-lureand-trap-undocumented/. *2023-cü il noyabrın 7-də baxılıb.*

Betts, A., & Kainz, L. (2017). The history of global migration governance. Refugee Studies Centre, Oxford Department of International Development, University of Oxford. / *A. Betts və L. Kainz “Qlobal miqrasiya idarəçiliyinin tarixi”, Qaçqın Araşdırmaları Mərkəzi, Oksford Universitetinin Beynəlxalq İnkişaf Fakültəsi, 2017-ci il.*

Bourbeau, P. (2011). The securitization of migration: A study of movement and order. Taylor & Francis. / *P. Bourbeau “Miqrasiyanın təhlükəsizləşdirilməsi: yerdəyişmə və nizam tədqiqatı”, Taylor & Francis nəşriyyatı, 2011-ci il.*

Bleich, E., ‘Race Policy in France’, Brookings Institution, 1 May 2001. / *E. Bleich “Fransada irqi siyasət”, Brookings İnstitutu, 1 may 2001-ci il. Burada mövcuddur:* https://www.brookings.edu/articles/race-policy-in-france. *2023-cü il noyabrın 7-də baxılıb.*

Bose, P. and E. Lunstrum, ‘Environmentally Induced Displacement and Forced Migration, Refuge’, Canada’s Journal on Refugees, Vol. 29, No. 2, Centre for Refugee Studies, York University, 2012. / *P. Bose və E. Lunstrum “Ekoloji yerdəyişmə və məcburi miqrasiya, sığınacaq”, Kanadanın Qaçqınlar Jurnalı, cild 29, No 2, Qaçqın Araşdırmaları Mərkəzi, York Universiteti, 2012-ci il.*

Brubaker, R., Citizenship and Nationhood in France and Germany, London and Cambridge, Massachusetts, Harvard University Press, 1994. / *R. Brubaker “Fransa və Almaniyada vətəndaşlıq və dövlətçilik”, London və Kembric, Massaçusets, Harvard Universiteti Nəşriyyatı, 1994-cü il.*

Buzan, B., ‘New Patterns of Global Security in the Twenty-first Century’ International Affairs, Vol. 67. No. 3., 1991, pp. 431-451. / *B. Buzan “İyirmi birinci əsrdə qlobal təhlükəsizliyin yeni modelləri”, Beynəlxalq İşlər Jurnalı, cild 67, No 3, səh. 431-451, 1991-ci il. Burada mövcuddur:* https://academic.oup.com/ia/article-abstract/67/3/431/2406749. *2023-cü il noyabrın 7-də baxılıb.*

Castles, S. (1998). Globalization and Migration: Some Pressing Contradictions. International Social Science Journal, 156, 179-86. / *S. Castles “Qloballaşma və miqrasiya: bəzi aktual ziddiyyətlər”, Beynəlxalq Sosial Elmlər Jurnalı, 1998-ci il.*

Chomsky, A., They Take Our Jobs!: And 20 Other Myths About Immigration, Boston, Beacon Press, 2007, pp. 7-8. / *A. Chomsky "Onlar iş yerlərimizi əlimizdən alırlar!: və immiqrasiya haqqında 20 digər mif", Boston, Beacon Nəşriyyatı, səh. 7-8, 2007-ci il.*

Choucri, N., 'Migration and Security: Some Key Linkages', Journal of International Affairs, Vol. 56, No. 1, 2002, pp. 97-122. / *N. Choucri "Miqrasiya və təhlükəsizlik: bəzi əsas əlaqələr", Beynəlxalq İşlər Jurnalı, cild 56, No 1, səh. 97-122, 2002-ci il.*

Crépeau, F., Delhine, N. and I. Atak, 'International Migration: Security Concerns and Human Rights Standards', Transcultural Psychiatry, Vol. 44, No. 3, 2007, pp. 311-337. / *F. Crépeau, N. Delhine və I. Atak "Beynəlxalq miqrasiya: təhlükəsizlik problemləri və insan hüquqları standartları", Transkultural Psixiatriya Jurnalı, cild 44, No 3, səh. 311-337, 2007-ci il.*

Czaika, M., & De Haas, H. (2014). The globalization of migration: Has the world become more migratory? International Migration Review, 48(2), 283-323. / *M. Czaika və H. De Haas "Miqrasiyanın qloballaşması: dünya daha* çox *miqrasiyalı olubmu?", Beynəlxalq Miqrasiya* İcmalı*, 2014-cü il.*

De Haas, H. (2010). Migration and development: A theoretical perspective. International migration review, 44(1), 227-264. / *H. De Haas "Miqrasiya və inkişaf: nəzəri perspektiv", Beynəlxalq Miqrasiya* İcmalı*, 2010-cu il.*

Devane, R. (2006). The dynamics of diaspora networks: Lessons of experience. Diaspora Networks and the International Migration of Skills: How Countries Can Draw on Their Talent Abroad, Washington, DC: World Bank, 59-67. / *R. Devane "Diaspor* şəbəkələrinin *dinamikası: təcrübə dərsləri. Diaspor* şəbəkələri *və beynəlxalq bacarıqlar miqrasiyası:* ölkələr *xaricdəki istedadlarından necə istifadə edə bilər", Vaşinqton, KD: Dünya Bankı, 2006-cı il.*

Fauser, M. (2006). Transnational migration–A national security risk? Securitization of migration policies in Germany, Spain, and the United Kingdom. Center for International Relations, 2(6), 1-19. / *M. Fauser "Transmilli miqrasiya - milli təhlükəsizlik riski? Almaniya,* İspaniya *və Birləşmiş Krallıqda miqrasiya siyasətlərinin təhlükəsizləşdirilməsi", Beynəlxalq Münasibətlər Mərkəzi.*

Gattinara, P.C. and L. Morales, 'The politicisation and securitisation of migration in Western Europe: public opinion, political parties and the immigration issue', in Bourbeau, P. (ed.), Handbook on Migration and Security, Quebec, Edward Elgar Pub, 2017. / *P.C. Gattinara və L. Morales "Qərbi Avropada miqrasiyanın siyasiləşdirilməsi və təhlükəsizləşdirilməsi: ictimai rəy, siyasi partiyalar və immiqrasiya problemi", P. Bourbeaunun redaktorluğu ilə Miqrasiya və T*əhlükəsizlik üzrə *Məlumat Kitabçasında, Kvebek, Edward Elgar Nəşriyyatı, 2017-ci il.*

Azərbaycan Hökuməti "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı", 2004-cü il. Burada mövcuddur: https://e-qanun.az/framework/5977. 2023-cü il noyabrın 23-də baxılıb.

Griswold, D., 'Don't Blame Immigrants for Terrorism', Cato Institute, Commentary, 23 October 2001 / *D. Griswold "*İmmiqrantları *terrorçuluqda günahlandırmayın", Kato* İnstitutu*,* Şərh*, 23 oktyabr 2001-ci il. Burada mövcuddur:* http://www.cato.org/publications/commentary/dont-blame-immigrants-terrorism. *2023-cü il noyabrın 23-də baxılıb.*

Howard, R.T., 'Migration Wars', The National Interest, No. 153, 2018, pp. 53-62. / *R.T. Howard "Miqrasiya müharibələri", Milli Maraqlar Jurnalı, No 153, səh. 53-62, 2018-ci il.*

Huysmans, J., 'Migrants as a Security Problem: Dangers of 'Securitising' Societal Issues', in Miles. R. and D. Thranhardt (eds.), Migration and European Integration: The Dynamics of Inclusion and Exclusion, London, Pinter Publishers, 1995, pp. 53-72. / *J. Huysmans "Miqrantlar təhlükəsizlik problemi kimi: cəmiyyət problemlərinin "təhlükəsizləşdirilməsi"nin təhlükələri", R. Miles və D. Thranhardtın redaktorluğu ilə "Miqrasiya və Avropa inteqrasiyası: inklüziya və eksklüziya dinamikası" adlı kitabda, London, Pinter Publishers Nəşriyyatı, səh. 53-72, 1995-ci il.*

Huysmans, J., 'The European Union and the Securitisation of Migration', Journal of Common Market Studies, Vol. 39, No. 5, 2000, pp. 751-777. / *J. Huysmans "Avropa* İttifaqı *və miqrasiyanın təhlükəsizləşdirilməsi",* Ümumi *Bazar Araşdırmaları Jurnalı, cild 39, No 5, səh. 751-777, 2000-ci il.*

Koser, K., 'Irregular migration, state security and human security', paper prepared for the Policy Analysis and Research Programme of the Global Commission on International Migration, University College London, September 2005. / *K. Koser "Tənzimlənməyən miqrasiya, dövlət təhlükəsizliyi və insan təhlükəsizliyi", Beynəlxalq Miqrasiya* üzrə *Qlobal Komissiyanın Siyasət Təhlili və Tədqiqat Proqramı* üçün *hazırlanmış sənəd, London Universitetinin Kolleci, sentyabr 2005-ci il.*

Koser, K., 'When is Migration a Security Issue?', Brookings Institution, 31 March 2011. / *K. Koser "Nə vaxt miqrasiya təhlükəsizlik məsələsinə* çevrilir*?", Brookinqs* İnstitutu*, 31 mart 2011-ci il. Burada mövcuddur:* https://www.brookings.edu/opinions/when-is-migration-asecurityissue/. *2023-cü il noyabrın 7-də baxılıb.*

Koslowski, R. (Ed.). (2005). International migration and the globalization of domestic politics (pp. 5-32). London: Routledge. / *R. Koslowski (red.) "Beynəlxalq miqrasiya və daxili siyasətin qloballaşması", London: Routledge, səh. 5-32, 2005-ci il.*

Metelev, S. E. (2016). Migration as a threat to national security. Indian Jour. of Science and Technology, 9(14), 1-6. / *S. E. Metelev "Miqrasiya milli təhlükəsizliyə təhdid kimi", Hindistanın Elm və Texnologiya Jurnalı, 2016-cı il.*

Mitchell, C. (1989). International migration, international relations, and foreign policy. International Migration Review, 23(3), 681-708. / *C. Mitchell "Beynəlxalq miqrasiya, beynəlxalq münasibətlər və xarici siyasət", Beynəlxalq Miqrasiya* İcmalı*, 1989-cu il.*

Nichiporuk, B., 'The Security Dynamics of Demographic Factors', Population Matters, Arroyo Center, 2000. / *B. Nichiporuk "Demoqrafik amillərin təhlükəsizlik dinamikası",* Əhali *Məsələləri, Arroyo Mərkəzi, 2000-ci il. Burada mövcuddur:* https://apps.dtic.mil/sti/pdfs/ADA376405.pdf. *2023-cü il noyabrın 28-də baxılıb.*

Phizacklea, A., 'Concluding Remarks: State Security Versus the Security of Migrants: The Unbalanced Contest', in Lazaridis., G. (ed.), Security, Insecurity and Migration in Europe, London and New York, Taylor and Francis, 2011, pp. 287-291. / *A. Phizacklea "Yekun qeydlər: dövlət təhlükəsizliyi* miqrant *təhlükəsizliyinə qarşı: tarazlaşdırılmamış müsabiqə". G. Lazaridisin redaktorluğu ilə "Avropada təhlükəsizlik və miqrasiya" adlı kitabda, London və Nyu York, Taylor və Francis Nəşriyyatı, səh. 287-291, 2011-ci il.*

Reality Check, 'Belarus border crisis: How are migrants getting there?', BBC News, 26 November 2021. / *Reality Check "Belarus sərhəd böhranı: miqrantlar ora necə düşürlər?", BBC News, 26 noyabr 2021-ci il. Burada mövcuddur:* https://www.bbc.com/news/59233244. *2022-ci il iyunun 15-də baxılıb.*

Rudolph, C., 'Security and the Political Economy of International Migration', The American Political Science Review, Vol. 97, No. 4, 2003, pp. 603-620. */ C. Rudolph "Beynəlxalq miqrasiyanın təhlükəsizliyi və siyasi iqtisadiyyatı", Amerikanın Siyasi Elm* İcmalı, *cild 97, No 4, səh. 603-620, 2003-cü il.*

Solimano, A. (2010). International migration in the age of crisis and globalization: historical and recent experiences. Cambridge University Press */ A. Solimano "Böhran və qloballaşma dövründə beynəlxalq miqrasiya: tarixi və son təcrübələr", Kembric Universitetinin Nəşriyyatı, 2010-cu il.*

Weiner, M. (1985). On international migration and international relations. Population and Development Review, 441-455. */ Myron Weiner "Beynəlxalq miqrasiya və beynəlxalq münasibətlər haqqında",* Əhali və İnkişaf İcmalı*, 1985-ci il.*

Weiner, M. (1992). Security, stability, and international migration. International Security, 17(3), 91-126 */ M. Weiner "Təhlükəsizlik, sabitlik və beynəlxalq miqrasiya", Beynəlxalq* Təhlükəsizlik*, 1992-ci il.*

# Modul 5

# Azərbaycanda və qonşu ölkələrdə miqrasiya idarəçiliyi

## Modulun qısa təsviri

Bu modul həm Azərbaycanda, həm də regionun qonşu ölkələrində miqrasiya idarəçiliyi, o cümlədən müvafiq siyasətin təşkili, qanunvericilik, eləcə də maraqlı iştirakçı tərəflərin birgə səyləri barədə təsəvvür yaradır. Azərbaycanda miqrasiya idarəçiliyi ilə məşğul olan hər bir qurumun rolu və təsir dairəsi bu modulda açıqlanır. Eyni zamanda, o, miqrasiya siyasəti ilə bağlı qərar qəbuletmə və idarəetmə işlərində regional və beynəlxalq təşkilatların rolu haqqında məlumat verir.

| İştirakçılar | Mühazirəçilər/təlimçilər |
|---|---|
| **Modulun bütün bölmələri** bu kurikulumda nəzərdə tutulmuş **hər bir fakültəni** təmsil edən tələbələr, eləcə də miqrasiya idarəçiliyi üzrə praktiklər üçün icbaridir. Bu modul kurikulumda təsvir edilmiş bütün digər modulların əvvəlində yer alan “Miqrasiya mövzusuna giriş” adlı Modul 1-in ardınca gəlməlidir. Belə ki, onun Azərbaycanda və ölkə hüdudlarından kənarda miqrasiya idarəçiliyi məsələlərini əhatə edən konkret məzmunu bu ölkədə və bütövlükdə regionda mövcud siyasətlərlə tanış olmaq üçün zəmin yaradan zəruri bilikləri özündə əks etdirir. Bu həm tələbələr, həm də akademik dairələrdən olmayan, xüsusən dövlət orqanlarını təmsil etməyən iştirakçılar üçün zəruri mövzudur. | Miqrasiyanın müvafiq maraqlı tərəflər arasında əməkdaşlıq şəraitində necə idarə edilməsi ilə tanış olmaq üçün akademik dairələrdə bu modul siyasi elmlər və hüquq sahəsində bilikləri olan müəllimlər tərəfindən birgə mühazirələr formasında təqdim edilməlidir.<br><br>Qeyri-akademik dairələrdə bu modulun miqrasiya idarəçiliyi ilə məşğul olan və ya həm ölkədə, həm də ölkə hüdudlarından kənarda miqrasiya siyasətinin təşkili və idarə edilməsi haqqında geniş biliyə malik olan şəxs tərəfindən təqdim edilməsi tövsiyə olunur. |

## Öyrənmə məqsədləri və dəyərləri

**Bu modulun sonunda iştirakçılar:**

- Azərbaycanda sərhədlərin və tənzimlənməyən miqrasiyanın idarə edilməsi, əmək miqrasiyası, daxili miqrasiya, naturalizasiya və s. kimi miqrasiya məsələlərinə aid mövcud siyasətlər və qanunvericilik bazası ilə tanış olacaqlar;

- Azərbaycanda miqrasiya idarəçiliyində iştirak edən əsas aktorlarla, eləcə də bu sahədə onların birgə səyləri ilə tanış olacaqlar;
- Azərbaycandakı müxtəlif miqrant qrupları, o cümlədən məcburi köçkünlər, qaçqınlar, əməkçi miqrantlar, habelə onların bu ölkədə yaşamaları ilə bağlı müvafiq siyasətlər barədə daha çox biliklər əldə edəcəklər;
- bu proseslə bağlı Aİ idarəçiliyi, eləcə də qonşu ölkələrin, o cümlədən Türkiyə, Mərkəzi Asiya ölkələri, Moldova və Gürcüstanın siyasətləri haqqında məlumat alacaqlar;
- həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda mövcud siyasətlər və qanunvericilik bazaları ilə bağlı tənqidi yanaşmaya malik olacaqlar;
- həm ölkələr arasında, həm də Aİ daxilində müvafiq siyasətlərin və idarəetmə strukturlarının müqayisəli təhlilini aparmağı bacaracaqlar.

# Modulun strukturu

## Bölmə 5.1 Azərbaycanda miqrasiya idarəçiliyi

5.1.1 Azərbaycanda miqrasiya ilə bağlı əsas qanunvericilik və siyasət çərçivələri
5.1.2 Azərbaycanda miqrasiya idarəçilyində iştirak edən əsas aktorlar və bu sahədə onların əməkdaşlığı
5.1.3 Azərbaycanda müxtəlif miqrasiya sahələrində və müxtəlif miqrant qrupları ilə bağlı idarəçilik

## Bölmə 5.2 Aİ-də və İttifaqdan kənarda miqrasiya idarəçiliyi

5.2.1 Aİ-nin sərhəd və sığınacaq siyasətləri
5.2.2 Şərqi Avropa və Mərkəzi Asiyada (ŞAMA) miqrasiya idarəçiliyi

## Bölmə 5.3 Empirik iş/Qiymətləndirmə

Həm akademik, həm də qeyri-akademik auditoriya üçün regionda iki ölkənin müvafiq siyasətlərinin və ya miqrasiya axını modellərinin müqayisəsi üzrə qrup tapşırığı.

# Modulun əsas sualları

Aşağıda verilmiş suallar modul üzrə mühazirə zamanı müzakirələrin aparılması və tələbələrin/praktiklərin biliklərinin qiymətləndirilməsi üçün bələdçi kimi istifadə oluna bilər:

- Azərbaycanda miqrasiya siyasəti necə təşkil olunur?
- Dövlət sektorunda miqrasiya idarəçiliyi ilə məşğul olan əsas maraqlı tərəflər hansılardır?
- Ölkədə miqrasiya idarəçiliyi ilə məşğul olan maraqlı tərəflər bir-biri ilə necə əməkdaşlıq edirlər?
- Ölkədəki əsas miqrant qrupları hansılardır? Son məlumatlar onlar barədə nə deyir?
- Aİ sərhəd və sığınacaqla əlaqəli miqrasiyanı necə idarə edir? Bununla bağlı regionda hansı birgə səylər həyata keçirilir?
- Miqrasiya idarəçiliyi region ölkələri, xüsusən Cənubi Qafqaz və Mərkəzi Asiya arasında necə fərqlənir? Hər iki regionda müşahidə olunan son miqrasiya meylləri/modelləri hansılardır? Hansı oxşarlıqlar və ya fərqlər mövcuddur?

# Müddət

| Modul 5-in bölmələri | Kursun müddəti | |
|---|---|---|
| | Saat | Dərs |
| Bölmə 5.1 Azərbaycanda miqrasiya idarəçiliyi | 2 | 1 |
| Bölmə 5.2 Aİ-də və İttifaqdan kənarda miqrasiya idarəçiliyi | 2 | 1 |
| Bölmə 5.3 Empirik iş və imtahan | 2 | 1 |
| **Cəmi** | **6** | **3** |

# Modulun indikativ məzmunu

## Bölmə 5.1 Azərbaycanda miqrasiya idarəçiliyi

Miqrasiya məsələlərinə bu və ya digər dərəcədə toxunan əsas qanunvericilik sənədləri Azərbaycan Respublikasının Konstitusiyasından, Əmək Məcəlləsindən, habelə digər geniş spektrli qanunvericilik aktlarından, o cümlədən, "Təhsil haqqında" və "Əhalinin sağlamlığının qorunması haqqında" qanunlardan ibarətdir. Bu qanunvericilik aktları ölkədə yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin hüquqları ilə bağlı ilk növbədə mühüm məsələləri təhsil və səhiyyə nöqteyi-nəzərindən əhatə edir; bununla yanaşı yalnız miqrasiyaya dair dəqiq çərçivələr, məsələn, müxtəlif dövrləri əhatə edən miqrasiya proqramları mövcuddur ki, onlar da 2013-cü ildə Miqrasiya Məcəlləsinin təsdiq edilərək qüvvəyə minməsi üçün zəmin yaradıb. Əsas miqrasiya anlayışlarını müəyyən edən Miqrasiya Məcəlləsi ölkə vətəndaşlarının ölkədən getməsi, ölkəyə gəlməsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycana gəlməsi və Azərbaycandan getməsi, Azərbaycanda müvəqqəti olması, onlara ölkədə müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, onların qeydiyyata alınması, miqrasiya prosesi iştirakçılarının hüquq və vəzifələri, əmək miqrasiyası, habelə miqrasiyaya dövlət nəzarəti və qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində münasibətləri tənzimləyir. Bütövlükdə, Miqrasiya Məcəlləsi 6 bölmə, 15 fəsil və 95 maddədən ibarətdir. Azərbaycanda Miqrasiya Məcəlləsindən başqa, miqrasiya proseslərinin idarə olunması ilə bağlı qəbul edilmiş digər normativ-hüquqi aktlar var və bu sıraya aşağıdakı qanunlar daxildir:

- "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Azərbaycan Respublikasının vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu;
- İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu.

Azərbaycanda miqrasiya idarəçiliyində aşağıdakı əsas aktorlar, o cümlədən həm dövlət, həm vətəndaş cəmiyyəti, eləcə də beynəlxalq təşkilatlar fəaliyyət göstərir:

- Dövlət qurumları - DMX, Xarici İşlər Nazirliyi (XİN), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN), DİN, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (QMDİDK), DSX, Diasporla İş üzrə Dövlət Komitəsi;
- Vətəndaş cəmiyyəti təşkilatları - DMX yanında İctimai Şuraya daxil olan və miqrasiya sahəsində fəaliyyət göstərən QHT-lər, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK);
- Beynəlxalq təşkilatlar - BMqT, BMTQAK, BƏT, MSİBM.

Həmin təşkilatlardan bəzilərinin rolları haqqında qısa məlumat vermək yerinə düşərdi, məsələn, DMX əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri olduğu yer üzrə qeydiyyata alır, Azərbaycanda müvəqqəti olmaq müddətinin uzadılması məsələlərini həll edir, əcnəbilərə Azərbaycanda müvəqqəti və ya daimi yaşamaq üçün icazə verir, haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək istəyən əcnəbiləri müəyyən olunmuş qaydalar və prosedurlar çərçivəsində iş icazələri ilə təmin edir, qanunsuz miqrasiyanın qarşısının alınmasına dair müvafiq tədbirlər və miqrasiya qanunvericiliyi ilə bağlı maarifləndirmə və məlumatlandırma işlərini yerinə yetirir. XİN Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarını müdafiə edir, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin və əməkdaşlığın inkişafına yardım göstərir, ƏƏSMN isə aidiyyəti dövlət orqanları ilə birlikdə əmək miqrasiyası sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində qanunvericiliyə uyğun iştirak edir və əmək miqrasiyası üzrə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxmasının məqsədəuyğunluğu barədə təkliflər verir. Digər aktorlara gəldikdə, DMX yanında İctimai Şura 2015-ci ildə yaradılıb və onun fəaliyyət istiqamətlərinə dövlət qurumları, beynəlxalq və yerli ictimai təşkilatlarla əlaqələrin qurulması və inkişaf etdirilməsi, habelə Şuranın işçi orqanlarının yaradılması kimi məsələlər aiddir. AHİK həmkarlar ittifaqları üzvlərinin əmək, sosial-iqtisadi hüquq və mənafelərini təmsil və müdafiə edən həmkarlar ittifaqı birliklərinin könüllü ittifaqıdır. Əsas fəaliyyəti üzv həmkarlar ittifaqlarında işçilərin əmək hüquqlarının müdafiəsi ilə bağlı olan AHİK, tərəfdaşları BƏT, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası və digərləri ilə yaxından əməkdaşlıq edir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycana gəlmə və Azərbaycandan getməsinə nəzarət aşağıda təsvir olunan üç mərhələdə həyata keçirilir:

*Gəlişdən öncəki nəzarət:* Miqrasiya Məcəlləsinə əsasən, Azərbaycana gəlmək üçün viza tələb olunduğu hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müəyyən olunmuş qaydada viza almalıdırlar. Girişlərin sayına görə giriş vizası birdəfəlik və çoxdəfəlik, tranzit vizası isə birdəfəlik və ikidəfəlik vizalara bölünür. Giriş vizasının etibarlılıq müddəti birdəfəlik giriş üçün 90 günədək, çoxdəfəlik giriş üçün isə 2 ilədək müəyyən olunur. Həmçinin, Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər “ASAN Viza” sistemi (www.evisa.gov.az) vasitəsi ilə elektron viza ala bilərlər və elektron qaydada verilən birdəfəlik vizada ölkədə qalma müddəti 30 günədək, çoxdəfəlik vizada isə 90 günədək müəyyən edilir. *Giriş zamanı nəzarət:* Ölkəyə gələn və ölkədən gedən şəxslərin və nəqliyyat vasitələrinin qeydiyyatı İAMAS vasitəsi ilə həyata keçirilir və sərhədkeçmə yoxlamasının nəticələri barədə məlumatlar “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə daxil edilir. Pasportsuz, vizasız və ya etibarlı olmayan pasport və digər sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədini keçməyə cəhd göstərən və ya Azərbaycana girişi qadağan edilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər gəldikləri ölkəyə qaytarıla bilərlər. *Girişdən sonrakı nəzarət:* Viza əsasında Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddəti vizada göstərilən qalma müddətindən, viza tələb olunmayan qaydada Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin isə ölkədə müvəqqəti olma müddəti, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar

istisna olmaqla, 90 gündən artıq ola bilməz. Miqrasiya Məcəlləsinin tələblərinə uyğun olaraq, Azərbaycanda 15 gündən artıq (Qazaxıstan Respublikasının vətəndaşları 30 gündən artıq) müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bəzi hallarda, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər könüllü və məcburi əsaslar olmaqla qanunsuz miqrantların saxlanılması mərkəzlərinə yerləşdirilə bilərlər. Miqrasiya Məcəlləsinin 14-cü fəslində belə hallar ətraflı verilib. Qeyd olunur ki, ölkənin üç şəhərində DMX-nın belə mərkəzləri fəaliyyət göstərir.

Miqrasiya Məcəlləsinin 11-ci fəsli (maddələr: 61-73) bütövlükdə əmək miqrasiya idarəçiliyinin hüquqi əsaslarını müəyyən edir. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycanda haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan Respublikası vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan ibarətdir. Belə hallarda sübut edilməlidir ki, bu iş yeri üçün tələb olunan peşəkar bacarıq və ya ixtisasa malik Azərbaycan vətəndaşı tapmaq mümkün deyil, o cümlədən məşğulluq xidməti orqanları işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyaclarını yerli əmək ehtiyatları hesabına təmin etmək imkanına malik deyillər. Hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri Azərbaycanda işə cəlb edə bilərlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsi DMX tərəfindən verilir. DMX icazəyə dair qərar verərkən ƏƏSMN-in rəyini nəzərə alır. Hər il əcnəbilərin əmək fəaliyyəti üçün konkret sayda kvota müəyyən edilir. Əmək miqrasiya kvotası hər il üçün ayrıca olaraq təyin edildiyindən ildən ilə dəyişir, məsələn, 2010-2015-ci illərdə müəyyən olunmuş kvota həddi 10 min vahid ətrafında idisə, sonrakı illərdə kəskin azalma baş vermiş və 2019-cu ilə qədər bu rəqəm 7 min vahid ətrafında olmuşdur, növbəti illərdə isə artım müşahidə olunmağa başlamışdır.

Ölkədə daxili miqrasiyanın, xüsusilə də bu sahənin əsas hissəsini təşkil edən və əhalinin şəhər və kənd yerləri arasında hərəkəti ilə səciyyələndirilən urbanizasiya, de-urbanizasiya və ruralizasiya prosesləri hər zaman olub. Bundan əlavə, təbii fəlakətlər ölkə daxilində ekoloji miqrasiyaya səbəb olur.

Miqrasiya Məcəlləsinə əsasən Azərbaycan Respublikasının ərazisində olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərinə riayət etməli və müəyyən olunmuş müddət bitdikdən sonra ölkə ərazisini tərk etməlidirlər (Maddə 76.3). Aşağıdakı əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər barədə kənara çıxarma haqqında qərar DMX tərəfindən qəbul edilir:

- Ölkədə qanuni olma və yaşamağa icazə verən sənədləri (vizası və ya müvəqqəti olma müddətinin uzadılması barədə qərarı, yaxud müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi) ləğv edilmiş şəxslər;
- Azərbaycanda olması arzuolunmaz hesab edilən şəxslər;
- Cəza çəkməkdən azad edilən şəxslər (şəxsin ölkədə yaşaması üçün əsas olduqda, belə qərar qəbul edilmir);
- Qaçqın statusu verilməsindən imtina edilmiş şəxslər.

Digər ölkələrdə icazəsiz yaşayan şəxslərin geri qəbul edilməsi ilə bağlı prosesləri tənzimləyən qanunvericilik bazasının yaradılmasına “Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında” Saziş ilə başlanılıb. Saziş Aİ ilə Azərbaycan arasında viza rejiminin sadələşdirilməsi və readmissiya ətrafında aparılmış danışıqlar çərçivəsində razılaşdırılıb və Aİ-nin 27 üzv dövlətlərindən (ÜD) 25-i Sazişə qoşulub. Bundan əlavə, oxşar sazişlər Norveç Krallığı, Monteneqro Respublikası və İsveçrə Konfederasiyası hökümətləri ilə də imzalanıb. Hazırda bir neçə Aİ ÜD ilə icra protokolların imzalanması istiqamətində danışıqlar aparılır. Həmçinin, sazişin icrasına nəzarət, onun müddəalarının təfsiri və ya tətbiqindən irəli gələn məsələlərin həlli məqsədi ilə saziş əsasında Birgə Readmissiya Komitəsi təsis edilib.

Miqrant kateqoriyasına aid edilən qaçqınlar, sığınacaq axtaranlar və məcburi köçkünlər Azərbaycanda yaşayan miqrantlar qruplarının əsas hissəsini təşkil edirlər. Belə ki, 1988-ci ildən başlayaraq qonşu Ermənistanın planlı şəkildə həyata keçirdiyi son etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 300 mindən çox azərbaycanlı son nəfərədək öz doğma yurdlarından zorla çıxarılmış və Azərbaycana pənah gətirmişdir. Həmin dövrdən Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi (Qarabağ və Şərqi Zəngəzurun (keçmiş Dağlıq Qarabağ), eləcə də ona bitişik olan 7 rayonun ərazisi və Ermənistanla sərhəddə yerləşən qəsəbələr) işğal olunmuşdur. Nəticədə, bu ərazilərdən olan 700 mindən artıq Azərbaycanlı öz daimi yaşayış yerlərindən məhrum olaraq məcburi köçkün düşmüş və respublikanın 62 şəhər və rayonunda, 1 600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti yerləşdirilmişdir. Bundan əlavə, ötən əsrin 90-cı illərində Azərbaycanda 50 min nəfərədək axıska (məhsəti) türkü, həmçinin İran, Rusiya və Əfqanıstandan olan 15 min nəfərədək qaçqın statusu almaq niyyətində olan şəxs də sığınacaq tapmışdır. Beləliklə, 2022-ci ilə Azərbaycanda 1 138 450 nəfər qaçqın və məcburi köçkünün olduğu bildirilir. Azərbaycanda qaçqınların və məcburi köçkünlərin məsələləri ilə məşğul olan əsas dövlət orqanı – QMKİDK qaçqınların işə düzəldilməsinə, yaşayış sahəsi ilə təmin edilməsinə, sosial təminatına xüsusi diqqət yetirir, qaçqınlar və sığınacaq axtaran şəxslərlə bağlı olan digər məsələləri öz səlahiyyətləri çərçivəsində həll edir və ya onların həll olunması üçün müvafiq təkliflər verir. Ümumilikdə, qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu yaradılıb.

Ölkə ərazisində yaşayan sığınacaq axtaranlar və qaçqın statusu verilmiş şəxslər Ermənistan və Özbəkistandan olan qaçqınlarla, 30 ilə yaxın işğal altında saxlanılan Azərbaycan ərazilərindən olan məcburi köçkünlərlə müqayisədə nisbətən az sayda olan həssas qrupların üzvləridir. Belə ki, BMTQAK-a görə, 2022-ci ilin may ayının 31-ə qeydiyyatda olan sığınacaq axtaranların sayı 1 756 nəfər təşkil edirdi (bu şəxslərin 69 faizi Əfqanıstandan, 19 faizi Rusiyadan, 8 faizi Pakistandan, 4 faizi İrandandır). Azərbaycanda qaçqınların və sığınacaq axtaran şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı mövcud qanunvericilik aktlarına beynəlxalq öhdəliklərə uyğun olaraq əlavə və dəyişikliklər edilir. Artıq Miqrasiya Məcəlləsinin 64.0.15-ci maddəsinə əsasən, “qaçqın statusunun verilməsi üçün vəsatət verən, qaçqın statusu almış və ya siyasi sığınacaq verilmiş şəxslər”ə əmək fəaliyyətlərini həyata keçirmələri üçün iş icazəsi tələb olunmur. Görülmüş tədbirlər nəticəsində hazırda Azərbaycanda qaçqınlar və BMTQAK-ın himayə etdiyi şəxslər DMX tərəfindən verilmiş müvafiq arayışlar əsasında işləmək hüququ əldə ediblər.

Azərbaycanda vətəndaşlıq məsələləri Azərbaycan Respublikasının Konstitusiyası və “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Qanun ilə tənzimlənir. Vətəndaşlıq əsasən, doğum və naturalizasiya hallarında əldə edilir. Doğum əsasında vətəndaşlıq Azərbaycan ərazisində (jus soli (torpaq hüququ) prinsipi) və ya Azərbaycan vətəndaşından (jus sanguinis (qan hüququ) prinsipi) doğulduqda əldə edilir. Jus soli prinsipi yalnız vətəndaşsızlığın qarşısının alınması hallarında tətbiq edilir. Azərbaycan vətəndaşlığına qəbul (naturalizasiya) üçün əsas şərtlər ölkə ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşamaq, qanuni gəlir mənbəyinin olması, Azərbaycan Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürmək, habelə Azərbaycan Respublikasının dövlət dilini bilməkdən ibarətdir. Milli qanunvericiliyə əsasən, Azərbaycan vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyəti (ikili vətəndaşlıq) tanınmır. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan vətəndaşı bir ay müddətində bu barədə DMX-ya yazılı məlumat verməlidir.

## Bölmə 5.2 Aİ-də və İttifaqdan kənarda miqrasiya idarəçiliyi

Aİ-nin miqrasiya siyasəti tez-tez müzakirə olunur, lakin bu siyasəti Aİ və onun ÜD-ləri arasında ortaq səlahiyyət sahəsi adlandırmaq daha düzgün olardı. Bu o deməkdir ki, miqrasiya qanunvericiliyi Aİ və ya milli səviyyələrdə qəbul oluna bilər. Ümumiyyətlə, "əsas" adlandırılan Aİ qanunları ÜD-lər arasında razılaşdırılmış müqavilələrdir və Əsas İnsan Hüquqları üzrə Avropa Xartiyası da Aİ müqavilələri ilə eyni hüquqi qüvvəyə malikdir. Bundan əlavə, bəzi qanunlar birbaşa təsirə malikdir: bu o deməkdir ki, milli qanunvericilikdə müvafiq müddəalar olmasa belə, vətəndaşlar məhkəmədə Aİ qanunvericiliyinə istinad edə bilərlər, məsələn, əsasnamələr birbaşa təsirə malikdir və Aİ səviyyəsində qüvvəyə mindiyi gündən milli ÜD qanunvericiliyinin bir hissəsinə çevrilir. Bu baxımdan, 1985-ci il Şengen Sazişi "Şengen zonası" adlanan ərazi çərçivəsində daxili sərhədləri ləğv etdi və müvafiq olaraq, ümumi xarici Aİ sərhədini yaratdı. Bu cür sərhədsiz zona Aİ vətəndaşlarına, eləcə də Aİ-də qanuni yaşayan üçüncü ölkə vətəndaşlarına, o cümlədən rezidentlərə, ziyarətçilərə və mübadilə üzrə tələbələrə sərbəst hərəkət etmək zəmanəti verdi. Hal-hazırda Şengen zonası Aİ ölkələrindən Bolqarıstan, Kipr, İrlandiya və Rumıniyanı çıxmaqla ÜD-lərin əksəriyyətini, habelə Aİ üzvü olmayan İslandiya, Norveç, İsveçrə və Lixtenşteyn kimi bir neçə ölkəni əhatə edir. Şengen zonasının birgə tənzimlənməsi və idarə olunmasına baxmayaraq, ictimai təhlükəsizliyə ciddi təhdid yaranarsa, Şengen ölkəsi öz daxili (Aİ daxilindəki) sərhədlərində sərhəd nəzarətini müvəqqəti bərpa edə bilər. Belə olan halda, əlaqədar ölkə Aİ Şurasına, Avropa Parlamentinə, Avropa Komissiyasına və ictimaiyyətə bu qərar barədə məlumat verməlidir. Şengen ölkələri COVİD-19 pandemiyası zamanı, habelə digər azsaylı hallarda bu hüquqdan istifadə ediblər.

Qeyd etmək yerinə düşər ki, qanuni miqrasiya və inteqrasiyanın aşağıdakı sahələri Aİ səviyyəsində tənzimlənir:

- Yüksək ixtisaslı üçüncü ölkə vətəndaşlarının iş məqsədləri üçün Aİ-yə gəlməsi və burada yaşaması Mavi Kart Direktivi ilə tənzimlənir.
- Mövsümi İşçilər Direktivi Aİ daxilində mövsümi iş üçün struktur ehtiyaclarını, eləcə də miqrantları istismardan, digər insan və əmək hüquqlarının pozulmasından qorumaq üçün müəyyən edilmiş ehtiyacları əhatə edir.
- Korporasiyadaxili Köçürmələr Direktivi Aİ-nin xarici sərmayələr üçün cəlbedici olmasına töhfə vermək, korporasiya daxilində köçürülən işçilərin və onların ailə üzvlərinin Aİ ÜD-lər daxilində qəbulu, eləcə də əmək fəaliyyəti və yerdəyişməsi üçün sadələşdirilmiş prosedur yaratmaq məqsədi daşıyır.
- Tələbələr və Tədqiqatçılar Direktivi 2016-cı ildə qəbul edilərək təhsil və tədqiqat məqsədləri üçün miqrasiyanı asanlaşdırır.

Ümumi Avropa Sığınacaq Sisteminin (CEAS) yaradılması 1999-cu ildə 15 Aİ ÜD tərəfindən razılaşdırılıb. Bundan irəli gələn 1999-2004-cü illər üçün Tampere proqramı CEAS-ın iki mərhələdə həyata keçirilməsini nəzərdə tuturdu ki, bu da bütövlükdə Qaçqınlar haqqında 1951-ci il Cenevrə Konvensiyasının tətbiqinə əsaslanırdı. Tampere proqramının ardınca birinci nəsil CEAS qəbul edildi. Buraya Avropa Daktiloskopiya və (sığınacaq üçün müraciətə baxılması ilə bağlı ÜD-nin məsuliyyətinə dair) Dublin əsasnamələri, Müvəqqəti Himayə Direktivi, Qəbul Şərtləri Direktivi, Təsnifat Direktivi və Sığınacaq Prosedurları Direktivi daxil idi. Aİ ÜD-lər tərəfindən birgə tanınmış üç beynəlxalq himayə forması mövcuddur: qaçqın statusu, köməkçi himayə və müvəqqəti himayə. ÜD-lər milli qanunvericiliklə tənzimlənən əlavə himayə növlərindən də, məsələn, diplomatik və ya ərazi üzrə sığınacaqdan istifadə edə bilərlər. Hazırda beynəlxalq himayə məsələləri Aİ-nin bu kimi hüquqi aktları ilə tənzimlənir: Sığınacaq Prosedurları Direktivi, Qəbul Şərtləri Direktivi, ərizəçilərin qaçqın statusu və ya əlavə himayə hüququ əldə etməsi üçün meyarları nəzərdə tutan Təsnifat Direktivi, Müvəqqəti Himayə Direktivi.

2020-ci ildə ŞAMA mənşəli miqrantların dünya üzrə ümumi sayı 30 milyondan çox idi, bu isə 2010-cu illə müqayisədə 2,4 milyon nəfər artım demək idi. ŞAMA miqrantlarının təxminən 54%-i qadınlardır və son 30 il ərzində bu nisbət sabit olaraq qalır. Mütləq mənada, Rusiya 10,8 milyon immiqrant və 12 milyona yaxın emiqrantla əsas mənşə və təyinat ölkəsidir. Əmək miqrasiyası regionda ən mühüm miqrasiya forması olaraq qalır və Mərkəzi Asiyadan Rusiyaya, Şərq Tərəfdaşlığı (ŞT) ölkələrindən və Belarusdan Aİ-yə, xüsusən də Aİ ərazisindəki Şərqi Avropa miqrantlarının 85%-ə qədər bir hissəsini qəbul edən Polşaya regional axınlar kifayət qədər davamlı əmək miqrasiyası dəhlizləri təşkil edir. Üç ŞT ölkəsi (Gürcüstan, Moldova və Ukrayna) Assosiasiya Sazişləri imzalayaraq Aİ ilə vizasız rejimdən istifadə edir. Gürcüstanda illik fəaliyyət planları ilə həyata keçirilən 2021-2030-cu illər üçün Miqrasiya Strategiyası 2020-ci ilin sonunda təsdiq edilib. Strategiyanın əsas məqsədi milli ehtiyac və maraqları, eləcə də yerli, regional və qlobal səviyyələrdə problem və imkanları nəzərə almaqla miqrasiya məsələlərinin inkişaf proseslərinə daxil edilməsini dəstəkləmək və asanlaşdırmaqdır. İlk dəfə 2011-ci ildən həyata keçirilmiş Moldova Respublikasının Milli Miqrasiya və Sığınacaq Strategiyası 2020-ci ilə qədər qüvvədə olub. Ukraynaya gəldikdə, bu ölkədə miqrasiya idarəçiliyi 2017-ci ildə təsdiq edilmiş və 2025-ci ilə qədər qüvvədə olacaq Dövlət Miqrasiya Siyasəti Strategiyasına uyğun həyata keçirilir. Lakin hökumətin xaricdəki ukraynalı əməkçi miqrantların hüquqlarını qorumaq və onların geri qayıtmasını asanlaşdırmaq istəyi, o cümlədən COVİD-19 pandemiyası zamanı miqrantların faktiki geri qayıdışı dövlət miqrasiya siyasətinin yenidən baxılmasını tələb edir. Bunu nəzərə alaraq, əmək miqrasiyası sahəsində idarəçiliyi təkmilləşdirmək məqsədi daşıyan bir sıra qanunvericilik dəyişikliklərinə 2021-ci ildə başlanılıb. 2022-ci ilin fevral ayından ölkə müharibədən qaçan insanların kütləvi axını ilə üzləşir və BMTQAK-ın məlumatına görə, müharibə başlayandan bəri 2022-ci ilin iyun ayına qədər Ukraynanı 8 milyondan çox insan tərk edib. Bu insanların əksəriyyəti qonşuluqdakı Aİ ÜD-lərə (Polşa, Slovakiya, Macarıstan və Rumıniyaya) və Moldovaya köçüb. Lakin 2022-ci ilin fevralından sonrakı aylarda Ukraynadakı müharibə səngiməyə başladığı üçün insanların çoxu bu ölkəyə qayıtmağa başlayıb. Daha çox insan Ukrayna daxilində məcburi köçkün həyatı yaşayır. BMTİHAK-ın hesablamalarına görə, 2022-ci il fevralın 24-dən başlayaraq təxminən 12,8 milyon insan məcburi köçkün vəziyyətinə düşüb.

Mərkəzi Asiya ölkələrinə gəldikdə, Tacikistan, Qırğızıstan və Özbəkistan iqtisadiyyatlarının böyük hissəsini (xaricə) əmək miqrasiyası və miqrantların pul köçürmələri təşkil edir, məsələn, 2021-ci ildə pul köçürmələrinin hər bir ölkə üçün müvafiq olaraq 2,3, 2,5 və 7,6 milyard ABŞ dolları olacağı proqnozlaşdırılırdı ki, bu da əsasən Rusiya iqtisadiyyatındakı canlanma və neft qiymətlərindəki artımla əlaqəli idi. Bundan əlavə, Tacikistan və Qırğızıstan ŞAMA regionunda pul köçürmələrinin Ümumi Daxili Məhsulda (ÜDM) payına görə ilk iki ölkədir: 2021-ci ildə pul köçürmələri Tacikistanda ÜDM-in 30,1%-ni, Qırğızıstanda isə 27,8%-ni təşkil edib. Üstəgəl, iqlim dəyişikliyi Mərkəzi Asiyada daxili və xarici miqrasiya meylləri və siyasətlərinə müxtəlif yollarla və fərqli səviyyələrdə əhəmiyyətli təsir göstərir. Temperaturun tədricən yüksəlməsi həm dağ, həm də aşağı axar icmalarında su çatışmazlığı ilə nəticələnir və bu vəziyyət təbii təhlükələrin artması riski ilə daha da ağırlaşır.

## Bölmə 5.3 Empirik iş/Qiymətləndirmə

Həm akademik, həm də qeyri-akademik auditoriyalar üçün yekun tapşırıq a) miqrasiya siyasətlərinin, b) daha geniş mənada Şərqi Avropa regionunun, lakin daha yaxşı olar ki, xüsusilə Cənubi Qafqaz və Mərkəzi Asiyanın iki ölkəsinin miqrasiya axını modellərinin/meyllərinin müqayisəsinə əsaslanan qrup işindən ibarət olmalıdır. Bununla belə, bu, həm mövcud materiallardan, həm də iştirakçıların seçimindən asılı ola bilər. Yekun tapşırıq şərtlərində yuxarıdakı a) və b) variantları arasında seçimin nəzərdə tutulması təklif olunur. Qrupda maksimum 4 iştirakçı olmalıdır, lakin bu da auditoriyanın ümumi sayına uyğunlaşdırıla bilər. Müqayisəli təhlil aşağıdakıları əhatə etməlidir:

“a” variantı seçildikdə ® iki ölkənin 1 və ya 2 miqrasiya siyasəti oxşar və fərqli cəhətləri ilə, mövcud olduqda, bəzi dəlillərlə birgə təhlil edilməli, sonra isə bu siyasətlərin çatışmazlıqlarına dair təkliflər verilməlidir;

“b” variantı seçildikdə ® iki ölkədə (xaricə və ya daxilə) son miqrasiya axınları və bu baxımdan mövcud oxşarlıqlar və fərqlər təhlil olunmalıdır. Bu axınların siyasət vasitəsi ilə necə idarə edilməsinin və ya idarə edilə biləcəyinin hərtərəfli təhlili və siyasət təkliflərinin təqdimatı tələb olunur.

Yekun məhsul təlimin/seminarın son dərsi və ya günü ərzində bütün qrup üzvlərinin iştirakını nəzərdə tutan prezentasiya formasında təqdim edilməlidir.

Xüsusilə akademik dairələri təmsil edən iştirakçıların qiymətləndirilməsi aşağıdakı meyarlara əsaslanmalıdır:

| | |
|---|---|
| Ölkələrin siyasətlərini/miqrasiya axınlarını müqayisə etməkdə analitik bacarıqlar | 70% |
| Əldə olunmuş nəticələrin və siyasətə aid tövsiyələrin aydın şəkildə çatdırılması | 20% |
| Şifahi təqdimat bacarıqları | 10% |
| **Qiymətin ümumi faizi** | **100%** |

# Resurslar və əlavə ədəbiyyat

Allahveranov, A., Aliyeva, R. and T. Sadigov, Social Impact of Emigration and Rural-Urban Migration in Central and Eastern Europe, European Commission, Directorate-General for Employment, Social Affairs and Inclusion, Gesellschaft für Versicherungswissenschaft, Final Country Report, Azerbaijan, April 2012. */ A. Allahverənov, R. Əliyeva və T. Sadiqov "Mərkəzi və Şərqi Avropada emiqrasiya və kənd-şəhər miqrasiyasının sosial təsiri", Avropa Komissiyası, Məşğulluq, sosial məsələlər və inklüzivlik* üzrə *Baş Direktorluq, Yekun* Ölkə *Hesabatı, Azərbaycan, aprel 2012-ci il. Burada mövcuddur:* https://www.researchgate.net/publication/311844529_SocialImpact_of_Emigration_and_Rural-Urban_Migration_in_Central_and_ Eastern_Europe. *2023-cü il noyabrın 23-də baxılıb*

European Union, Directive 2014/66/EU of the European Parliament and of the Council of 15 May 2014 on the conditions of entry and residence of thirdcountry national in the framework of an intra-corporate transfer. */ Aİ "Korporasiyadaxili köçürülmə* çərçivəsində üçüncü ölkə *vətəndaşının gəlməsi və yaşaması* şərtləri *haqqında Avropa Parlamentinin və* Aİ Şurasının *2014-cü il 15 may tarixli 2014/66/EU nömrəli Direktivi". Burada mövcuddur:* https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=celex%3A32014L0066. *2022-ci il iyunun 20-də baxılıb.*

European Union, Directive (EU) 2016/801 of the European Parliament and of the Council of 11 May 2016 on the conditions of entry and residence of thirdcountry national for the purposes of research, studies, training, voluntary service, pupil exchange schemes or educational projects and au pairing, 2016. */ Aİ "*Üçüncü ölkə *vətəndaşının tədqiqat, təhsil, təlim, könüllü xidmət,* şagird *mübadiləsi proqramları və ya təhsil layihələri və ailə işlərində köməkçi məqsədləri* üçün *gəlməsi və yaşaması* şərtləri *haqqında Avropa Parlamentinin və* Aİ Şurasının *2016-cı il 11 may tarixli 2016/801 nömrəli Direktivi (Aİ)". Burada mövcuddur:* https://eur-lex.europa.eu/eli/dir/2016/801/oj. *2022-ci il iyunun 20-də baxılıb.*

European Court of Human Rights, 1950 European Convention on Human Rights, 1950. / *Avropa* İnsan *Hüquqları Məhkəməsi "1950-ci il Avropa* İnsan *Hüquqları Konvensiyası". Burada mövcuddur:* https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf. *2022-ci il iyunun 21-də baxılıb.*

European Union, Charter of Fundamental Rights of the European Union, 2012. */ Aİ "2012-ci il tarixli* Əsas *Hüquqlar Xartiyası". Burada mövcuddur:* https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=CELEX:12012P/TXT. *2022-ci il iyunun 21-də baxılıb.*

Azərbaycan Hökuməti "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanunu, 1996-cı il. Burada mövcuddur: https://eqanun.az/framework/3988.

Azərbaycan Hökuməti "Azərbaycan Respublikasının Dövlət Miqrasiya İdarəetmə Siyasəti Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı, 2004-cü il. Burada mövcuddur: https://e-qanun.az/framework/6306.

Azərbaycan Hökuməti "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, 2005-ci il. Burada mövcuddur: https://e-qanun.az/framework/10641.

Azərbaycan Hökuməti "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, 2005-ci il. Burada mövcuddur: https://e-qanun.az/framework/4757.

Azərbaycan Hökuməti "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi", 2013-cü il. Burada mövcuddur: https://eqanun.az/framework/46959.

ICMPD Migration Outlook 2022: Twelve migration issues to look out for in 2022, 2022. */ MSİBM "Miqrasiyaya baxış 2022: 2022-ci ildə diqqət yetirilməli olan 12 miqrasiya problemi", 2022-ci il. Burada mövcuddur:* https://www.icmpd.org/file/download/56783/file/ICMPD%2520Migration%2520Outlook%25202022.pdf. *2022-ci il iyunun 17-də baxılıb.*

ICMPD, ICMPD Migration Outlook. Eastern Europe and Central Asia 2022: Six migration issues to look out for in 2022, 2022. */ MSİBM "Miqrasiyaya baxış.* Şərqi *Avropa və Mərkəzi Asiya 2022: 2022-ci ildə diqqət yetirilməli olan altı miqrasiya problemi", 2022-ci il. Burada mövcuddur:* https://www.icmpd.org/file/download/56967/file/ICMPD_Migration_Outlook_EasternEuropeCentralAsia_2022.pdf. *2022-ci il iyulun 4-də baxılıb.*

R.N. Kərimov və Q. Nəcəfova "İqlim dəyişmələri, daşqınlar və ekomiqrasiya", BMTİP, Bakı, 2016-cı il.

R. Kərimov "Təbii fəlakətlərin səbəb olduğu əhali miqrasiyasının tənzimlənməsi" "Azərbaycanda miqrasiya siyasəti: nailiyyətlər və inkişaf perspektivləri" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2017-ci il.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi "Azərbaycan, ümumi məlumat". Burada mövcuddur: https://mfa.gov.az/en/category/general-information. 2022-ci il iyunun 17-də baxılıb.

OHCHR, 'Ukraine: Millions of displaced traumatised and urgently need help, say experts', Press Releases, Special Procedures, 5 May 2022. displacedtraumatised- and-urgently-need-help-say-experts. */ BMTİHAK "Ukrayna: ekspertlər deyirlər ki, milyonlarla qaçqının travması və yardıma təcili ehtiyacı var", 5 may 2022-ci il. Burada mövcuddur:* https:// www.ohchr.org/en/press-releases/2022/05/ukraine-millions. *2022-ci il iyunun 23-də baxılıb*.

Perchining, B. and J. Perumadan 'Are rural areas across Europe viable destinations for Ukrainian refugee women?', ICMPD blog, 1 June 2022. */ B. Perchining və J. Perumadan "Avropanın kənd yerləri ukraynalı qaçqın qadınlar* üçün *münasib təyinat yeridirmi?", MSİBM bloqu, 1 iyun 2022-ci il. Burada mövcuddur:* https://www.icmpd.org/blog/2022/are-rural-areas-across-europe-viable-destinations-for-ukrainian-refugee-women, *2022-ci il iyunun 21-də baxılıb.*

UNHCR, Operational Data Portal, Ukrainian Refugee Situation. / *BMTQAK "Operativ məlumat portalı, Ukraynalı qaçqınların vəziyyəti", Burada mövcuddur:* https://data.unhcr.org/en/situations/ukraine. *2022-ci il iyunun 23-də baxılıb.*

Wagner, M. 'The war in Ukraine and the renaissance of temporary protection – why this might be the only way to go', ICMPD blog, 2 March 2022. */ M. Wagner "Ukraynadakı müharibə və müvəqqəti himayə intibahı - nə* üçün *bu yeganə* çıxış *yolu ola bilər?", MSİBM bloqu, 2 mart 2022-ci il. Burada mövcuddur:* https://www.icmpd.org/blog/2022/the-war-in-ukraine-and-the-renaissance-of-temporary-protection-why-this-might-be-the-only-way-to-go. *2022-ci il sentyabrın 25-də baxılıb.*

# Modul 6
# Miqrant inteqrasiyası

## Modulun qısa təsviri

Modul bir anlayış kimi inteqrasiyaya müxtəlif perspektivlərdən nəzəri yanaşmaları, o cümlədən inteqrasiya, assimilyasiya, uyğunlaşma və inklüzivlik arasında fərqləqi təsvir edir. O, Aİ tərəfindən tətbiq edilən inteqrasiya siyasətləri və inteqrasiyanı ölçmə alətləri haqqında məlumat verir. Həmçinin, Azərbaycanda miqrantların inteqrasiyası konteksti, siyasətləri və bu prosesdə iştirak edən əsas aktorlar bu modulda açıqlanır.

| İştirakçılar | Mühazirəçilər/təlimçilər |
|---|---|
| Bu modul sosial elmlər, ilk növbədə sosiologiya və iqtisadiyyat fakültələrinin tələbələri üçün icbaridir və kurikulumda nəzərdə tutulan digər fakültələr üçün fəkültətiv fənn ola bilər. | Bu modulun sosial elmlər üzrə ixtisaslaşmış müəllimlər tərəfindən aparılması və idarə edilməsi tövsiyə olunur.<br>Yerli və ya beynəlxalq təşkilatın mütəxəssisi tərəfindən bu mövzuda seminar/təlimin qeyri-akademik auditoriya üçün keçirilməsi əlavə üstünlük verəcək. |

## Öyrənmə məqsədləri və dəyərləri

**Bu modulun sonunda iştirakçılar:**

- sosial, mədəni, siyasi və iqtisadi aspektlərdən inteqrasiya anlayışı ilə və onun Aİ daxilindəki siyasətin qurulmasında istifadəsi yolları ilə tanış olacaqlar;
- miqrantların inteqrasiyası mövzusuna toxunan nəzəriyyələrlə tanış olacaqlar və bu nəzəriyyələrə tənqidi yanaşmağı bacaracaqlar;
- inteqrasiya siyasətləri və ölçmə alətləri haqqında biliklər əldə edəcəklər;
- miqrantların inteqrasiyası ilə bağlı Azərbaycanda həyata keçirilən işlər haqqında biliklərə yiyələnəcəklər;
- fərqli inteqrasiya aspektlərini tənqidi təhlil etməyi və onları sosioloji nöqteyi-nəzərdən qiymətləndirməyi bacaracaqlar.

# Modulun strukturu

## Bölmə 6.1 İnteqrasiya sosial anlayış kimi və inteqrasiya siyasəti

6.1.1 İnteqrasiyanın tərifləri və bu təriflərin müxtəlif aspektləri
6.1.2 İnteqrasiya siyasəti nədir?
6.1.3 İnteqrasiya aspektləri

## Bölmə 6.2 Azərbaycanda miqrant və qaçqınların inteqrasiyası

6.2.1 Azərbaycanda inteqrasiya proqramları

## Bölmə 6.3 Empirik iş/Qiymətləndirmə

6.3.1 Aşağıdakı məsələlərdən birinə dair analitik məqalə:

- Nə üçün inteqrasiya anlayışı bu qədər mürəkkəbdir?
- İnteqrasiya tədbirləri və siyasətlərinin olmaması hansı nəticələrə səbəb olacaq (ola bilər)?
- Müvəqqəti miqrantlar üçün inteqrasiya lazımdırmı? Niyə lazımdır/lazım deyil?
- Nə üçün inteqrasiyanı ölçmək çətindir? Aİ-nin tətbiq etdiyi cari inteqrasiya tədbirləri nə dərəcədə uğurlu ola bilər?

6.3.2 Qeyri-akademik auditoriya üçün təlimin/seminarın son günündə Miqrasiya üzrə dərslikdə təqdim olunmuş tematik misal(lar)ın təhlili.

# Modulun əsas sualları

- Bir anlayış kimi inteqrasiya nəyi nəzərdə tutur və uyğunlaşma, inklüziya və assimilyasiyadan nə ilə fərqlənir? Sosial birlik nədir?
- Müvafiq siyasətlərdə miqrantların inteqrasiyasını nəzərdə tutan əsas sahələr hansılardır?
- İnteqrasiya siyasəti nəyi ehtiva edir? Aİ dövlətləri və ya digər dövlətlər tərəfindən həyata keçirilən müəyyən inteqrasiya siyasətlərindən misallar verə bilərsinizmi?
- Aİ-nin tətbiq etdiyi əsas inteqrasiya ölçmə alətləri hansılardır? Onların üstünlükləri/ çatışmazlıqları nə ola bilər?
- Azərbaycanda miqrantların inteqrasiyası necə həyata keçirilir? Bununla bağlı hansı siyasət təklifləri var?

# Müddət və mühazirə metodu

| Modul 6-ın bölmələri | Kursun müddəti | |
|---|---|---|
| | Saat | Dərs |
| Bölmə 6.1 İnteqrasiya sosial anlayış kimi və inteqrasiya siyasəti | 2 | 1 |
| Bölmə 6.2 Azərbaycanda miqrant və qaçqınların inteqrasiyası | 2 | 1 |
| Bölmə 6.3 Empirik iş/Qiymətləndirmə, xüsusilə qeyri-akademik auditoriya üçün | 2 | 1 |
| **Cəmi** | **6** | **3** |

# Modulun indikativ məzmunu

## Bölmə 6.1 İnteqrasiya sosial anlayış kimi və inteqrasiya siyasəti

Əksər dövrlərdə Avropa dövlətləri əcnəbilərin qəbulunu müvəqqəti xarakterli sayırdı və özlərini immiqrasiya ölkəsi hesab etmirdi. Yalnız 1990-cı illərin ikinci yarısında əsas qəbul edən ölkələr etiraf etməyə başladılar ki, tez-tez təkrarlanan bu siyasi mövqe inteqrasiyanın və inteqrasiya siyasətinin diqqət mərkəzində olduğu sosial reallığı daha əks etdirmir. Əvvəllər immiqrasiya siyasəti ənənəvi olaraq daxili əmək bazarının ehtiyaclarına yönəlirdi və "rotasiya prinsipi"ni rəhbər tuturdu. Niyyət xarici işçi qüvvəsini müvəqqəti cəlb etmək və işlərini başa vurduqdan sonra və ya iqtisadi tənəzzül zamanı əməkçi miqrantları öz ölkələrinə qaytarmaq idi. 1990-cı illərdə isə Avropa dövlətləri ilkin konsepsiyanın əksinə olaraq bu ərazilərə immiqrasiyanın müvəqqəti xarakter daşımadığını başa düşməyə başladılar və əməkçi immiqrantların böyük bir hissəsi onları qəbul etmiş dövlətlərdə daimi məskunlaşmaq qərarına gəldi. Söhbət inteqrasiyadan gedəndə, elmi cəhətdən müəyyən edilə biləcək ideal vəziyyət yoxdur. Konkret tarixi və coğrafi kontekstdə inteqrasiyanın hansı məna kəsb etməsi və ya nəyi nəzərdə tutması barədə qərar hər zaman ictimai və siyasi debatlar nəticəsində qəbul olunur. "İnteqrasiya" termini immiqrasiyadan sonra baş verən məskunlaşma prosesinə, qəbul edən cəmiyyətlə qarşılıqlı əlaqəyə və sosial dəyişikliklərə aiddir. Bunun fonunda "assimilyasiya", "inteqrasiya", "inklüziya" və "multikulturalizm" kimi dörd termin bəzən bir-birini əvəz etməklə istifadə oluna bilər, çünki onların istifadəsi sadə semantikadan kənara çıxır, eləcə də inteqrasiya anlayışının və inteqrasiya idarəçiliyinin fərqli formada mənimsənilməsini nəzərdə tutur. "Assimilyasiya" bu dörd anlayışdan ən köhnəsidir. İlk dəfə 1920-ci illərdə ortaya çıxan bu termin qəbul edən cəmiyyətin "mədəni modellərinin" yeni gələnlər və ya etnik azlıqlar tərəfindən mənimsənilməsi kimi "akkulturasiya" prosesini vurğulayırdı. Bu, qəbul edən ölkədə sosial, siyasi və iqtisadi həyatı müəyyənləşdirən və yeni gələnlərin və ya azlıqların və onların nəsillərinin zamanla qaçılmaz olaraq mənimsəyəcəkləri "əsas" və ya "aparıcı" mədəniyyətin mövcudluğunu nəzərdə tutur. Assimilyasiya və inteqrasiya arasındakı əsas fərq ondan ibarətdir ki, ikincisi həm immiqrantların sadiqliyini, həm də qəbul edən cəmiyyətin və onun təsisatlarının açıqlığını tələb edən yaxınlaşmanı birtərəfli deyil, ikitərəfli proses kimi nəzərdə tutur.

"İnklüziya" anlayışı "biz" və "onlar" və ya bu kontekstdə "miqrant" və "qeyri-miqrant" dixotomiyasını həll etməklə daha da irəli gedir. Burada əsas diqqət qrupa deyil, cəmiyyətə yönəlir. Söhbət, əsas əhalinin malik

olduğu iştirak səviyyəsi ilə eynisinə müəyyən əhali qrupunun nail olmasını təmin etmək üçün çatışmazlıqları aradan qaldırmaqla marjinal kimi müəyyən olunmaqdan getmir. Söhbət bütün qruplara “əsas” kimi yanaşmaqdan və mənşəyindən asılı olmayaraq, bütün qruplar üçün açıq, zehinli və inklüziv cəmiyyət yaratmaqdan gedir. Faktiki olaraq, inteqrasiya anlayışı yuxarıda qeyd olunmuş üç konseptual yanaşmanın hər birinə aiddir. Məsələn, bu konsepsiyalar inteqrasiyanı dil, dəyərlər, eləcə də hüquqi və siyasi nizamın əsasları ilə müəyyən edilmiş əsas mədəniyyətə aid etməklə “assimilyasiya” xarakterli elementlərini ehtiva edirlər. Eyni zamanda, onlar inteqrasiyanı həm miqrantların, həm də qəbul edən cəmiyyətlərin iştirak etdiyi ikitərəfli proses kimi müəyyən etməklə və bu tərəflər üçün hüquq və öhdəlikləri nəzərdə tutmaqla inteqrasiyalıdır. Bu baxımdan, dövlətin maliyyələşdirdiyi dil kursları yaxşı bir misaldır.

Qızğın müzakirə edilən digər anlayış, immiqrantların inteqrasiyasının rəhbər prinsipi kimi multikulturalizmə aiddir. Adətən ictimai debatlarda multikulturalizm immiqrantların qəbul edən cəmiyyətə öyrəşməsini ümumiyyətlə tələb etməyən və nəticə etibarı ilə inteqrasiyanı əngəlləyən və sosial birliyi pozan qarışmama yanaşması kimi mənfi mənada ifadə olunur. Lakin, miqrasiya və inteqrasiya tədqiqatları kontekstində multikulturalizmin fərqli məna verdiyini görmək olar. Birincisi, o, ölkədə “mövcud mədəni müxtəlifliyin empirik reallığını” təsvir etmək üçün istifadə olunur. İkincisi, o, qrupların və fərdlərin iştirak etdiyi və müxtəlif qruplar üçün fərqli işləyən ikitərəfli sosial inteqrasiya prosesi kimi başa düşülür. Multikulturalizm, məsələn immiqrantın sosial nərdivanla yuxarı qalxmaq üçün dil və digər təlim kurslarında könüllü iştirakı ilə ifadə olunan inteqrasiyanın fərdi aspektlərini inkar etmir, lakin qrupları ümumilikdə sosial həyatın, xüsusən də immiqrant inteqrasiyasının ən vacib xüsusiyyəti kimi vurğulayır.

Məkan və zaman ölçüləri baxımından inteqrasiya müxtəlif aspektləri ehtiva edir və miqrantların təyinat ölkəsində kəsişməyə davam etdiyi fərqli sahələrlə, o cümlədən sosial, siyasi, mədəni, iqtisadi sahələrlə əlaqələndirilir. Miqrantlar sosial-iqtisadi mənşəyinə, təhsil nailiyyətlərinə və ya mədəni mənsubiyyətinə görə olduqca müxtəlif tərkibli qrupdur və bu, istənilən (konstruktiv) ümumiləşdirməni çətinləşdirir və ya hətta qeyri-mümkün edir. Bunu nəzərə alaraq iddia etmək olar ki, bütün mövcud tədqiqatlar iqtisadi və demoqrafik baxımdan immiqrasiyanın qəbul edən Avropa cəmiyyətləri üçün həqiqətən də faydalı olduğunu göstərir. Görünür, immiqrasiya adambaşına düşən ÜDM-i orta hesabla artırır, ixtisas və əmək haqqı spektrinin hər iki tərəfində yer alan əsas vakansiyaları doldurur, yerli əmək bazarında uzunmüddətli yerdəyişmələrlə nəticələnmir və ümumiyyətlə, immiqrantların daha əlverişli yaş strukturuna görə dövlətin maliyyə və sosial təminat sistemlərininin yükünü azaldır. Bununla belə, miqrantların inteqrasiyası baxımından problemlər mövcuddur. Belə ki, çox vaxt müəyyən qruplar üçün artan hərəkətlilik olduğu yerdə, digər qruplar üçün azalan hərəkətlilik müşahidə olunur. Ümumiyyətlə, birinci nəsil immiqrantlar öz ixtisas səviyyəsindən aşağı işlərdə çalışmaq və çox vaxt orta səviyyədən az əmək haqqı almaq riski ilə üzləşirlər. Bu, əsasən dörd amillə əlaqələndirilir: dil maneələri, qəbul edən ölkədəki standartlardan fərqlənən təhsil və ya peşə hazırlığı sənədləri, bacarıq və ixtisasların rəsmi tanınmasında çətinliklər və formal işə qəbul kanalları və ya qeyri-formal sosial şəbəkələr vasitəsi ilə məşğulluq imkanlarına çıxış problemləri ilə.

İnteqrasiya siyasətinin hazırlanması baxımından alman sosioloqu Hartmut Esser ən təsirli konsepsiyalardan birinin müəllifidir. O, immiqrantların inteqrasiyasını qəbul edən ölkənin sosial sisteminə daxil olma kimi müəyyən edir. Burada əsas proses inteqrasiyanın dörd fərqli aspekti ilə əlaqəli dörd müxtəlif mərhələdən ibarətdir. Birinci mərhələ olan akkulturasiya inteqrasiyanın mədəni aspektinə aiddir və dil, bilik və bacarıqların mənimsənilməsini nəzərdə tutur. İkinci mərhələ sayılan mövqeləşdirmə struktur aspektinə aiddir və hüquqların əldə edilməsindən, əmək və mənzil bazarında və təhsil sistemində iştirakdan ibarətdir. Üçüncü mərhələ qismində qarşılıqlı əlaqə sosial aspekti vurğulayır və etnik sərhədlərdən, dostluqdan, nikahdan və ailədən kənar təmaslara və əlaqələrə aid edilir. Dördüncü mərhələ - eyniləşdirmə emosional aspektlə əlaqəlidir və qəbul edən cəmiyyətə müsbət oriyentasiya, identiklik və həmrəylik hissi və bu

cəmiyyətin ümumi dəyərləri və sosial normalarının artan xəttlə qəbulu ilə xarakterizə olunur. Bu baxımdan iki məsələ əsas rol oynayır: vaxt və fərdi uğur. İnteqrasiya prosesləri vaxt tələb edir və uğurlu inteqrasiya əsasən insanın şəxsi istəklərinin həyata keçirilməsində əldə etdiyi uğurdan asılıdır. Eyni zamanda, burada, qəbul edən cəmiyyət, onun sistemi və dəyərləri ilə eyniləşdirmənin inteqrasiya prosesinin başlanğıcda olması barədə geniş yayılmış fikir bir perspektiv səviyyəsində mövcuddur. Əslində isə bunun əksi görünür və müsbət eyniləşdirmə uğurlu inteqrasiya prosesinin başlanğıcı deyil, son nöqtəsidir.

İmmiqrasiya yalnız yeni gələnlərə deyil, həmçinin qəbul edən cəmiyyətə və onun daimi üzvlərinə, vətəndaşlara və uzunmüddətli immiqrantlara təsir edir. İmmiqrasiya və inteqrasiya cəmiyyətin strukturunu və onu birləşdirən qüvvələri təşkil edən müxtəlif iqtisadi, sosial-mədəni və siyasi aspektlərə toxunur. Cəmiyyətin strukturu sosial birlik adı ilə də tanınır və sonuncunun hamı tərəfindən qəbul edilmiş tərifi yoxdur, lakin bütün təriflərin ümumi cəhəti ondan ibarətdir ki, onlar üzvlərinin bir-biri ilə yanaşı, təsisatları ilə də bağlılığı hiss edən, həmrəylik nümayiş etdirən, və "ümumi rifaha doğru" istiqamtlənən cəmiyyət daxilində "inklüziya", "mənsubiyyət" və "identiklik" hisslərinin mövcudluğunu nəzərdə tuturlar. Cəmiyyət daxilində onun üzvləri arasında bu cür rəftar sülh və məmnunluq doğuran münasibətləri təmin etməklə yanaşı, dövlətin və cəmiyyətin funksionallığı üçün qaçılmaz ilkin şərt hesab olunur. Sosial birlik milli dövlət vətəndaşlarının və burada məskunlaşmış əcnəbilərin bir-birinə etibar etməsini təmin edən cəmiyyəti, eləcə də ümumi rifaha nail olmaq üçün öz aralarında əməkdaşlıq etməyə imkan verən identikliyi təşkil etməsinə inamı kimi başa düşülür. Burada immiqrasiya, miqrantların inteqrasiyası və sosial birlik arasındakı əlaqə barədə sual yaranır. Kristian Albrekt Larsen "sosial inteqrasiyanı sosial birliyə aparan proses", inteqrasiyanı isə konkret qruplara deyil, bütün cəmiyyət üzvlərinə aidiyyəti olan proses kimi müəyyən edir. Sözügedən analitik bu tərifə istinad edərək üç əsas qənaətə gəlir: möhkəm birliyi olan cəmiyyət əhalisinin bütün yarımqrupları və qruplarını, o cümlədən immiqrantları inteqrasiya etməyi bacaran cəmiyyətdir; inteqrasiya bütün cəmiyyət üzvlərinin fəal iştirakını tələb edən və daim davam edən prosesdir; dövlətlərin inteqrasiya-birlik əlaqəsində böyük marağı var, çünki uzunmüddətli perspektivdə birliyin olmaması təkcə cəmiyyəti birlikdə saxlayan qüvvələri deyil, dövlətlərin idarəetmə qabiliyyətini də pozacaq.

İmmiqrant inteqrasiyası üç əsas istiqamət üzrə cərəyan edir: immiqrantlar tərəfindən fərdi inteqrasiya səyləri, immiqrantlar və qəbul edən cəmiyyətin sosial sistemləri arasındakı münasibətlər və immiqrantlar, immiqrant olmayanlar və dövlət təsisatları və strukturları arasında əlaqələr. İnteqrasiya siyasətləti konkret tarixi, siyasi, iqtisadi və mədəni mühitlərə daxil edilir və ölkədəki spesifik immiqrasiya vəziyyətini, o cümlədən miqrant əhali sayını və tərkibini özündə əks etdirirlər. Onlar müəyyən dərəcədə fərqlənir, lakin yenə də ümumi problemlərlə üzləşir və immiqrant inteqrasiyasına gəldikdə, müqayisə oluna bilən cavablar hazırlayırlar. Ümumilikdə, bütün inteqrasiya siyasətlərinə yanaşmaların bir başlıca məqsədi var: qəbul edən cəmiyyətlərin iqtisadi, mədəni və sosial həyatında iştirakı üçün miqrantların lazımi vasitələrə yiyələnməsini, hüquq və imkanlara bərabər çıxışdan faydalanmasını və yerli əhali ilə eyni vəzifələr daşımasını təmin etmə inteqrasiya siyasətləri konsepsiyasının mərkəzində yer alır. Adətən, inteqrasiya siyasətləri üç istiqamət üzrə formalaşdırılır. *Strukturlu inteqrasiya* immiqrantların qəbul edən ölkənin iqtisadi həyatında iştirakını, təhsil və səhiyyə sistemlərinə çıxışını nəzərdə tutur. *Sosial və mədəni inteqrasiya* immiqrantların sosial həyatda iştirakı və ümumi ortaq dəyərlərə yönəlməsi deməkdir. *Siyasi inteqrasiya* əcnəbilərin siyasi qərarların qəbulu prosesində iştirakı anlamına gəlir. Məlum olduğu kimi, adətən ölkənin siyasi həyatında hərtərəfli iştirak hüququ yalnız vətəndaşlıq alındıqdan sonra verilir. Ümumiyyətlə, inteqrasiya siyasətləri dil, əmək bazarı, təhsil, norma və dəyərlər, eləcə də sosial-mədəni qarşılıqlı fəaliyyət sahələrinə diqqət yetirir. Bir kəsişən məsələ olaraq, onlar yalnız miqrasiya siyasətləri ilə deyil, çoxlu sayda digər siyasət sahələri, habelə dövlət məşğulluq siyasəti və xidmətləri, eləcə də təhsil, səhiyyə və mənzil siyasət və sistemləri kimi müntəzəm strukturlarla əlaqəlidir.

Dövlətlər keçmiş təcrübəyə əsaslanaraq belə qənaətə gəliblər ki, inteqrasiya tədbirləri fərdi inteqrasiya prosesinə mümkün qədər tez müdaxilə etsə, daha uğurlu olacaq. Bu baxımdan, ideal şəraitdə inteqrasiya

tədbirləri fərdi inteqrasiya prosesinin və ya bioqrafiyanın mümkün olan ən erkən mərhələsində başlamalıdır. İmmiqrantlar qəbul edən ölkəyə gəldikdən dərhal sonra və ya hətta gəlməzdən əvvəl onun dili və mədəniyyəti ilə tanış olmalıdırlar. Bir sıra bu kimi dillə əlaqəli tədbirlər bu yanaşmanın səmərəli tətbiqini təmin etmək məqsədi daşıyır: a) yeni immiqrantlar üçün intensiv dil kursları onlara qəbul edən cəmiyyətin iqtisadi, sosial və mədəni həyatında mümkün qədər tez iştirak etmək imkanı verən dil səviyyəsini təmin etməlidir, b) qəbul edən ölkəyə faktiki daxil olmazdan əvvəl ərizəçilərə müəyyən dil səviyyəsini əldə etməyi və sübut etməyi tələb edən mənşə ölkəsindəki dil kursları və testləri, c) immiqrantlara əvvəlki tələblərdən yüksək dil biliyi təmin edən daha intensiv proqram. Beləliklə, dil biliyi və müvafiq təlim tədbirləri ilə bağlı tələblərin artması tendensiyası müşahidə olunur. İnteqrasiya tədbirlərinin şaxələndirilməsi inteqrasiya siyasətinin başqa bir prinsipi ilə, yəni hər bir konkret hal üçün fərdi həll yollarının hazırlanması ilə parallel şəkildə gedir. Uğurlu inteqrasiya prosesi ərzində bütün immiqrantların dil öyrənməsi, əmək bazarına inteqrasiyası və ya bacarıq və ixtisaslarının tanınması kimi bir sıra ümumi inteqrasiya problemləri ilə üzləşməsi tendensiyası mövcuddur. Eyni zamanda, inteqrasiya həmişə daha uzun müddət ərzində baş verən fərdi proses hesab olunur və miqrantlar qəbul edən ölkəyə gəlməzdən əvvəl və gəldikdən sonra şəxsi bioqrafiyalarından irəli gələn nisbətən kiçik və ya böyük maneələrlə üzləşirlər. Odur ki, fərdi inteqrasiya planları fərdi inteqrasiya problemlərini daha məqsədyönlü şəkildə həll edirlər, həmçinin, immiqrantların uğurlu inteqrasiyasına gəldikdə, onların şəxsi məsuliyyət hissini gücləndirirlər. Qəbul edən cəmiyyətə uğurla inteqrasiya etmək üçün “şəxsi səylərin immiqrantların vəzifəsi olması” barədə anlayış inteqrasiya siyasəti tədbirlərinin başqa bir prinsipində, konkret olaraq stimul və sanksiyaların tətbiqində öz ifadəsini tapıb.

Son illərdə Avropa dövlətlərinin çoxu inteqrasiya indikatorları tətbiq edib. Bu indikatorlar statistik metodlardan istifadə etməklə immiqrant inteqrasiyasının vəziyyətini ölçməlidir. Bununla belə, seçilmiş metodologiyalar ölkədən ölkəyə fərqlənir. Bəzi dövlətlər az sayda əsas indikatordan, məsələn, məşğulluq, gəlir, təhsil səviyyələri göstəricilərindən istifadə edir, digərləri isə 100-dən çox fərqli indikatordan ibarət toplunu tətbiq edir. İstifadə olunan metodologiyadan asılı olmayaraq qeyd etmək lazımdır ki, ölkədə inteqrasiya vəziyyətini dəqiq ölçmək çox çətindir. Buna baxmayaraq, müəyyən problemli sahələrin və ya qəbul edən ölkələrin iqtisadi, sosial və mədəni həyatında uğurla iştirak etməkdə çətinlik çəkən immiqrant qruplarının müəyyənləşdirilməsinə gəldikdə, inteqrasiya indikatorları çox faydalı olub. Ümumiyyətlə, indikatorlar sosial hadisələrin kəmiyyətini müəyyənləşdirərək sadələşdirir və mürəkkəb reallıqları dəqiq ölçmədən daha yaxşı başa düşməyə kömək edir. Məsələn, immiqrantların təhsil səviyyəsinin ölçülməsi onların uğurla inteqrasiya olunub-olunmadığını tam izah etmək üçün yetərli olmayacaq. Lakin çox vaxt təhsil əmək bazarında iştirakla bağlı olduğundan, onun digər amillərlə birlikdə müsbət və ya mənfi təsir göstərəcəyini güman etmək olar. Nəticə etibarı ilə, inteqrasiya indikatorları və ya monitorinq sistemləri bütövlükdə ümumi vəziyyətin dolğun mənzərəsini təsvir edən müxtəlif məlumat toplularından istifadə edir. Sosial şəraitin və proseslərin kəmiyyət indikatorları vasitəsi ilə monitorinqi, məsələn, yoxsulluğun, ümumi həyat şəraitinin və ya əmək bazarının tədqiqi sahələrində tez-tez istifadə olunan metoddur.

Digər tərəfdən, miqrant inteqrasiyası proseslərinin monitorinqi son illərdə böyük əhəmiyyət kəsb etməyə başlasa da, nisbətən yeni haldır. Adətən, yerli və regional səviyyələr inteqrasiya indikatorları və ya monitorlarını ilk olaraq təqdim edirdilər. Yerli səviyyədən sonra mərkəzi hakimiyyət orqanları da bütün ölkə səviyyəsində vəziyyəti nəzərdən keçirməyə başladılar. Beləliklə, inteqrasiya vəziyyətinin ölçülməsinə verilən önəm Aİ səviyyəsində də vahid inteqrasiya indikatorlarının işlənib hazırlanması faktında özünü göstərdi. Saraqosa indikatorlarına əsasən, Aİ dövlətləri arasında aparılmış ilk araşdırma inteqrasiya monitorinqinin faydalılığını təsdiqlədi və bir sıra maraqlı nəticələri ortaya çıxardı. Aİ-də müxtəlif immiqrant qrupları arasında yüksək dərəcədə fərqli tərkiblilik fonunda tədqiqat göstərdi ki, milliyyət, cins, yaşama müddəti və sosial-iqtisadi vəziyyət inteqrasiya nəticələrinə müxtəlif ayrı-seçkilik formaları qədər təsir edir.

## Bölmə 6.2 Azərbaycanda miqrant və qaçqınların inteqrasiyası

Azərbaycan Hökuməti ölkədəki əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə bağlı inteqrasiya səylərinin gücləndirilməsinə yönəlmiş təşəbbüslərə fəal şəkildə rəhbərlik edir. Nəticə etibarı ilə, Azərbaycan Hökuməti qaçqın və miqrantların cəmiyyətdə hərtərəfli və fəal iştirakına, həmçinin müstəqil həyat yaşamasına kömək edən müxtəlif təşəbbüslər hazırlayıb. Belə ki, 2022-ci ildə DMX yanında Miqrant Şurası yaradılıb. Miqrant Şurasının əsas məqsədi Azərbaycanda yaşayan immiqrant və qaçqınların inteqrasiyasının asanlaşdırılmasını nəzərdə tutan proqramlar hazırlamaqdır. DMX-nın müraciəti əsasında MSİBM "Aİ ilə Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" (MOBILAZE2)" layihəsi çərçivəsində miqrant, o cümlədən qaçqın inteqrasiyasına dair tədbirləri yerinə yetirir. MSİBM DMX ilə sıx əməkdaşlıq edərək və DMX-nın Bakı şəhər Regional Baş İdarəsindən iki nəfər milli ineqrasiya məsləhətçisini cəlb edərək Azərbaycanda miqrantlar, o cümlədən qaçqınlar üçün inteqrasiya proqramını 2023-cü ilin fevral ayından sınaqdan keçirməyə başlayıb. İnteqrasiya proqramının diqqət yetirdiyi bir neçə əsas sahə mövcuddur. Yeni icmalarda məskunlaşdırılması və istiqamətləndirilməsi üçün yeni gələnlərə oriyentasiya dəstəyi göstərilir. Azərbaycan dilini az (çox az) bilən yeni gələnləri həkim qəbuluna istiqamətləndirmə və qəbulu planlaşdırma, dil kursları, notariat fəaliyyəti, şəhər qeydiyyatı və icmada mövcud olan mədəni və maarifləndirmə xidmətləri orientasiya dəstəyinə daxildir. Həmçinin, miqrant və qaçqın benefisiarlar dövlət orqanlarında inzibati prosedurlardan keçməkdə istiqamətləndirilir. Sağlamlıq bütün insanların əsas hüquqlarından biridir. Odur ki, inteqrasiya proqramının əsas məqsədlərindən biri miqrant və qaçqınların tibbi xidmətlərə çıxışını təmin etməkdir. İnteqrasiya proqramı benefisiarların müvafiq yerli tibbi xidmətlərə göndərilməsini nəzərdə tutur, mümkün olduqda, onlara dövlət və ya özəl tibbi sığorta zərflərini əldə etməkdə kömək edir. Müvafiq inteqrasiya üzrə keys meneceri benefisiarlara ilkin səhiyyə xidmətləri göstərən yerli tibb müəssisələrində qeydiyyatdan keçməkdə dəstək verir, miqrant və qaçqınlar üçün icma əsaslı səhiyyə xidmətlərinin əlçatanlığını təbliq və təşviq edir. Bununla yanaşı, inteqrasiya proqramı benefisiarlara müvafiq təlim-tədris imkanları ilə kömək göstərmək məqsədi daşıyır. Bununla əlaqədar olaraq, inteqrasiya üzrə keys menecerləri yerli ərazilərdə miqrant və qaçqınlar üçün əlçatan olan formal və qeyri-formal təlim-tədris müəssisələrinin xəritəsini tərtib edirlər. Əgər bu cür müəssisələr əlçatan deyilsə, sözügedən menecerlər bunun səbəblərini araşdırır və inteqrasiya proqramı benefisiarlarının həmin müəssisələrə çıxışı istiqamətində növbəti işləri həyata keçirirlər. Uğurlu inteqrasiyanın vacib elementlərindən biri iqtisadi cəhətdən özünütəminliyə nail olmaqdır. Məşğulluq maddi təhlükəsizliyə zəmanət verməklə yanaşı, fərdin qəbul edən cəmiyyətdə bərabər şəkildə iştirak etmək, dostluq əlaqələri yaratmaq və sosial dəstək şəbəkələri qurmaq qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Eyni zamanda, miqrasiya sahəsində fəaliyyət göstərən beynəlxalq və yerli təşkilatlar Azərbaycanda yaşayan miqrant və qaçqınlara xidmət göstərmək baxımından bir-biri ilə əməkdaşlıq etməyə çalışırlar. Bu kontekstdə, ölkədə inteqrasiya tədbirlərinin müxtəlif aspektlərdə gücləndirilməsi üçün müəyyən tövsiyələr də verilir. Bu tövsiyələr, digər məsələlərlə yanaşı, kifayət qədər vəsaitin ayrılmasını, miqrant və qaçqınların müxtəlif ehtiyaclarını nəzərə almaqla yerlərdə dəstəklənməsi üçün icma səfərbərliyini, inteqrasiya təcrübəsi və praktikasına diqqət yetirən fakt əsaslı tədqiqatların daha çox aparılmasını nəzərdə tutur.

## Bölmə 6.3 Empirik iş/Qiymətləndirmə

6.3.1 Akademik auditoriya üçün yekun tapşırığın tələbələrin seçimi əsasında aşağıdakı məsələlərdən birinə diqqət yetirən analitik məqalə formasında olması tövsiyə edilir:

- Nə üçün inteqrasiya anlayışı bu qədər mürəkkəbdir?
- İnteqrasiya tədbirləri və siyasətlərinin olmaması hansı nəticələrə səbəb olacaq (ola bilər)?

- Müvəqqəti miqrantlar üçün inteqrasiya lazımdırmı? Niyə lazımdır/lazım deyil?
- Nə üçün inteqrasiyanı ölçmək çətindir? Aİ-nin tətbiq etdiyi cari inteqrasiya tədbirləri nə dərəcədə uğurlu ola bilər?

"APA" formatında tərtib olunaraq "12 pt" ölçüsündə "Times New Roman" şrifti ilə yazılan məqalə, istifadə edilmiş ədəbiyyat siyahısını çıxmaq şərti ilə, maksimum 6 səhifə olmalıdır. Buraya *giriş*, əsas *hissə* və *yekun* daxil olmalıdır. Məqalənin giriş hissəsi məqalədə müzakirə olunan məsələ ətrafında debatlara diqqət yetirməlidir, əsas hissə isə mövzu üzrə ədəbiyyatın icmalına, eləcə də tənqidə, o cümlədən tələbələrin məsələ ilə bağlı tənqidi təhlilinə əsaslanmalıdır. Bütövlükdə bu məqalə tələbələr üçün yuxarıda qeyd olunan məsələlərdən biri üzərində düşünmək və tənqidi düşünmə qabiliyyətlərini, habelə müvafiq siyasətlə bağlı konseptual təhlil nümayiş etdirmək üçün yaxşı fürsətdir. Analitik məqalə fərdi çalışmadır və tövsiyə olunur ki, yuxarıda qeyd olunan mövzulardan biri sənədin son təqdimetmə tarixindən 3 həftə əvvəl seçilsin.

6.3.2 Qeyri-akademik auditoriya ilə əlaqədar, Miqrasiya üzrə dərslikdə təqdim olunmuş tematik misal(lar)ın təhlili bir variant ola bilər. Sayından asılı olaraq iştirakçılar qruplara bölünə bilər, qrupda bir və ya iki tematik misalın araşdırılması nəzərdə tutula bilər və bu zaman onlardan müvafiq misalı inteqrasiyanın ölçülməsi və siyasət nöqteyi-nəzərindən təhlil etmək tələb olunacaq. Bu məqsədlə qrupa düşünmək və öz təhlilini aparmaq üçün 20 dəqiqə vaxt verilə bilər. Təlimçinin və digər auditoriya üzvlərinin sual-cavablarından ibarət bölməni çıxmaqla, qrup işinin təqdimatı təxminən 15 dəqiqə çəkməlidir.

Akademik auditoriya üçün qiymətləndirmə aşağıdakı meyarlara əsaslanmalıdır:

| | |
|---|---|
| Tənqidi düşüncə bacarıqları | 60% |
| Akademik yazı bacarıqları | 20% |
| Məqalənin təşkili | 20% |
| **Qiymətin ümumi faizi** | **100%** |

# Resurslar və əlavə ədəbiyyat


Alba, R. and V. Nee, 'Rethinking Assimilation Theory for a New Era of Immigration', The International Migration Review, Vol. 31, No. 4, Special Issue: Immigrant Adaptation and Native-Born Responses in the Making of Americans, 1997, pp. 826-874. */ R. Alba, V. Nee "Yeni immiqrasiya dövrü üçün assimilyasiya nəzəriyyəsini yenidən düşünmə", Beybəlxalq Miqrasiya İcmalı, cild 31, No 4, Xüsusi buraxılış: İmmiqrantların adaptasiyası və amerikalıların formalaşmasına yerli əhalinin reaksiyası, 1997-ci il, səh. 826–874. Burada mövcuddur:* https://doi.org/10.2307/2547416. *2023-cü il noyabrın 29-da baxılıb.*

Azərbaycan Qızıl Aypara Cəmiyyəti "Biz nə edirik", Burada mövcuddur: https://yardim.et/az/what-we-do (in Azerbaijani). 2023-cü il noyabrın 29-da baxılıb.

Bauböck, R., 'Citizenship and Migration – Concepts and Controversies', in Bauböck, R. (ed.), Migration and Citizenship: Legal Status, Rights and Political Participation, Amsterdam, Amsterdam University Press, 2006, pp. 15-32. */ R. Bauböck "Vətəndaşlıq və miqrasiya - anlayışlar və ziddiyyətlər", Rainer Bauböckun redaktorluğu ilə "Miqrasiya və vətəndaşlıq: hüquqi status, hüquqlar və ölkənin siyasi həyatında iştirak", Amsterdam Universitetinin Nəşriyyatı, 2006-cı il, səh. 15-32. Burada mövcuddur:* http://www.jstor.org/stable/j.ctt46mvkf.6. *2023-cü il noyabrın 29-da baxılıb.*

Brüggemann-Buck, I., Migration in Europe: Migration movements and their political effects in the context of European integration, University of Marburg, 1999. */ I. Brüggemann-Buck "Avropada miqrasiya: Avropaya inteqrasiya kontekstində miqrasiya hərəkətləri və onların siyasi təsirləri", Marburq Universiteti, 1999-cu il. Burada mövcuddur:* https://core.ac.uk/reader/161970550*. 2023-cü il noyabrın 29-da baxılıb.*

Carerra, S. (ed.), The Nexus between Immigration, Integration and Citizenship in the EU, CEPS-CHALLENGE Liberty & Security, Collective Conference Volume, CEPS Policy Brief, April 2006. / *S. Carerra (red.) "Aİ-də immiqrasiya, inteqrasiya və vətəndaşlıq arasında* əlaqə*, CEPS-CHALLENGE azadlıq və təhlükəsizlik, Kollektiv Konfrans Cildi, CEPS siyasət məlumatı, aprel 2006-cı il. Burada mövcuddur:* https://www.files.ethz.ch/isn/20641/Nexus_Immigration_Integration.pdf. *2023-cü il noyabrın 29-da baxılıb.*

Castels, S. and S. Loughna, 'Trends in Asylum Migration to Industrialized Countries: 1990-2001', United Nations University, World Institute for Development Economics Research, Discussion Paper No. 2003/31. */ S. Castels və S. Loughna "1990-2001-ci illərdə sənayeləşmiş* ölkələrə *sığınacaq miqrasiyasında tendensiyalar", Birləşmiş Millətlər Universiteti,* İqtisadiyyat İnkişafının *Tədqiqatları* üzrə Dünya İnstitutu*, Müzakirə* üçün *sənəd No. 2003/31. Burada mövcuddur:* https://www.wider.unu.edu/sites/default/files/dp2003-31.pdf. *2023-cü il noyabrın 29-da baxılıb.*

Dragolov, G. et al., Social Cohesion Radar Measuring Common Ground: An international Comparison of Social Cohesion Methods Report, Bertelsmann Foundation, 2013 */ G. Dragolov və başqaları "Sosial birlik radarı.* Ümumi *zəminin* ölçülməsi*: sosial birliyin beynəlxalq müqayisəsi metodlarının hesabatı", Bertelsmann Fonu (red.), 2013-cü il. Burada mövcuddur:* http://aei.pitt.edu/74134/1/Social_cohesion_radar.pdf. *2023-cü il noyabrın 29-da baxılıb.*

EMN, Labour market integration of Third-Country Nationals in EU Member States: Synthesis Report for the EMN Study, Brussels, European Commission, 2019. */ AMŞ "Aİ ÜD-lərdə* üçüncü ölkə *vətəndaşlarının*

əmək *bazarına inteqrasiyası* – AMŞ *tədqiqatının* ümumi *hesabat", Brüssel, Avropa Komissiyası, 2019-cu il. Burada mövcuddur*: https://ec.europa.eu/migrant-integration/library-document/labour-market-integration-thirdcountry-nationals-eu-member-states_en. *2023-cü il noyabrın 29-da baxılıb.*

Esser, H., 'Integration and ethnic stratification', Working papers Mannheim Centre for European Social Research, Working papers, No. 40, 2001, pp. 1-82. */ H. Esser "*İnteqrasiya *və etnik təbəqələşmə", Avropa Sosial Tədqiqatlar* üzrə *Mannheym Mərkəzinin işçi sənədləri,* İşşi *sənədlər No 40, 2001-ci il, səh. 1-82. Burada mövcuddur:* https://www.mzes.uni-mannheim.de/publications/wp/wp-40.pdf. *2023-cü il noyabrın 29-da baxılıb.*

European Commission, Special Eurobarometer 469 "Integration of immigrants in the European Union", European Commission, Directorate-General for Communication, April 2018 / *Avropa Komissiyası, Xüsusi Avrobarometr 469 "*İmmiqrantların *Avropa* İttifaqına *inteqrasiyası", Avropa Komissiyası, Baş Kommunikasiya* İdarəsi*, aprel 2018-ci il. Burada mövcuddur:* http://data.europa.eu/euodp/en/data/dataset/S2169_88_2_469_ENG. *2023-cü il noyabrın 29-da baxılıb.*

Heckmann, F., 'Integration and integration policies: IMISCOE network feasibility study', University of Bamberg, European Forum for Migration Studies (EFMS) Institute, research report, 2005. */ F. Heckmann "*İnteqrasiya *prosesi və inteqrasiya siyasətləri: IMISCOE* şəbəkəsinin *texniki-iqtisadi* əsaslandırması*", Bamberq Universiteti, Miqrasiya Araşdırmaları* üzrə *Avropa Forumu (EFMS)* İnstitutu*, tədqiqat hesabatı, 2005-ci il. Burada mövcuddur:* https://www.ssoar.info/ssoar/handle/document/19295. *2023-cü il noyabrın 29-da baxılıb.*

Heckmann, F., 'Welfare State Integration of Immigrants: the Case of Germany', Managing Migration and Integration: Europe and the US, University of California, Berkeley, EFMS, March 2012 / *F. Heckmann "*İmmiqrantların *sosial rifah dövlətinə inteqrasiyası: Almaniya misalı", Miqrasiyanın və inteqrasiyanın idarə edilməsi: Avropa və ABŞ, Kaliforniya Universiteti, Berkeley, EFMS, mart 2012-ci il. Burada mövcuddur:* https://migrationfiles.ucdavis.edu/uploads/rs/files/2012/ciip/heckmannpaper-march9.pdf. *2023-cü il noyabrın 29-da baxılıb.*

Hofmann, M. 'Integration Comes of Age', Per Concordiam Journal of European Security and Defense Issues Vol. 8, No. 4, 2018, pp. 38-45. */ M. Hofmann "*İnteqrasiya *yetkinlik yaşına* çatır*", Avropa təhlükəsizlik və müdafiə məsələləri* üzrə *PerConcordiam Jurnalı, 2018-ci il, cild 8, No 4, səh. 38-45. Burada mövcuddur:* https://perconcordiam.com/perCon_V8N4_ENG.pdf. *2023-cü il noyabrın 29-da baxılıb.*

Jacobs, D. and A. Rea, 'The End of National Models? Integration courses and citizenship trajectories in Europe', International Journal on Multicultural Societies, Vol. 9, No. 2, 2007, pp. 264-183. */ D. Jacobs və A. Rea "Milli modellərin sonu? Avropada inteqrasiya kursları və vətəndaşlıq trayektoriyaları", Beynəlxalq Multikultural Cəmiyyətlər Jurnalı, 2007-ci il, cild 9, No 2, səh. 264-283. Burada mövcuddur:* https://nbn-resolving.org/urn:nbn:de:0168-ssoar-65212. *2023-cü il noyabrın 29-da baxılıb.*

Larsen, C.A., 'Social cohesion: Definition, measurement and developments', Aalborg University, Centre for Comparative Welfare Studies Working paper no. 2014-85, 2014. */ C. A. Larsen "Sosial birlik: tərif,* ölçü *və inkişaf", Aalborq Universiteti, Müqayisəli Rifah Araşdırmaları Mərkəzi,* İşçi *sənəd No 2014-85, 2014-cü il. Burada mövcuddur: https://vbn.aau.dk/ws/portalfiles/portal/207548602/85_2014_CAL.pdf. 2023-cü il noyabrın 29-da baxılıb.*

Modood, T., Multiculturalism and Integration: Struggling with Confusions, European University Institute-Robert Shuman Centre for Advanced Studies, July 2011 / *T. Modood "Multikulturalizm və inteqrasiya:* çaşqınlıqla *mübarizə", Avropa Universiteti* İnstitutu-*Robert* Şuman *Qabaqcıl Araşdırmalar Mərkəzi, iyul 2001-ci il. Burada mövcuddur:* https://www.coe.int/t/dg4/cultureheritage/mars/source/resources/references/others/38%20-%20Multiculturalisme%20and%20Integration%20-%20Modood%202011.pdf. *2023-cü il noyabrın 29-da baxılıb.*

Papademetriou, D.G., Somerville, W. and M. Sumption, 'The Social Mobility of Immigrants and Their Children', Migration Policy Institute, Transatlantic Council on Migration, June 2009. */ D. G. Papademetriou, W. Somerville və M. Sumption "*İmmiqrantların *və onların uşaqlarının sosial hərəkətliliyi", Miqrasiya Siyasəti* İnstitutu*, Miqrasiya* üzrə *Transatlantik* Şura*, iyun 2009-cu il, Burada mövcuddur*: https://www.migrationpolicy. org/sites/default/files/publications/soialmobility2010.pdf. *2023-cü il noyabrın 29-da baxılıb.*

DMX "Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynovun "Pandemiya dövründə Azərbaycanda miqrasiyanın idarə edilməsi" mövzusunda məqaləsi, Mətbuat otağı, xəbərlər, 26 avqust 2020-ci il. Burada mövcuddur: https://www.migration.gov.az/en/news_detail/14185. 2023-cü il noyabrın 29-da baxılıb.

DMX "Dövlət Miqrasiya Xidməti yanında Miqrant Şurasının ilk iclası keçirilib", Xidmət haqqında, Miqrant Şurası, 15 mart 2022-ci il. Burada mövcuddur: https://migration.gov.az/index.php/az/about_detail/2660. 2023-cü il noyabrın 29-da baxılıb.

DMX "Hesabat 2022-ci il (illik hesabat 2022-ci il)", dekabr 2022-ci. Burada mövcuddur: https://migration.gov.az/content/pdf/63c54e6e377c8_DMX%20hesabat%202022%20uzre%20revised.doc.pdf. 2023-cü il noyabrın 29-da baxılıb.

Spencer, S. and K. Charsley, 'Conceptualising integration: a framework for empirical research, taking marriage migration as a case study', Comparative Migration Studies, Vol. 4, No. 1, Art. 18, 2016. */ S. Spencer və K. Charsley "*İnteqrasiyanın *konseptuallaşdırılması: nikah miqrasiyasını misal kimi götürən empirik tədqiqat* çərçivəsi*", Müqayisəli Miqrasiya Araşdırmaları, cild. 4, No 1, məq. 18, 2016-cı il. Burada mövcuddur:* https://doi.org/10.1186/s40878-016-0035-x. *2023-cü il noyabrın 29-da baxılıb.*

# MİQRASİYA ÜZRƏ KURİKULUM

**Miqrasiya Siyasətinin Inkişafi üzrə Beynəlxalq Mərkəz (2024-cü il)**

Bu fənlərarası kurikulum Aİ-nin maliyyələşdirdiyi “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” (MOBILAZE 2) layihəsi çərçivəsində Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) tərəfindən hazırlanıb. Kurikulum Miqrasiya üzrə dərsliyin miqrasiya tədqiqatlarına fənlərarası yanaşma əsasında tədrisi üçün didaktik vəsaitdir və qlobal məsələ olan beynəlxalq miqrasiya burada elmi nöqteyi-nəzərdən müzakirə olunur. Bu kurikulumda əks olunmuş modullar MSİBM-in layihə qrupu və milli elmi ekspert Könül Cəfərova ilə əməkdaşlıq etməklə hazırlanıb. Kurikulum yalnız hüquq, iqtisadiyyat, sosial-siyasi elmlər və jurnalistika fakültələrinin tələbələri və konkret miqrasiya idarəçiliyi məsələləri ilə məşğul olan dövlət qulluqçuları üçün deyil, bütövlükdə geniş ictimaiyyət üçün nəzərdə tutulub və tövsiyə olunur.


Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

ICMPD
International Centre for Migration Policy Development

MOBILAZE
Azərbaycan və Avropa İttifaqı vətəndaşlarını bir-birinə daha yaxın edək